YYSQ – WWW.YYSQ.ORG
www.elmler.net
İntellektual-Elektron Kitabxananın təqdimatında

**“Gənc elektron elm” N 44** (04 - 2014)

**Həcər Hüseynova**

# Nitqin inkişafına dair praktik məşğələlər

*(Əcnəbi tələbələrin Azərbaycan dilini öyrənmələri üçün)*

2014

***www.kitabxana.net – Milli Virtual-Elektron Kitabxananın e-nəşri***

**www.elmler.net**

**Virtual İnternet Resurs Mərkəzinin təqdimatında**

**"Gənc elektron elm": 44** (04 - 2014)

**Bu elektron nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu tərəfindən qismən maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər Qurumunun "Gənc elektron elm – Virtual İnternet resurs mərkəzi" innovativ-intellektual layihəsi çərçivəsində rəqəmsal nəşrə hazırlanır və yayımlanır.**

**Elektron kitab N 44 (04 - 2014)**

**Layihənin maliyyələşdirir:**

**Azərbaycan Respublikasının Prezidenti yanında**

**Gənclər Fondu:**

http://youthfoundation.az

**YYSQ - http://www.yysq.org**
**http://www.elmler.net**

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq


Azərbaycan Gənc Alimlərinin
ELEKTRON KİTABXANASI
Yeni Yazarlar və Sənətçilər Qurumu
Association of New Writers and Artists
AZƏRBAYCAN
GƏNCLƏR FONDU
İntellektual resurs YYSQ və www.kitabxana.net – Milli
Virtual-Elektron Kitabxananın bir bölümü olaraq hazırlanıb.

Həcər Hüseynova

# Nitqin inkişafına dair praktik məşğələlər

*(Əcnəbi tələbələrin Azərbaycan dilini öyrənmələri üçün)*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24.01.2014-cü il tarixli (əmr №68) qərarına əsasən çap olunur.*

**"Elm və təhsil"**

**Bakı – 2014**

www.elmler.net - Virtual İnternet Resurs Mərkəzi

Redaktor: *prof.* **Buludxan Xəlilov**

Rəyçilər: *prof.* **Nadir Abdullayev**
*prof.* **Cəfər Cəfərov**
*prof.* **Əzizxan Tanrıverdiyev**
*prof.* **Məhərrəm Məmmədli**

Həcər Hüseynova. Nitqin inkişafına dair praktik məşğələlər (əcnəbi tələbələr üçün dərs vəsaiti). Bakı, «Elm və təhsil», 2014, 246 s .

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi proq-ram əsasında hazırlanmış dərs vəsaiti Azərbycanda təhsil alan əcnəbi tələbələr, onlara Azərbaycan ədəbi dilinin normalarını öyrədən ixtisas müəllimləri üçün nəzərdə tutulmuşdur.

Dərs vəsaitinin I hissəsində «Nitqin inkişafı» ilə əlaqədar nəzəri məsələlər əcnəbi tələbələrin anlaya biləcəyi tərzdə, aydın şəkildə təq-dim edilmiş, sxemlərdən, cədvəllərdən istifadə edilmişdir.

Vəsaitin II hissəsində praktik məşğələlərə aid nümunələr, inşa və imla mətnləri, III hissədə vacib əməli yazı nümunələri, IV hissədə ifadəli oxu və əzbər ğzğn qədim Azərbaycan – türk mədəniyyətini, tarixini, ədəbiyyatını əks etdirən nümunələr, mətnlər, V hissədə “Azərbaycanı tanıyaq” başlığı altında vətənimizin tarixi guşələrinin şəkilləri və məlumatlar  təqdim edilmişdir.

$\frac{4603000000}{N098-2014}$ qrifli nəşr

© “Elm və təhsil”, 2014



**HEYDƏR ƏLİYEV**

*Azərbaycan xalqının ümumilli lideri*

Heydər Əliyev 1923-cü il, mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. 1969-1982-ci illərdə Azərbaycan Respublikasının rəhbəri – birinci katibi olmuşdur.

1982-87-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ rəhbərlərindən biri olmuşdur.

Heydər Əliyev 1990-cı ilin yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar bəyanatla çıxış etmiş, cinayətin təşkilatçı və icraçılarının cəzalandırılmasını tələb etmişdir. Bundan sonra Vətənə qayıdan Heydər Əliyev Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

Heydər Əliyev 1992-ci ildə YAP-ın Naxçıvanda keçirilmiş təsis qurultayında çıxış etmiş və partiyanın sədri seçilmişdir.

1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuşdur.

2003-cü il dekabrın 2-də vəfat etmişdir.

# HEYDƏR ƏLİYEV
# AZƏRBAYCAN DİLİ HAQQINDA

***«Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir».***

***«Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir».***

***«Hər bir Azərbaycan vətəndaşı, hər bir azər-baycanlı üz ana dilini – Azərbaycan dilini, dövlət dilini bilməlidir».***

***«Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir».***

***«Hər bir xalq öz dili ilə yaranır».***



# AZƏRBAYCANIN ƏRAZİSİ

Azərbaycan Respublikasının ərazisi hazırda 86,6 min km$^2$ təşkil edir.

Ölkə $39^0\ 24^1$, $41^0\ 54^1$ şm en dairələri arasında və $44^0\ 46^1$, $50^0\ 45^1$ ş uzunluğunda, Bakı $40^0$ paralel üzərindədir.

Cənubdan İranla 765 km və Türkiyə ilə 15 km, şimaldan Rusiya ilə 390 km, şimal-qərbdən Gürcüstan ilə 480 km, qərbdən Ermənistan ilə 1007 km həmsərhəddir. Xəzər dənizi ilə sahil xəttinin uzunluğu – 713- km, Bakıdan şimal qütbünə qədər olan məsafə 5550 km, ekvatora qədər olan məsafə 4440 km-dir.

Dünyada ən böyük gölün – Xəzər dənizinin sahəsi 400000 km$^2$, ən dərin yeri–1025 m. ən yüksək dağ zirvəsi–Bazardüzü – 4466 m.-dir.



# AZƏRBAYCANIN BAYRAĞI

Azərbaycan Respublikasında Dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Demokratik Cümhuriyyətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Demokratik Cümhuriyyətin süqutundan sonra bu bayraqdan imtina edilmişdir. Bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Resbublikası Ali Məclisinin qərarı ilə Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edilmiş, xalqın iradəsi ilə Azərbaycanın bayrağı kimi təsdiq edilmişdir.

Rəmzi mənası:

Göy rəng – türklük;

Qırmızı rəng – müasirlik və demokratiya;

Yaşıl rəng – islam;

Aypara və ulduz – aya və günəşə işarə olub, əbədilik, dünyəvilik rəmzidir.



# AZƏRBAYCANIN GERBİ

Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan Dövlətinin müstəqilliyinin rəmzidir.

Rəmzi mənası:

Qalxan – müdafiə;

Üçrəngli dairəvi xətlər – bayrağın nişanələri;

Dairəvi xətlərin üstündəki səkkizguşəli ulduz – günəş;

Səkkizguşəli ulduzun ortasındakı alov dilləri – Odlar Yurdu;

Sünbüllər – bolluq;

Palıd budaqları – uzunömürlülük rəmzidir.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi: Üzeyir Hacıbəyovun**
**Sözləri: Əhməd Cavadındır**

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər!
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, şanlı Vətən!
Azərbaycan, Azərbaycan!

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan vermədi.

1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.



# İLHAM ƏLİYEV

*Azərbaycan Respublikasının Prezidenti*

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.

1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna daxil olmuşdur.

1982-ci ildə aspiranturaya daxil olmuş, 1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsi almışdır.

1985-1990-cı illərdə MDBƏİ-də müəllim işləmişdir.

1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmışdır.

1994-2003-cü illərdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti seçilmişdir.

Suveren Azərbaycanın neft siyasətinin geologiyası aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

Ailəlidir, üç övladı var.

Azərbaycan dilinin inkişafı, onun təbliği və yad təsirlərdən qorunması, dilimizin saflığı istiqamətində Ümummilli lider Heydər Əliyevin siyasəti bu gün onun siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyevin dil siyasəti dilimizin inkişafı istiqamətində göstərdiyi tarixi xidmətlər əsl məktəbdir və bu təcrübədən daima istifadə olunacaq.

# AZƏRBAYCAN DİLİ

Dil insanlar arasında əsas ünsiyyət vasitəsi olaraq əmək prosesində yaranmışdır. Cəmiyyətin mövcud olmasında, təkamülündə, inkişafında dil böyük rol oynamış və öz aparıcı rolunu bu gün də davam etdirir. Dil irqi, irsi, sinfi deyil, cəmiyyətin bütün üzvlərinə eyni dərəcədə xidmət edən ictimai prosesdir, insan düşüncələrinin praktik və maddi cəhətidir. İnsanlar dil vasitəsilə fikir və düşüncələrini ifadə edir, reallaşdırır, başqasının düşüncələrini öyrənmək imkanı əldə edirlər.

Dil lap qədim dövrlərdən insanların ünsiyyət, bir-birinə söz demək ehtiyacından yaranmışdır. Yəni cəmiyyət olmayan yerdə dil, dil olmayan yerdə cəmiyyət ola bilməz.

Dil mənsub olduğu xalqın həyatı ilə sıx əlaqədardır. Həmin xalqın düşüncəsi, təfəkkürü, inam və etiqadları, elmi-mədəni səviyyəsi inkişaf etdikcə onun dili də inkişaf edir, təkmilləşir.

Azərbaycan dili Azərbaycan Respublikasında, Cənubi Azərbaycanda və dünyanın bir çox xarici dövlətlərində yaşayan azərbaycanlıların ana dilidir. Hazırda yer üzündə 50 mln-a yaxın adam Azərbaycan dilində danışır. Tarixən dilimizin adı «türk dili, türki, türk-tatar dili, Azərbaycan dili» kimi adlandırılmışdır.

Azərbaycan dili türk dillərinin oğuz qrupuna, oğuz-səlcuq yarımqrupuna daxildir. Dilimizin fonetik sistemi, lüğət fondu və qrammatik quruluşu eramızın I minilliyində formalaşmışdır.

Hər bir dövlətin dili konstitusiya ilə müəyyən edilir. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dili-

dir. Dilimizin adı Azərbaycan Respublikasının Konstitusiyasında 21-ci maddə ilə müəyyən edilmişdir. Bu, o deməkdir ki, Azərbaycan Respublikasının bütün dövlət orqanlarında yazılı və şifahi əlaqələr Azərbaycan dilində qurulmalıdır.

Dilin inkişafına dövlət daim nəzarət etməlidir. Dilimiz haqqında son illərdə müxtəlif sərəncamlar, fərmanlar olmuşdur:

1992-ci il 22 dekabr: Dilimizin türk dili adlandırılması haqqında fərman.

1995-ci il 12 noyabr: Dövlət dilimizin adı Azərbaycan dili kimi qəbul edildi..

2001-ci il 9 avqust: «Azərbaycan əlifbası və Azərbaycan dili günü»nün təsis edilməsi haqqında qanuna əsasən hər il avqust ayının biri Azərbaycan Respublikasında Azərbaycan dili günü kimi qeyd edilmişdir.

2002-ci il 30 sentyabr: "Dövlət dili haqqında" qanun. Qanunda deyilir: "Azərbaycan Respublikasının dövlət dilinin əlifbası latın qrafikalı Azərbaycan əlifbasıdır"

2003-cü il 2 yanvar: Dövlət dilimizin Azərbaycan dili adlandırılması haqqında qanun...

10 aprel 2013-cü il: "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlər Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı


AZƏRBAYCAN
ƏLİFBASI
Aa
Bb
Cc
Çç
Dd
Ee
Əə
Ff
Gg
Ğğ
Hh
Xx
Iı
İi
Jj
Kk
Qq
Ll
Mm
Nn
Oo
Öö
Pp
Rr
Ss
Şş
Tt
Uu
Üü
Vv
Yy
Zz
.,!?

Azərbaycan əlifbası latın qrafikalı əlifbadır. 1929-cu ilə qədər ərəb, 1929-39-cu illər ərzində latın, 1939-2001-ci illərdə rus qrafikalı əlifbadan istifadə edilmiş, 2001-ci ilin avqustun 1-dən Azərbaycan Respublikası Prezidenti, Ümummilli lider Heydər Əliyevin fərmanı ilə ölkəmizdə latın qrafikalı əlifbaya keçirilməsi təmin edilmişdir.

# NİTQİN İNKİŞAFININ BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

# DİL VƏ NİTQİN MÜNASİBƏTİ

Dil və nitq, onların bir-biri ilə oxşar və fərqli cəhətləri ta qədim dövrdən insanları düşündürmüş, müxtəlif mülahizər meydana gəlmişdir. Buna baxmayaraq, dil və nitqin münasibəti, onların mahiyyətinin elmi şərhinin tarixi XIX əsrdən başlayır. İlk dəfə Avropalı alim Vilhelm Humbolt dərin, sistemli tədqiqatlar aparmış, dil və nitq proseslərinin fərqli cəhətlərini nəzəri cəhətdən əsaslandırmışdır. Alimin hər iki anlayışın konkret sərhədlərini müəyyənləşdirməsi sahəsindəki fikirləri sonradan A.Potebnya, B.Kurtene və başqaları tərəfindən davam etdirilmişdir. Bu sahədə F.Sössürün böyük xidmətləri olmuşdur.

Dil və nitq məsələləri müasir dövrdə də alimlərin diqqət mərkəzindədir. Biz ilk növbədə, «dil» və «nitq» anlayışlarını aydın şəkildə izah etməyə çalışacağıq. İlk növbədə, qeyd etmək lazımdır ki, bu iki termin arasında kəskin fərq, sərhəd mövcuddur.

**Dil** – insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. Mücərrəd işarələr sistemindən ibarət olan dilin xarakterik quruluşu, ifadə imkanları, qanunları, vəzifələri vardır.

**Nitq** – ünsiyyət prosesidir. Nitq verilən informasiyanın ifadə tələbinə uyğun olaraq dilin ifadə imkanları əsasında yaranır.

Dil əsasdır, nitq ondan törəyəndir.

Dil tarixən daha az dəyişərkən, nitq daha çox dəyişikliyə uğrayır.

Nitqin yaranması üçün vacib olan ictimai, psixoloji və fizioloji aktların cəmi nitq fəaliyyəti adlanır.

**Dilin funksiyaları:**

1. İctimai-tarixi təcrübələri yaymaq, yaşatmaq.
2. Kommunikativlik.
3. İntellektual fəaliyyət vasitəsi olmaq.

**Nitqin funksiyaları:**

1. Nominativlik (adlandırma).
2. Ümumiləşdirmələrin aparılması.
3. Kommunikativlik (əlaqə, ünsiyyət).

Göstərdiyimiz fərqli cəhətlərlə yanaşı, dil və nitqin ümumi cəhətləri də vardır:

1. İctimai-sosial xarakterdə olmaları.
2. Kommunikativliyə xidmət etmələri.
3. Eyni ictimai hadisənin tərəfləri olmaları.
4. Linqvistik vahidlər olmaları.

# Nitq prosesi

Nitq prosesi üç mərhələdən[1] ibarətdir.

1. danışmaq.
2. eşitmək.
3. dərk etmək.

---

[1] Qurbanov A. Ümumi dilçilik. B. 2004. I c. s.51.

**Danışıq** danışıq üzvləri ilə həyata keçirilir. Danışıq üzvlərinin qüsursuz olması bu zaman vacib şərtdir. Danışıq prosesi danışıq səsləri ilə reallaşır.

**Eşitmə** orqanı qulaqlardır. Qulaqların sağlam olması eşitməni, ifadə edilən fikrin doğru, düzgün dərk edilməsini təmin edir.

**Dərketmə** – nitq prosesinin nəticəsi, sonu olaraq meydana çıxır və daha çox təfəkkürlə bağlı olan prosesdir.

Dil öz ifadəsini nitqdə tapır, yəni nitq dilin ifadə vasitəsidir. Eyni zamanda dilin inkişafında da nitqin rolu böyükdür. Nitqdə yeni sözlərin yaranması, başqa dillərdən müxtəlif insanların nitqi vasitəsilə dilə yeni söz və ifadələrin gətirilməsi dilin, daha doğrusu, lüğət tərkibinin inkişafını şərtləndirir. Deməli, nitq dilin inkişaf mənbəyidir.

Dil və nitqi bir-birindən ayırmaq doğru deyil. Onlar bir-birinin inkişafına təkan verir. Dil prosesləri nitqə, nitq prosesləri dilə təsir edir. Deməli, dil və nitq eyni ictimai hadisənin müxtəlif tərəfləridir. «Dil öz təzahürünü nitqdə tapır, nitq isə dili inkişaf etdirir».[2]

## Nitqin tipləri

Elmi-nəzəri ədəbiyyatda nitqin iki tipinin olması göstərilir:

**1) Daxili nitq** – insanın öz-özünə danışığıdır. Tələffüz edilməyən, səssiz nitqdir, sürətlidir, yığcamdır, ellip-

---

[2] Qurbanov A. Ümumi dilçilik. B. 2004, I c. s.56.

tikdir, situativ xarakterlidir. Heç bir etik, mədəni normalara tabe deyil.

**2) Xarici nitq** – səsli nitqdir. Ahəngdar, məntiqi, ardıcıl, səlis olmalı, linqvistik və ekstralinqvistik normalara tabe olmalıdır. Fikir mükəmməl ifadə edilməlidir ki, bu da nitq mədəniyyəti adlandırılır.

# Nitqin növləri

Nitqin iki növü müəyyən edilmişdir:

**1. Monoloji nitq** bir insanın təkbaşına danışığıdır. Şifahi və yazılı şəkildə ola bilər. Monoqlar vasitəsilə insanların, eləcə də bədii əsərlərdə personajların xarakterlərini müəyyən etmək mümkündür. Daha çox dram əsərlərində monoloqlardan geniş istifadə edilir.

Şairlər şeirlərində ya özlərinin, ya da lirik qəhrəmanın hisslərini monoloqlar şəklində tərənnüm edirlər. Məsələn. S.Vurğun «Azərbaycan», şeiri,

S.M.Şəhriyar «Azərbaycan» və s.

**2. Dialoji nitq** ən azı iki və daha çox insan arasında baş verən ünsiyyət prosesidir. Dialoqlarda hər kəsin fikirləri yeni sətirdən tire ilə yazılır və replika adlanır. Dialoqlarda qısa, yarımçıq cümlələrdən, predikativ sözlərdən – söz xəbərlərdən geniş istifadə olunur. Məsələn:

Arif: – Aynur, sən hansı universitetdə oxuyursan?

Aynur: – ADPU-da.

Arif: – Hansı fakültədə?

Aynur: – Filologiya fakültəsində. Bəs sən?

Arif: – Mən isə riyaziyyat fakültəsində oxuyuram…

Həcminə görə dialoqlar böyük və kiçik ola bilir. Bəzən bədii ədəbiyyatda hekayələrin əvvəldən sona qədər

bir dialoq üzərində qurulmasına da rast gəlir. Bu, olduqca çətin və orijinal bir formadır. Mir Cəlalın «Ehtiram», «Sancaq fabrikində» hekayələri buna misal ola bilər.

## Sancaq fabrikində

Direktor:

– Xoş gəlmisiniz! Kitab xadimləri nə əcəb bizi yada salıblar!

– Xoş gününüz olsun! İşimiz düşüb: bir neçə yeşik sancaq lazımdır.

Direktor:

– Bəlkə qutu demək istəyirsiniz?

Kitabsatan:

– Xeyr, yeşik!

Direktor:

– Görünür, vəzifənizi dəyişmisiniz. Mən sizi kitab mağazasından tanıyıram.

Kitabsatan:

– Bəli, orada işləyirəm. Ancaq indi işimiz artıb. Elə kitablar yazılır ki, sancaqsız oxunmur. Oxucunu yuxu basmasın deyə, sancaq lazım olur.

Direktor:

– Hər kitaba bir sancaq?

Kitabsatan:

– Bəlkə də bir neçəsi!

Direktor:

– Bu kitabları tərifləyən tənqidçilərə necə, sancaq verilirmi?

Kitabsatan:

– Onların sancağını ya redaksiya, ya da müəllif özü verir.

# Nitqin tərzi

Nitqin tərzi dilçiliyin az işlənmiş sahəsi olsa da onun, iki tipi müəyyən edilmişdir:

**1. Vasitəsiz nitq** başqasının nitqinin olduğu kimi, heç bir dəyişiklik edilmədən işlənməsidir. Vasitəsiz nitq müəllifin nitqi olmadan işlənə bilmir. Müəllifin nitqi «M.m», vasitəsiz nitq isə «V.v» - hərfləri ilə işarə edilir.

Müəllim dedi: «Yaxşı hazırlaşsanız imtahanlardan əla qiymətlər alacaqsınız». - cümləsinin sxemi: M: «V». şəklindədir.

Vasitəsiz nitqin sxem modelləri müxtəlif ola bilir. Məsələn:

Mən: «Günahım yoxdur», - dedim. (M: «V», -m).

«Sən günahlarını başa düşürsənmi?» - dedim («V?» -m) və s.

**2. Vasitəli nitq** başqasının nitqinin olduğu kimi deyil, əsas fikir saxlanmaqla, budaq cümlə şəklində verilməsidir. Burada müəllif sözü baş cümlə, vasitəli nitq isə budaq cümlə, əsasən də, tamamlıq budaq cümləsi şəklində çıxış edir. Məsələn:

Dostum dedi ki, hər şey yaxşı olacaq.

Atam deyir ki, oxu və vətənə layiq bir insan ol və s.

Vasitəsiz nitqi vasitəli nitqə çevirmək mümkündür. Bu zaman iki nöqtə və dırnaqlar atılır, «ki» bağlayıcısı

əlavə edilir. Məsələn: **Heydər Əliyev demişdir: «Mən ömrümün qalan hissəsini də xalqıma həsr edəcəyəm».**

Heydər Əliyev demişdir ki, mən ömrümün qalan hissəsini də xalqıma həsr edəcəyəm.

# NİTQİN FORMALARI

Tarixən inkişaf edən bəşəriyyətdə inkişafın, təkamülün nəticəsi olaraq insanlar öz fikirlərini həm səsli (akustik), həm də yazılı şəkildə (optik) ifadə etmək məcburiyyətində qalmışlar. Qazandıqları informasiyaları bir-birinə səsli nitq vasitəsilə ötürən insanlar, həmin informasiyaları gələcək nəsillərə çatdırmaq üçün yazı yaratmış, yazılı nitqdən istifadə etmişlər. Bu zərurət nəticəsində də nitqin iki forması müəyyənləşmişdir: şifahi və yazılı.

I. Şifahi-akustik nitq, göründüyü kimi, səsli nitqdir. Şifahi nitqdə ümumişlək sözlərdən, yarımçıq, qısa cümlələrdən daha çox istifadə olunur. İntonasiyanın, məntiqi vurğunun şifahi nitqdə əhəmiyyəti çox böyükdür. Şifahi nitq yazılı nitqdən daha sürətlidir, jest və mimika şifahi nitqin əsas vasitələrindəndir.

II. Yazılı nitq eyni zamanda yazılıb görülən olduğu üçün optik nitq də adlandırılır. Şifahi nitqi texniki vasitələrin köməyi olmadan gələcək nəsillərə çatdırmaq mümkün olmadığı halda, yazılı nitq gələcək üçün qorunub saxlanıla bilir. Özünəməxsus terminologiyası olur, sürəti bir qədər aşağıdır. Yazılı nitqdə xüsusi durğu işarələrindən istifadə edilir. Orfoqrafik normalara yazılı nitqdə  mütləq əməl edilməlidir.

Şifahi və yazılı nitq bir-birinin inkişafına daim təsir göstərir, biri digərinə yardımçı olur. Həm şifahi, həm də yazılı nitqin mükəmməl olması üçün bir sıra qanunauyğunluqlara əməl edilməsi vacibdir. İlk növbədə, şifahi nitq düzgün və kamil olmalıdır. Nitqin düzgün və kamil olması üçün də ədəbi dilin normalarını bilmək, tətbiq etmək zəruridir.

# ƏDƏBİ DİLİN NORMALARI

## FONETİKA VƏ FONETİK NORMALAR

Nitqin düzgünlüyünə əməl etmək üçün ilk növbədə fonetik normalara əməl etmək vacibdir. Bəs fonetika nədir?

Fonetika – dilçiliyin danışıq səslərindən bəhs edən şöbəsidir.

Danışıq səsləri danışıq üzvlərinin vasitəsilə yaranır. Danışıq üzvləri bunlardır:

Ağ ciyərlər,
Nəfəs borusu,
Qırtlaq,
Səs telləri,
Ağız boşluğu,
Dil,
Diş,
Dodaqlar,
Burun boşluğu.

Hərflərin müəyyən sıra ilə düzülüşünə əlifba deyilir. Azərbaycan əlifbasında 32 hərf, 33 səs vardır.

Hərfi yazırıq, görürük, səsi isə deyir və eşidirik. Səslər [ ] (transkripsiya) işarəsi ilə göstərilir: [a], [ı]; [t], [d], [x] və s.

Hərflər iki qrupa bölünür: saitlər və samitlər

# Saitlər

Saitlər maneəsiz, musiqili tona malik olan, heca yaradan səslərdir. Azərbaycan əlifbasında doqquz sait var:

**a, ı, o, u, e, ə, i, ö, ü**




**Sxem 1.**

# Samitlər

Samitlər maneəli səslərdir. Ağ ciyərdən gələn hava axını ağız boşluğunda müxtəlif maneələrə rast gələrək yaranan səslər samitlərdir. Azərbaycan əlifbasında 23 samit var, aşağıdakı kimi təsnif edilir:




**Sxem 2.**

www.elmler.net - Virtual İnternet Resurs Mərkəzi

Samitlərdən yalnız ikisi «m, n» burunda yaranır və burun samitləri adlanır. Qalan samitlər isə ağız samitləridir.

Yadda saxlamaq lazımdır ki, bəzi istinaları çıxmaq şərtilə qoşa samitin, qoşa saitin işləndiyi sözlər, əsasən, alınma sözlərdir; məsələn **ai**lə, n**ai**lə; ko**mb**ayn; **tr**a**kt**or və s.

Samitlərin yanaşı işləndiyi minə qədər olan saylar (dörd, altı, yeddi, səkkiz, doqquz və s.), fellər (hoppanmaq, tullanmaq) və s. isə milli mənşəlidir və s.

# Heca

Sözün tələffüz zamanı asanlıqla bölündüyü hissələrə heca deyilir. Sözdə saitin sayı qədər heca olur. Məsələn,

Ba-kı, şə-hər, a-na, A-dil və s. Sözlər sətirdən sətrə hecalarla keçirilir. Lakin bir saitdən ibarət saf hecalar yeni sətrə keçirilməz.

# Ahəng qanunu

Sözdə eynicinsli saitlərin bir-birini izləməsinə ahəng qanunu deyilir. Türk dillərində ahəng qanunu qızıl qanun adlanır. İlk dəfə M.Qarqarlı tərəfindən (XI əsr) öyrənilmişdir. Ahəng iki formada təzahür edir:

1.






**Sxem 3.**

Azərbaycan dilində daha çox damaq ahənginə diqqət yetirilir. Ahəngə görə şəkilçilər iki cürdür;

1. Tərkibində a, ə saitləri işlənib iki cür yazılanlar: $(lar)^2$, $(da)^2$, $(dan)^2$, $(ma)^2$…

2. Tərkibində ı, i, u, ü saitləri işlənib dörd cür yazılanlar: $(lı)^4$, $(lıq)^4$, $(mış)^4$, $(dı)^4$ və s.

Əsl Azərbaycan-türk mənşəli sözlər, əsasən, ahəngə tabe olur.

**İstisna:** işıq, ilxı, ildırım, ilan və s.

Bir çox alınma sözlərdə isə ahəngin pozulması hadisəsi ilə rastlaşırıq: kitab, idarə, Adil, Rəna və s.

# Vurğu

Sözdə bir hecanın, cümlədə bir sözün digərlərindən fərqləndirilməsi, yüksək tonla deyilməsi vurğu adlanır: vurğu´, ila´n, sevi´nc, sevə´r və s.

Əsl Azərbaycan-türk mənşəli sözlərdə vurğu sözün son hecasına düşür. Bu, heca vurğusu adlanır. Vurğu söz kökündən şəkilçilərə keçir. Deməli, Azərbaycan dilində vurğu sabit, dəyişən vurğudur. ila´n→ ilan-la´r→ ilan-lar-ı´n…

Lakin Azərbaycan dilində bəzi vurğu qəbul etməyən şəkilçilər də vardır:

1. İsimlərə artırılan şəxs-xəbərlik şəkilçiləri: $(\text{-am})^2$, $(\text{-san})^2$, $(\text{-dır})^4$, $(\text{-ıq})^4$, $(\text{-sınız})^4$…

2. Mənsubluq bildirən -gil şəkilçisi: Səlimgil, babamgil və s.

3. Felin inkarlıq şəkilçisi $\text{-ma}^2$: gəl**mə**, oxu**ma**, yaz**ma**.

4. Soyad sonluqları: ov (ova), yev (yeva). Məmmədova, Əliyev…

5. Felin nəqli keçmiş, indiki və qeyri-qəti gələcək zaman şəkilçilərindən sonra işlənən şəxs şəkilçiləri: oxumuşam, gələcə´yəm, oxuyu´ram.

6. idi, imiş, isə, ilə – hissəciklərinin şəkilçiləşmiş formaları: $(\text{-dı})^4$, $\text{mış}^4$, $\text{-sa}^2$, $\text{-la}^2$. Məsələn. yazmı´ş**dı,** oxuyu´rmuş, oxuyu´rsa, ata´mla və s.

7. Feli bağlama şəkilçitləri: $\text{-arkən}^2$, $\text{-araq}^2$, $\text{-ınca}^2$, $\text{dıqca}^4$, - şəkilçilərinin ikinci hecası. Məsələn. oxuya´**raq,** gördü´k**cə**, gəli´n**cə** və s (Şühudi keçmiş zaman istisnadır).

Madan$^2$ – şəkilçisi bütövlükdə vurğu qəbul etmir. Məsələn: gö´rmədən, bi´lmədən, ox´umadan və s.

8. Fellərə artırılan (-lar)$^2$ şəkilçisi gəlirlər, bilirlər, oxuyurlar və s.

Qeyd: Şühudi keçmiş (-dı$^4$) şəkilçisindən sonra işlənən (-lar$^2$) şəkilşisi vurğu qəbul eidr: gəldilər, oxudular və s.

9. Zərf düzəldən -la$^2$ şəkilçisi, cəsarə´tlə, sevi´nclə və s.

10. Zərf düzəldən -casına şəkilçisi: qəhrəma´ncasına, fədakarcasına.

11. -ca$^2$ qoşma kimi işləndikdə: məncə´, səncə´ və s.

12. -mı$^4$ sual ədatı: gəldi´mi, sə´nmi.

13. Zərf düzəldən -an$^2$ şəkilçisi: qə´sdən, qə´flətən və s.

# Əsas orfoepik və orfoqrafik qaydalar

Fonetika iki əsas sahəyə ayrılır: orfoqrafiya və orfoepiya.

1. Orfoqrafiyada sözlərin düzgün yazılış qaydalarından, hərf tərkibindən bəhs edilir. Bakı, qələm, kitab və s.

2. Orfoepiyada sözlərin düzgün tələffüz qaydalarından, səs tərkibindən bəhs edilir.

dəftər [dəfdər]
kitab [kitap]
balıq [balıx]
yarpaq [yarpax] və s.

Sözlərin tələffüz forması, səs tərkibi transkripsiyada göstərilir.

1. Bəzi sözlərin səs-hərf tərkibi dəyişmir: qələm [qələm] 5 hərf=5 səs, kitab [kitap]: 5 hərf=5 səs.

2. Bəzi sözlərdə hərfin sayı səsin sayından çox olur: saat [sa:t] 4 hərf >3 səs, dovğa [do:ğa] 5 hərf > 4 səs və s.

3. Bəzi sözlərdə səslərin sayı hərflərin sayından çox olur:

ailə [ayilə] - 4 hərf < 5 səs
Nailə [Nayilə] - 5 hərf < 6 səs
radio [radiyo] - 5 hərf < 6 səs

Fonetik normalar orfoqrafik və orfoepik normaların cəmindən ibarətdir.

Ən mühüm orfoepik və orfoqrafik normalara aşağıdakılar daxildir:

1. Qoşasamitli və qoşasaitli sözlərin orfoepiya və orfoqrafiyasına aid qaydalar.

2. Mürəkkəb sözlərin tələffüzünə və yazılışına aid qaydalar.

3. İxtisarların (abreviaturların) yazılışına və tələffüzünə aid qaydalar.

4. Alınma sözlərin yazılışına və tələffüzünə aid qaydalar.

5. Mürəkkəb adların yazılışına və tələffüzünə aid qaydalar.

6. Nitq hissələrinin yazılışına və tələffüzünə aid qaydalar.

**Qeyd:** Azərbaycan dilində ı saiti və ğ samiti sözlərin əvvəlində işlənmir.

## Fonetik təhlil

1. Sözün səs və hərf tərkibi göstərilir.
2. Sözün yazılış formasına əsasən hecası və vurğusu müəyyənləşdirilir.
3. Transkripsiyada tələffüz forması göstərilir.
4. Səslərin təhlili sözün transkripsiyası əsasında aparılır.

**Nümunə**:

Şu/şa/ya [Şuşuya]
1. Sözdə 5 hərf, 5 səs var.
2. Üç hecalıdır.
3. Vurğu 3-cü hecadadır.
4. Qalın sait ahəngi gözlənilib.
5. [ş] kar, [y] cingiltili samitdir.
6. [u], [a] qalın saitlərdir.

7. Sözdə 2 qapalı, 1 açıq sait işlənmişdir.

## Tapşırıqlar:

**I. Verilmiş sözləri fonetik təhlil edin.**

bağça, dalğa, dəniz, altı, yeddi, səkkiz, hoppanmaq, sürətlə, bacımla, səndən…

**II. Verilmiş sözlərdə vurğunun yerini müəyyənləşdirin.**

Kitabda, qardaşımın, könüllü, sevinclə, görmədən, məharətlə, babamgil, qəhrəmancasına, qaçmışlar, gələcəklər…

**III. Verilmiş sözləri hecalara ayırın.**

Azərbaycan, Bakı, Türkiyə, İstanbul, dostluq, qardaşlıq, birgəlik, xoşbəxtlik, sevgi, gələcək, məktəbli, tələbə, universitet və s.

**IV. Verilmiş mətndən ahəngə tabe olan sözləri seçin.**

Nəriman güzgü istədiyini başa sala bilmədi. Ətrafa göz gəzdirdi. Çoxdanın tanışı, dostu kimi ərklə qızın qolundan tutub pəncərə qabağına gətirdi. Şüşənin önündə diz çöküb dayandı, baxdı, haçandan bəri daraq və sığal görməyən saçlarını sığalladı. Qaragöz qız əl güzgüsü gətirdi. Nəriman güzgüyə baxıb öz sifətini salamat görəndə həmin açıq və geniş alnı, həmin qalın qaşları, gülər göz-

ləri, parlaq bəbəkləri, qara tüklə örtülmüş üzünü görəndə elə bil bütün təhlükələr ötdü, sevinci daha da artdı. «Mən ölməyəcəyəm!».

**V. Mətndən ahəngə tabe olmayan sözləri seçib yazın:**

Vidadi namaz üstündə zəmanədən şikayətlənərək Allahdan insanlara imdad diləyir. Arvadı Tükəzbanla söhbətində də zəmanədən şikayəti, Vaqifdən isə nigaran olduğunu bildirir. Bu zaman Cavad xanın elçiləri onu saraya dəvət etmək üçün gəlirlər. Vidadi xanın elçilərini rədd edir.

Qarabağ xanının sarayında yaşayan Vaqifin gözlənilməz gəlişi onları sevindirir. Vaqifin ürəyi el içində, xalqın yanında olsa da, Vidadinin vəfasızlıqda günahlandırdığı Vaqif sarayda qalmasının səbəbini belə izah edir: «Mən orda olmasam, qan dizə çıxar. Şahın hissinin qarşısını bəzən ala bilirəm. Mən getsəm, qırğının hesabı olmaz…».

## Təkrar üçün suallar:

1. Fonetika nədir?
2. Fonetikanın hansı şöbələri var?
3. Azərbaycan əlifbasında neçə hərf, neçə səs var?
4. Danışıq üzvləri hansılardır?
5. Səs və hərfin fərqi nədədir?
6. Neçə sait var? Saitlərin hansı xüsusiyyətləri var?
7. Neçə samit var, neçə yerə bölünür?
8. Heca nədir?
9. Ahəng qanunu hansı qanundur?
10. Ahəngin neçə növü var?
11. Vurğu nədir? Hansı növləri var?
12. Vurğu qəbul etməyən şəkilçilər hansılardır?
13. Fonetik təhlil necə aparılır?
14. Orfoepik normalar hansılardır?
15. Ən mühüm orfoqrafik normalar hansılardır?

# I. Test tapşırıqları

1. Hansı sıra yalnız qapalı saitlərdən ibarətdir?
a) a, ə, ı, u
b) ö, u, ü
c) a, ə, e, o, ö
d) ı, i, u, u
e) a, o, u, ö, i

2. Hansılar qalın saitlərdir?




a) 1, 3, 4, 5
b) 1, 3, 5, 6
c) 2, 4, 6
d) 1, 2, 3
e) 2, 4, 5

3. Yalnız saitlərdən ibarət sıranı müəyyən edin.
a) v, f, t, d

b) v, a, o, s
c) a, ı, o, z
d) ı, i, u, ü
e) l, m, n, r

4. Ahəngə tabe olan sözləri seçin.




a) 2, 3, 5, 6
b) 1, 2, 3
c) 2, 3, 4
d) 4, 5, 6
e) 1, 3, 6

5. Ahəngə görə şəkilçilər neçə cür yazılır?
a) 2 və 4
b) 3
c) 1
d) 1 və 4
e) 2 və 3

6. Vurğusu son hecaya düşməyən sözü seçin.
a) qapqara
b) sarı
c) qara
d) əlvan
e) gümüş

7. Vurğusu son hecaya düşən sözü tapın.
a) qapqara

b) Ağdam
c) direktor
d) gümüş
e) məncə

8. Kar qarşılığı olmayan cingiltili samitlər hansı sırada verilmişdir?
a) l, m, n, r
b) b, c, n, r
c) l, m, z, d
d) t, s, x, h
e) h, l, m, ş

9. Hansı söz hecalara doğru bölünməmişdir?
a) Ba-kı
b) şə-hər-də
c) A-zər-bay-can
d) ki-tab
e) təl-əbə

10. Sözdə hecanın sayı necə müəyyən edilir?
a) saitin sayı ilə
b) samitin sayı ilə
c) ahəngə görə
d) vurğuya görə
e) şəkilçilərə əsasən.

# LEKSİKA VƏ LEKSİK NORMALAR

Dilimizdəki bütün sözlər leksika, onları öyrənən dilçilik şöbəsi isə leksikologiya adlanır.

Hər bir sözün ilkin mənası onun leksik mənasıdır. Məsələn:

bina – yaşayış yeri.

ayaqqabı – ayağa geymək üçün əşya və s.

Sözlərin ilkin leksik mənası onun **həqiqi** mənası adlanır. Əsas mənasından əlavə ifadə etdiyi məna isə **məcazi** mənadır. Məsələn:

Kitab sözünün həqiqi mənası onun oxu ləvazimatı olmasıdır.

Kitab sözü «ömür kitabı» birləşməsinin tərkibində məcazi məna ifadə etmişdir.

Sözlərin bir leksik mənası olarsa, təkmənalı, bir neçə leksik mənası olarsa, çoxmənalı sözlər adlanır. Azərbaycan dilində bədən üzvlərimizin adları və bir çox fellər çoxmənalı sözlərdir:

Ayaq – insanın ayağı, stolun ayağı, kəndin ayağı və s.

Almaq – kitab almaq, yer almaq, söz almaq, xəbər almaq və s.

Leksikada formaca eyni, mənaca müxtəlif olan sözlər **omonimlər** adlanır: bal, yar, qaz, at, tut və s.

bal – arı balı (isim)
bal – qiymət, dərəcə mənasında (isim)

qaz – quş (isim)
qaz –

www.elmler.net - Virtual İnternet Resurs Mərkəzi

yanar qaz (isim)

tut — meyvə (isim)
— tutmaq (fel)

az — az adam (say);
— azmaq (fel)

Bir-birinə omonim olan sözlər həm eyni, həm də müxtəlif nitq hissələrinə aid ola bilər.

Başqa bir qrupa daxil olan sözlər müxtəlif şəkildə deyilib, müxtəlif cür yazılsa da, eyni mənanı və ya bir mənanın müxtəlif çalarlarını əks etdirir və **sinonimlər** adlanır: yaş, sülü, nəm; oturmaq, əyləşmək; durmaq, qalxmaq və s.

Sinonim sözlər eyni nitq hissəsinə aid olur.

**Antonimlər** bir-birinə əks, zidd mənaları ifadə edir; eyni nitq hissəsinə aid olur:

az-çox (sifət; zərf)
oturmaq-durmaq (fel)
dost-düşmən (isim)
irəli-geri (zərf) və s.

Leksikada yuxarıda göstərilənlərdən başqa ümumişlək sözlər, terminlər, dialekt sözlər, jarqonlar və s. söz layları da vardır.

Ədəbi dilin leksik normalarına əməl edilməsi çox mühümdür. Bu normaya əsasən, fikrin dəqiq, düzgün ifadəsi üçün ən uyğun sözlərin – leksemlərin seçilib işlədilməsi tələb olunur.

# Tapşırıqlar:

## I. Verilmiş cümlələrdəki omonimləri göstərin:

1. Qaz göldə üzürdü. Mətbəxdən qaz iyi gəlirdi.
2. Sürüdən ayrılan qoyunu qurd yeyər (Atalar sözü). Ləklərdəki kələmləri qurd basmışdı.
3. Uşaqlar körpünü təmir etmək üçün özləri ilə külüng və bel də gətirmişdilər. Mühəndis iki gün idi ki, bel ağrısından şikayətlənirdi.
4. Arzunun əlindəki güldür. O, məzəli lətifələri ilə bizi güldürür.
5. Pinəçi bizi stolun üstündəki taxtanın üstünə sancdı. Biz bunun mənasını sonradan başa büşdük.

6. Açıldı, yazım,
Söhbətim, sazım.
Sən hünər göstər,
Mən şeir yazım.
(S.Vurğun)

7. Elxan girdi palçığa,
Üst-başını buladı.
Toplan görüb utandı,
Quyruğunu buladı.
(T.Elçin)

## II. Verilmiş antonimləri cümlədə işlədin:

ağ, qara: yaxşı, pis; dost, düşmən; sevinc, kədər, gecə, gündüz; igid, qorxaq; aşağı, yuxarı, irəli, geri, tez, gec…

**III. Cümlələrdəki nöqtələrin yerinə sinonimlərdən uyğun gələnini artıraraq köçürün:**

Yekə, zorba, böyük, iri, nəhəng

1) Çoban Qara… ağacını canavarın düz kəlləsinə ilişdirdi. 2) Hamımız klubun… salonuna toplaşdıq. 3) Meşəbəyi gölə yaxınlaşanda… bir ayı ilə rastlaşdı.

Yığırlar, toplayırlar

1) pambıqçılar tarlada pambıq… 2. Onların uşaqları isə yerə tökülmüş pambığı…

Adam, insan

1) Ağır zəhmətdən sonra… özünü daha yüngül, daha rahat hiss edir. 2) … olanın dövləti, malı gərək olsun (Sabir)

**IV. Verilmiş sözlərin antonimlərini tapın:**

az –
dost –
yaxşı –
işıq –
sağlam –
igid –
aşağı –
irəli –
ağıllı –
səhər –

**V. Oxuyun, sinonim sözləri tapıb göstərin, onların hansı nitq hissəsinə aid olduğunu izah edin.**

1) Dağlara səs düşsün, çöllərə səda,
Gurlayan sellərin dinlə səsini
(N.Xəzri)

2) Dünyadan qovulan kədər, qəm olsun
Qəzəbin, nifrətin bəxti kəm olsun
(M.Rahim)

3) Yurdum, yuvam məskənimsən…
Anam, doğma vətənimsən…
(S.Vurğun)

4) Hündür qovaq ağaclarının arxasından uca bir bina görünürdü.

**VI. Verilmiş sinonim sifətləri mötərizədəki isimlərə qoşmaqla mümkün olan söz birləşmələri düzəldib yazın.**

Qalın, sıx (meşə, kitab); zərif, xoş (parça, xasiyyət); nəm, yaş (hava, paltar); mehriban, səmimi (dost, söhbət)

**Nümunə: qalın meşə, sıx meşə, qalın kitab.**

**Suallar:**

1. Leksika nədir?
2. Leksikologiya nəyi öyrənir?
3. Omonim, sinonim, antonim sözləri izah edin.
4. Onomastik vahidlə apelyativ vahidlərin fərqi nədədir?
5. Sözün həqiqi və məcazi mənası arasında hansı fərqlər var?

# II. Test tapşırıqları

1. Leksika nədir?
a) sözlərin cəmi
b) birləşmələrin cəmi
c) səslərin cəmi
d) cümlələrin cəmi
e) şəkilçilərin cəmi

2. Leksik mənası olan sözlər hansılardır?
a) 1, 4
b) 1, 2
c) 2, 4
d) 2, 4, 6
e) 1, 3, 5




3. Leksik mənası olmayan sözlər hansılardır?
a) 2, 4
b) 2, 3, 5
c) 1, 4, 5
d) 3, 4, 5
e) 1, 4



4. Əsl Azərbaycan-türk sözləri hansılardır?
a) gülmək, altı
b) məktəb, kitab
c) telefon, sarı
d) stol, Rəna
e) jaket, Jalə

5. Antonim sözlər hansı sıradadır?
a) ağ-bəyaz
b) ağ-qara
c) sarı-qara
d) tez-tez
e) dadlı-dadsız

6. Sinonimlər hansı bənddə verilib?
a) dəyər-qiymət
b) az-çox
c) şirin-şirin
d) ev-vətən
e) yazı-çöl

7. Biri omonim sözdür.
a) qovaq
b) şirin
c) gəlin
d) bilək
e) yaş

8. Ümumişlək olmayan söz hansıdır?
a) məktəb
b) kitab

c) qələm
d) aksiom
e) çiçək

9. Çoxmənalı sözü seçin.
a) göz
b) kök
c) top
d) qaz
e) üz

10. Omonim sözü seçin.
a) göz
b) ayaq
c) baş
d) yaz
e) qol

# ONOMASTİKA VƏ ONOMASTİK NORMALAR

Leksikada sözlər iki böyük qrupda ümumiləşdirilir: 1. ümumi sözlər – apelyativ leksika: AV. 2. Xüsusi sözlər – onomastik leksika: OV.

Onomastik leksikaya xüsusi sözlər – şəxs adları, soyadlar, coğrafi adlar (şəhər, ölkə, qitə…) və s. daxildir.

Nəzəri dilçilik şöbələrindən olan onomalogiyanın da özünəməxsus normaları vardır.

Əsas onomastik normalar aşağıdakılardır:

1. Onomastik vahidlər cümlənin hər yerində böyük hərflə yazılır.
2. Bir dildən başqa dilə tərcümə edilmir.
3. Milli cəhətləri daha çox əks etdirir.
4. Eynicinsli varlıqları bir-birindən fərqləndirir.
5. Cəmiyyətin bütün sosial qruplarına eyni dərəcədə xidmət edir.
6. Mənsub olduğu xalqın tarixini, adət-ənənəsini əks etdirir və s.
7. Siyasi hadisələrin təsiri bu adlara da təsir edir və s.

## Tapşırıqlar:

**I. Verilmiş parçadan xüsusi adları seçin və qruplaşdırın:**

1. Arazdan, Təbrizdən yazan şeirimiz
Kövrəldi nə yaxşı, susdu nə yaxşı (M.Araz).

2. Havalansın Xanın səsi, Qarabağın şikəstəsi

(S.Vurğun).

3. Bu, Şəhriyar harayıdır, Bu, Bəxtiyar harayıdır,
Ayağa dur, Azərbaycan! (M.Araz).

**II. Verilmiş onomastik vahidləri cümlədə işlədin.**

Xəzər, Bakı, Qafqaz, Kəpəz, Araz, Kür, Anadolu, İstanbul, İzmir, Ağ dəniz və s.

**III. Verilmiş sözlərin etimologiyalarını izah edin.**

Azərbaycan, Bakı, Şəki, Şamaxı, Quba, Kür, Araz, Xəzər, Qafqaz və s.

www.elmler.net - Virtual İnternet Resurs Mərkəzi

# QRAMMATİKA VƏ QRAMMATİK NORMALAR

Qrammatika sözlərin dəyişməsi və cümlədə birləşməsi qaydalarını öyrənir, morfologiya və sintaksis adlı iki şöbəyə bölünür.

**Morfologiya** sözlərin formalarını, yəni nitq hissələrini öyrənir.

## NİTQ HİSSƏLƏRİ




**Sxem 4.**

# Əsas nitq hissələri

**İsim əşyanın adını bildirir.** Kim? nə? hara? suallarına cavab verir. Hal, mənsubiyyət, şəxs, kəmiyyət kateqoriyalarına malikdir. Tək, cəm (toplu), ümumi, xüsusi, konkret və mücərrəd olur: Azərbaycan, Türkiyə; Adil, Könül; Bakı; kitab, qələm; ağac, ağaclar, xalq, bina, ev; sevgi, dostluq və s.

**Sifət** əşyanın əlamətini bildirir. Necə? nə cür? hansı? suallarına cavab verir. Adi, azaltma, çoxaltma dərəcələri var, isimləşir (substantivləşir). Məsələn: qırmızı, qıpqırmızı, qırmızımtıl; ağ, qara, göy və s. Mən qırmızı rəngi çox sevirəm. Mən qırmızını çox sevirəm.

**Say** əşyanın miqdarını və sırasını bildirir. Neçə? nə qədər? neçənci? suallarına cavab verir. Miqdar (müəyyən, qeyri-müəyyən, kəsr sayları) və sıra saylarına bölünür. Miqdar saylarına ıncı$^4$, (cı$^4$), şəkilçisini artırmaqla sıra sayları düzəlir: bir-birinci, on üç-on üçüncü və s. Birdən minə qədər bütün rəqəmlərin adları milli sözlər, mindən yuxarı olanlar (milyon, milyard, trilyon və s.) isə alınma sözlərdir.

**Əvəzlik** digər nitq hissələrini əvəz edir. Məna növləri: şəxs, işarə, təyini, qeyri-müəyyən, sual əvəzlikləri. Əvəzliklər əvəz etdiyi nitq hissələrinin xüsusiyyətlərini daşıyır.

**Şəxs əvəzlikləri:** mən, sən, o, biz, siz, onlar.

**İşarə əvəzlikləri:** o, bu, elə, belə, həmin, həmən.

**Sual əvəzlikləri:** kim? nə? necə? neçə? hansı? nə etmək?..

**Təyini əvəzliklər:** hər, bütün, öz, filan, eyni, bəzi…

**Qeyri-müəyyən əvəzliklər:** kimsə, nəsə, kim isə, nə isə…

**Fel** hərəkət bildirir. Nə etmək? sualına (müxtəlif növ və zamanlarda) cavab verir. Nə edir? nə edəcək? nə etmişdi? və s.

Felin üç zamanı var: keçmiş (nəqli (-mış)$^4$; şühudi (-dı)$^4$), indiki (-ır$^4$) və gələcək (qəti gələcək (-acaq$^2$); qeyri-qəti gələcək (-ar)$^2$) zamanları.

Fellər təsdiq və inkarda işlənir: gəldi, gəlmədi; yazacaq-yazmayacaq…

Fellər təsirli və təsirsiz olur: oxuyur, qaçır…

**Zərf** – hərəkəti müxtəlif cəhətlərdən izah edir.

## Köməkçi nitq hissələri

**Qoşma** qoşulduğu sözlə ondan sonra gələn sözlər arasında əlaqə yaradır, münasibətləri dəqiqləşdirməyə, konkretləşdirməyə xidmət edir. Dərsdən **sonra** kitabxanaya gedəcəyəm. Kəndə **tərəf** iki atlı hərəkət edirdi və s.

**Bağlayıcılar** sözlər, birləşmələr, hətta cümlələr arasında sintaktik əlaqə yaratmağa xidmət edir. Sintaktik vəzifəsinə görə iki qrupa bölünür;

**I. Tabesizlik bağlayıcıları:** biri digərindən asılı olmayan tərəfləri (həmcins üzvləri, tabesiz mürəkkəb cümlələrin tərəflərini) əlaqələndirir. Məsələn: 1. Aysel və Aygün bir sinifdə oxuyurlar. 2. Qonaq onu tanıdı, **lakin** heç nə demədi.

**II. Tabelilik bağlayıcıları:** ki, çünki, ona görə ki, əgər, hərgah, hərçənd, madam (ki), indi ki, o səbəbdən ki və s. Məsələn, Gəldim ki, sənə hər şeyi ba.a salım.

**Ədat** fikrin nitqdə aydın ifadəsi üçün işlədilir və cümlələrin mənasını qüvvətləndirir: məgər, bəs, (mı)[4], kaş, təki, bircə, yalnız və s.

Mən **yalnız** bu gün işlərimi qurtara bildim. **Bəli,** biz azadlığımıza qovuşduq.

Bu **ki** bizim Əlidir!

Şifahi və yazılı nitqdə ədatların əhəmiyyəti olduqca böyükdür.

## Qeyri-müəyyən nitq hissələri

**1. Nidalar** insanların hiss və həyəcanını ifadə edən səslərdir. Sevinc, kədər, həyəcan, şadlıq, heyrət və s. mənaları ifadə edir: aha, of, ah, paho, ox, aman, ay haray və s.

Düşdü bütün qəzetlər qiymətdən, **ay can, ay can**!

(M.Ə.Sabir)

**Aman**, tanrım, yardım et.

**2. Modal sözlər** danışan şəxsin ifadə etdiyi fikrə münasibətini ifadə edir: **Məncə**, bu, doğru yol deyil.

Kür qırağının əcəb seyrangahı var,
Yaşılbaş sonası, **hayıf ki,** yoxdur.

(M.P.Vaqif)

**3. Xitablar** dünya və Azərbaycan dilçiliyində kifayət qədər öyrənilsə də, hələ formalaşma prosesi keçirməkdədir və konkret olaraq bir nitq hissəsi kimi formalaşmamışdır:

1. Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, **Azərbaycan**, səninləyəm!
(M.Araz)

2. **Vaqif**! **Ey sərvərim**! **Ey tacidarım!**
(S.Vurğun)

3. **Şair**, hökmdarın hüzurundasan.
(S.Vurğun).

**4. Ritmik sözlərin** bir tərəfi ayrılıqda işlənə bilsə də, ikinci tərəf məna ifadə etmir, birinci tərəfə həmqafiyə olaraq seçilir və həmin sözün estetik təsirini bir qədər artırmağa xidmət edir: uşaq-**muşaq**; kitab-**mitab**; dəftər-**məftər**; su-**mu**… və s.

**Suallar**:

1. Morfologiya nəyi öyrənir?
2. Nitq hissəsi nəyə deyilir?
3. Nitq hissələri neçə qrupa bölünür? Hansılardır?
4. Əsas və köməkçi nitq hissələri arasında hansı fərqli cəhətlər var?
5. Qeyri-müəyyən nitq hissələri hansılardır?
6. İsmə aid kateqoriyalar hansılardır?
7. Azərbaycan dilində felin neçə zamanı var? Hansılardır?
8. Sifətin neçə dərəcəsi var?
9. Say nədir? Sayın məna növləri hansılardır?
10. Əvəzlik nəyə deyilir? Mənaca hansı növləri var?

# III. Test tapşırıqları

1. Hansı sözlər isimdir?
a) 1, 2
b) 3, 5
c) 2, 3, 4
d) 2, 4
e) 1, 2, 4




2. Sifətləri müəyyənləşdirin.
1. ağ 2. mən 3. əl 4. kitab 5. qırmızı 6. yaşıl

a) 1, 2, 3
b) 1, 5, 6
c) 3, 4, 5
d) 1, 3, 5
e) 2, 4

3. Düzəltmə felləri seçin.
1. baxmaq 2. gülüşmək 3. sevinmək 4. dağılmaq 5. uzaqlaşmaq
a) 1, 2, 3
b) 2, 4
c) 2, 3, 5
d) 1, 4
e) 2, 4

4. Sadə sayları tapın.
1. üç 2. əlli 3. on üç 4. yüz 5. min 6. birinci
a) 1, 2, 4, 5
b) 3, 5
c) 2, 6
d) 3, 4
e) 1, 6

5. Konkret isim hansıdır?
a) ruh
b) daş
c) sevgi
d) dostluq
e) kədər

6. Şəxs əvəzlikləri hansılardır?
1. mən 2. kitab 3. biz 4. qələm 5. sarı 6. saat 7. onlar
a) 1, 3, 7
b) 2, 4, 6
c) 4, 5, 6
d) 2, 6, 7
e) 2, 3, 4

7. Yer zərflərini tapın.
1. evdə 2. şəhərdən 3. içəridə 4. dağda 5. yuxarı 6. alt
a) 3, 5, 6
b) 1, 2, 3
c) 2, 3, 4
d) 1, 2, 6
e) 2, 4, 5

8. İsmin neçə halı var?
a) 4
b) 5
c) 6
d) 7
e) 3

9. İnkar bağlayıcılarını göstərin.
a) həm, həm də
b) nə, nə də
c) ya, ya da
d) gah, gah da
e) lakin, amma

10. Əsas nitq hissələrini seçin.
a) isim, sifət, qoşma
b) isim, qoşma, ədat
c) bağlayıcı, ədat
d) modal, nida, qoşma
e) isim, sifət, say

**Sintaksis** söz birləşmələrini, cümlələri, sintaktik əlaqələri, cümlə üzvlərini və s. öyrənir.

Əsas sintaktik vahidlər söz birləşmələri, cümlə, cümlə üzvləri və s-dir.

Cümlə bitkin fikir ifadə edən, sözə və ya sözlərin birləşməsinə deyilir. Cümlə quruluşca sadə və mürəkkəb olur. Sadə cümlələrdə bir fikir ifadə edilir və bir qrammatik əsası olur: *Ağappaq qar hər tərəfi ağ yorğana bürümüşdü.*

www.elmler.net - Virtual İnternet Resurs Mərkəzi

Həm sadə, həm də mürəkkəb cümlələr müxtəlif istiqamətlərdə təsnif edilir və müxtəlif növlərə bölünür. Həmin növlər altıncı və yeddinci sxemdə təqdim edilmişdir.


SADƏ
HƏM BAŞ, HƏM DƏ II DƏRƏCƏLİ ÜZVLƏRİN İŞTİRAKINA GÖRƏ
BAŞ ÜZVLƏRİN İŞTİRAKINA GÖRƏ
II DƏRƏCƏLİ ÜZVLƏRİN İŞTİRAKINA GÖRƏ
YARIMÇIQ
BÜTÖV
Cüttərkibli
GENİŞ
MÜXTƏSƏR
XƏBƏRSİZ
MÜBTƏDASIZ
Ümumi şəxsli cümlə
Qeyri-müəyyən şəxsli
ŞƏXSSİZ

**Sxem 5.**

**Təktərkibli cümlədə** baş üzvlərdən biri (ya xəbər, ya mübtəda) iştirak edir:

**Adlıq cümlələrdə** əşyanın, məfhumun yalnız adı çəkilir, haqqında heç bir məlumat verilmir, xəbər iştirak etmir: *Bulaq başı. Göy çəmən. Qız qalası* və s.

**Şəxssiz cümlələrdə** mübtəda iştirak etmir və təsəvvürə gətirilmir: *İşə baxıldı. Təcrübəyə əsaslanıldı.*

**Qeyri müəyyən şəxsli cümlələrdə** hərəkət qeyri-müəyyən şəxsə aid olur. Xəbəri III şəxsin cəmində işlənir: *Əsgərləri apardılar.*

**Ümumi şəxsli cümlələrdə** iş, hərəkət, ümumiyyətlə, bütün insanlara aid olur. Atalar sözləri, aforizmlər buraya daxildir. Xəbəri II şəxs təkdə, III şəxs cəmdə işlənir: Məsələn:

*Çayı keçməmiş hop demə. Cücəni payızda sayarlar.*

**Müxtəsər cümlələrdə** yalnız baş üzvlər iştirak edir: *Atam gəldi. Gün çıxdı və s.*

**Geniş cümlələrdə** baş üzvlərlə yanaşı II dərəcəli üzvlər də iştirak edir. Məsələn, *Qoca palıd küləyin təsirindən ağır-ağır yırğalanırdı.*

**Bütöv cümlələrdə** bütün cümlə üzvləri normal şəkildə iştirak etdiyi halda, **yarımçıq cümlələrdə** bəzi üzvlər buraxılır. Bu, əsasən, dialoqlarda müşahidə edilir:

- Sən harda yaşayırsan?
- Bakıda.

Buraxılan üzvləri əvvəlki cümləyə əsasən bərpa etmək mümkün olur. Verilmiş cümlədə mübtəda və xəbər (Mən yaşayıram) buraxılmışdır.

# Mürəkkəb cümlə




**Sxem 6**

Sadə cümlələrin birləşməsindən mürəkkəb cümlə əmələ gəlir, ən azı iki sadə cümlədən ibarət olur. Tərkibindəki cümlələrin sayından asılı olaraq iki, üç və daha çox qrammatik əsası ola bilər. Mürəkkəb cümlə tərkib hissələr arasındakı sintaktik əlaqənin növünə görə iki yerə bölünür: 1. tabesiz mürəkkəb cümlələr, 2. tabeli mürəkkəb cümlələr.

Məsələn, Bilirəm ki, gələcəksən (Tabeli mürəkkəb cümlə).

Güclü külək əsir, yağış yağırdı (Tabesiz mürəkkəb cümlə).

## Tabesiz mürəkkəb cümlələr

Tabesiz mürəkkəb cümlələr bərabərhüquqlu, biri digərindən asılı olmayan sadə cümlələrin birləşməsindən düzəlir. Məsələn,

Yağış güclənir, məhsulun toplanması gecikirdi (səbəb-nəticə əlaqəsi).

Tabesiz mürəkkəb cümlələr tabesizlik bağlayıcıları və intonasiya ilə bağlanır. Tərkib hissələr arasında

zaman, səbəb-nəticə, ardıcıllıq, aydınlaşdırma, bölüşdürmə, qarşılaşdırma əlaqələri olur.

Həm yağış yağır, həm də güclü külək əsirdi (zaman əlaqəsi).

O, gözəl görünürdü: ağ köynək, qara şalvar geyinmişdi (aydınlaşdırma əlaqəsi).

*Tabesizlik bağlayıcıları:* və, ilə (-la)[2], amma, ancaq, lakin, nə, nə də (-ki), ya, ya da (-ki), yaxud (-da), istərsə (-də), yəni, məsələn və s.

## Tabeli mürəkkəb cümlələr

Tabeli mürəkkəb cümlələri təşkil edən sadə cümlələrdən biri digərindən asılı olur, onu izah edib aydınlaşdırır. Tabe edən cümlə baş cümlə (□ ), asılı olan cümlə isə budaq cümlə (o) adlanır. Onların arasında tabelilik əlaqəsi olur və asılı tərəfdən əsas tərəfə doğru ox işarəsi ilə (←) göstərilir. Budaq cümlə baş cümlədə buraxılmış cümlə üzvünü əvəz edir. Buna görə də beş cümlə üzvünün adı ilə adlandırılır: Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə, xəbər budaq cümləli tabeli mürəkkəb cümlə və s.*

1) Deyirəm ki, sənə inanıram.



(tamamlıq budaq cümləsi)

Deyirəm. Nəyi? Sənə inandığımı.

*Beş cümlə üzvü var: mübtəda, xəbər, tamamlıq, təyin, zərflik.

2) Gəlmişik ki, ali məktəblərə qəbul olaq.



(məqsəd budaq cümləsi).

Gəlmişik. Hansı məqsədlə? Nə üçün? Ali məktəblərə qəbul olmaq üçün.

**Qeyd:** *Zərfliyin müxtəlif məna növləri olduğu üçün zərflik budaq cümləli tabeli mürəkkəb cümlələrin də müxtəlif növləri yaranır:*

*Tərzi-hərəkət budaq cümləsi.*
*Kəmiyyət budaq cümləsi.*
*Zaman budaq cümləsi və s.*

Tabeli mürəkkəb cümlələrdə bəzən budaq cümlə baş cümlədən əvvəl işlənir. Məsələn: 1. Yağış yağsa, hava açılar. 2. Kəndə çatmışdım ki, külək başladı – cümlələrində budaq cümlə baş cümlədən əvvəl işlənmişdir.

Sxemi 

şəklindədir.

Tabeli mürəkkəb cümlənin tərəfləri arasında tabelilik bağlayıcıları, intonasiya, bağlayıcı sözlər və əvəzlik qəliblər işlənə bilir.

*Tabelilik bağlayıcıları:* ki, çünki, ona görə ki, əgər, hərgah, hərçənd, madam (ki), indi ki, o səbəbdən ki və s.

# CÜMLƏ ÜZVLƏRİ

Hər bir cümlə üzvlərdən təçkil olunur. Beş cümlə üzvü var: mübtəda, xəbər, təyin, tamamlıq, zərflik. Cümlə üzvləri iki yerə bölünür: baş və II dərəcəli üzvlər:

Baş üzvlər əsasında cümlə qurulur. Baş üzvlərdən hər ikisi və ya heç olmasa, biri cümlənin qurulmasında mütləq iştirak etməlidir. Baş üzvlər mübtəda və xəbərdir.

1. **Mübtəda** – kim? nə? hara? suallarından birinə cavab verir. Heç bir cümlə üzvündən asılı olmur: **Vətənim** Azərbaycandır.

Mübtəda isimlərlə və isimləşmiş dəgər nitq hissələri ilə ifadə olunur.

2. **Xəbər** ikinci baş üzvdür. Mübtədaya dair hərəkəti, hökmü bildirir. Nə etmək? sualına cavab verir.

Xəbər ifadə vasitəsinə görə 2 yerə bölünür: feli və ismi xəbərlər.

Feli xəbər yalnız təsriflənən fellərlə, ismi xəbərlər isə digər nitq hissələri və təsriflənməyən fellərlə, söz xəbərlərlə ifadə olunur.

мцбтяда фели хябяр исми хябяр

Azərbaycan sürətlə inkişaf edir. Bakı Azərbaycanın paytaxtıdır.

İkinci dərəcəli üzvlər cümlələri genişləndirməyə, məlumatı dəqiqləşdirməyə xidmət edir.

**Təyin** – isimlə, isimləşmiş sözlərə ifadə olunmuş hər hansı üzvün əlamətini bildirir. Necə? nə cür? hansı? suallarına cavab verir. Məsələn,

1) Nə yatmısan, qoca vulkan, səninləyəm, (M.A).

2) Çərşənbə günündə, çeşmə başında

Gözüm bir alagöz xanıma düşdü. (A.Ə).

**Tamamlıq** – üzərində iş icra olunan əşyanı bildirir. Kimi? nəyi? haranı? kimə? nəyə? kimdə? nədə? kim ilə? nə ilə? kim üçün? nə üçün? və s. suallara cavab verir. Məsələn:

1) Mən Azərbaycanı sevirəm.

2) Cığırları keçilməyən
Bulaqları içilməyən
Otlaqları biçilməyən
Çöllər bizi bağışlasın (H.H)

**Zərflik** – hərəkətin icra olunduğu yeri, zamanı, icra tərzini, səbəbini, kəmiyyətini bildirir. Nə vaxt? haraya? (da, dan), necə? nə cür? nə qədər? və s. suallara cavab verir.

Arif yaxşı oxuyur. Yazda təbiət oyanır.

Atam çox işləyir. Uşaqlar bağda işləyirlər.

# Söz birləşmələri

Söz birləşməsi iki və daha artıq sözün məna və qrammatik cəhətdən birləşməsidir: Qız qalası, uşaq evi, mənim arzum ismi birləşmələr; dərs oxuyuram, Bakıda yaşamaq və s. feli birləşmələrdir. (Sxem 8)




**Sxem 7.**

# İsmi birləşmələr

İsmi birləşmələrin əsas tərəfi əsasən isimlərlə və ya isimləşmiş sözlərlə ifadə edilir. Üç  növə bölünür: I növ, II növ və III növ ismi birləşmələr. Birinci tərəf II tərəfi təyin etdiyi üçün ismi birləşmələrə təyini söz birləşmələri də deyilir.

I növ ismi birləşmələrdə tərəflər arasında yanaşma əlaqəsi olur. Birinci tərəf II tərəfi mənaca izah edir, heç bir qrammatik şəkilçidən istifadə edilmir.

Yaşıl —yanaşma→ işıq

Maraqlı —yanaşma→ dərs

yanaşma
Şirin ⟶ çay və s.

II növ ismi birləşmələrdə birinci tərəf qeyri-müəyyən yiyəlik halda, ikinci – əsas tərəf isə III şəxs mənsubiyyət şəkilçisi ilə işlənir. Tərəflər arasında uzlaşma əlaqəsi olur:

uzlaşma
Qız ⟵ qalası

uzlaşma
Körpə ⟵ gülüşü

uzlaşma
Uşaq ⟵ bağçası və s.

II növ ismi birləşmələr cümlənin mürəkkəb bir üzvü olur: **Qız qalası** Bakının simvoluna çevrilmişdir.

III növ ismi birləşmələrin birinci tərəfi müəyyən yiyəlik halda olur, ikinci tərəfi hər üç şəxsin mənsubiyyət şəkilçisi ilə işlənə bilir. Əsas və asılı tərəflər arasında həm idarə, həm də uzlaşma əlaqəsi vardır:

idarə
Mənim ⇄ vətənim
uzlaşma

idarə
Sənin ⇄ gülüşün
uzlaşma

idarə
Adilin ⇄ qardaşı və s.
узлашма

III növ ismi birləşmələr cümlənin mürəkkəb bir üzvü olur: **Bakının tarixi** çox qədimlərə gedib çıxır.

# Feli birləşmələr

Feli birləşmələrin əsas (II) tərəfləri məsdər, feli sifət, feli bağlama ilə ifadə edilir və uyğun olaraq məsdər birləşmələri, feli sifət birləşmələri, feli bağlama birləşmələri adlanır.

Məsələn: kitabı oxumaq (məsdər birləşməsi)

yaz gələndə (feli bağlama birləşməsi)

dərsə gedən (feli sifət birləşməsi).

Feli birləşmələrin tərəfləri arasında, əsasən idarə əlaqəsi, bəzən də yanaşma əlaqəsi özünü göstərir:

Kitabı —idarə→ oxumaq

dərsə —idarə→ gedəndə

tez-tez —yanaşma→ danışan və s.

Feli birləşmələr cümlənin mürəkkəb bir üzvü olur.

Mən ali məktəbə daxil olmaq üçün Azərbaycana gedəcəyəm.

Dünən yağış yağmağa başlayanda biz yola düşdük.

Şiddətlə dalğalanan dəniz balıqçıları qorxutmurdu.

# Qrammatik normalar

Azərbaycan ədəbi dilində icrası vacib olan əsas qrammatik normalar aşağıdakılardır:

1. Müəyyən miqdar sayından sonra işlənən isimlər cəm şəkilçisi qəbul edə bilmir: beş kitab, üç adam, yüz əsgər və s.

2. İsim, sifət və saylara əvvəl cəm, sonra mənsubiyyət, hal, şəxs-xəbərlik şəkilçiləri artırılır:

yerli-lər-imiz-dən-dir;

yaxşı-lar-ımız-dan-dır və s.

3. Fellərə əvvəl təsirlik, sonra növ, şəkil, şəxs-xəbərlik şəkilçiləri artırılır; göndər-il-məli-dir; qazan-ıl-mış-dır və s.

4. Cümlədə nə, nə də inkar bağlayıcısı işləndikdə fel təsdiqdə işlənir: Nə yağış kəsir, nə də gün çıxırdı.

5. Xəbər mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşır:

O ← uzlaşma — oxuyur

Onlar ← uzlaşma — oxuyurlar

6. Cümlədə əvvəl mübtəda, sonda xəbər, xəbərdən əvvəl tamamlıq, zərflik işlənir. Təyin təyin etdiyi sözdən əvvəl işlənməlidir.

Günəşin işığı onun zəifləmiş gözlərini qamaşdırdı.

Güclü külək evlərin damlarını uçururdu və s.

## Tapşırıqlar:

## I Sintaktik əlaqələri göstərin.

1. Vaqif Vidadini oğlu Əli bəyin toyuna dəvət etdi (S.V).
2. Qaragöz qız əlindəki gülləri Nərimana verdi (M.C).
3. Maya kədərlə Qaraşın üzünə baxdı (M.İ).
4. Novruzəli əlindəki kağızı qutuya saldı. (C.M)
5. Sabirin satiralarını bütün xalq sevir. (M.C)




**Nümunə:** Kərim müəllimin dediklərinə diqqətlə qulaq asırdı.

## II Söz birləşmələrini cümlədə işlədin.

Vətən torpağı; Bakı şəhəri; şirin alma; yaxşı yoldaş; qızıl saat; kitab mağazası; gül mağazası; qırmızı parça; yeni ev, təzə şəhər.

## III Cümlələrin qrammatik əsasını göstərin:

1. Qatar gecə saat 1-də Bakıya çatdı.
2. Payız küləyi Nərimanın saçlarını dağıtdı.
3. Biz səhər işıqlananda sıx bir meşəyə çatdıq.
4. Qonşu həyətin qapısı yan küçəyə açılırdı.
5. Əşrəf şəhərdən bir az kənarda düşərgədə dincəlirdi.

6. Güclü yağış yağır, göy gurultusundan qulaq tutulurdu.

7. Əşrəf əlindəki qəzetlərə baxıb güldü.

8. Uşağın gözləri ulduz kimi parıldayırdı.

9. Aqil çox söz demək istəyir, ancaq babasına cavab qaytara bilmirdi.

10. Güllər atasının sözlərini eşidib, başını aşağı saldı.

# IV. Test tapşırıqları

1. İsmi birləşmələri seçin.

1. kitabın üzü 2. onun evi 3. dərs oxumaq 4. evə gedəndə 5. yaşıl alma 6. onu görüb

a) 1, 2, 5
b) 1, 2, 3
c) 3, 5, 6
d) 5, 6
e) 3, 6

2. Feli birləşmələri seçin.

1. kitabın üzü 2. onun evi 3. dərs oxumaq 4. evə gedəndə 5. yaşıl alma 6. onu görüb

a) 3, 4, 6
b) 1, 2, 3
c) 5, 6
d) 4, 5, 6
e) 1, 6

3. I növ ismi birləşmə hansıdır?

a) məktub yazmaq
b) evə gedən
c) odun istisi
d) sənin adın
e) maraqlı kitab

4. Cümlə üzvləri kimi verilənlərdən biri yanlışdır.

a) zərf
b) zərflik
c) xəbər
d) mübtəda
e) təyin

5. Baş üzvləri seçin:
a) təyin, xəbər
b) mübtəda, xəbər
c) xəbər, tamamlıq
d) təyin tamamlıq
e) mübtəda, tamamlıq

6. Cümlənin sxemi hansı bənddə verilmişdir?
Munis dərslərini yaxşı oxuyur.

a)
b)
c)
d)
e)



7. Sual ədatı ilə düzəlmiş cümlə hansıdır?

a) Gəlirsənmi?
b) O gələcək?
c) Sara necə qızdır?
d) Sən nə oxuyursan?
e) Yağış yağdı?

8. O dedi: «Biz yoldaşlara kömək etməliyik» cümləsinin sxemini göstərin.

a) M: «V»
b) «V»-m
c) M: «V»-m
d) M: «V?»
e) «V?»-m

9. Cümlənin qrammatik əsası nədir?
a) təyin, xəbər
b) təyin tamamlıq
c) mübtəda, xəbər
d) mübtəda, təyin
e) mübtəda, tamamlıq

10. II dərəcəli üzvlərin də iştirak etdiyi cümlə necə adlanır?
a) müxtəsər cümlə
b) sadə cümlə
c) mürəkkəb cümlə
d) geniş cümlə
e) adlıq cümlə

# Üslubiyyat və üslubi normalar

Ədəbi dildə fikirlər müxtəlif şəkildə, müxtəlif tərzdə ifadə edilir. Həmin ifadə tərzləri dilin üslublarını əmələ gətirir. Üslubları öyrənən şöbə üslubiyyat adlanır. Azərbaycan ədəbi dilinin aşağıdakı üslubları vardır:

**1. Bədii üslub** fikrin obrazlı, bədii ifadəsinə xidmət edən, emosional nitq formasıdır. Əsas cəhətləri obrazlılıq, emosionallıq, çoxmənalıq, məcazilikdir. Bədii üslubda obrazlılıq naminə mövcud qrammatik normalar pozula bilər. Bədii əsərlərin dili bədii üsluba daxildir: Məsələn,

## Ağca

Bəzi adamların adı özünə yaraşmır. Amma bu qızın adını, elə bil ki, onun gözəl qamətinə, məlahətinə baxıb qoyublar: Ağca! Qubanın ağ alması!

Heç tanımayan, bilməyən bir adam da rast gəlsə, yəqin ki, bu qıza başqa bir ad deməz, elə deyər: Ağca!

Ağca yaraşıqlı bir qız idi ki, tamaşasından doymazdın. Həmişə dik və düz baxan iri ala gözləri, ağ sifətini dairələyən qara saçlar, sakit yeriş və s.

Çoxları bu qızı küçədə, məktəb həyətində görəndə baxa-baxa qalırdı. Ağcanın isə bundan acığı gəlirdi. (Mir Cəlal)

## Körpüsalanlar

…Mən uçmaq… hey uçmaq istəyirdim. Meşəli dağların, sıldırım qayaların, dibi görünməyən dərələrin yanından qıjıltı ilə vurub keçdikcə daha iti uçmaq istəyirdim. Mən sürəti artırdıqca tez-tez görünüb qeyb olan mavi üfüqlər də uzaqlaşırdı… Mən hər şeyin necə amansız bir sürətlə arxada qalmasından aldığım zövqdən başqa heç nə duyub-dərk etmirdim…

Əsrləri bir anda vurub-keçən dahilərə eşq olsun! Əgər biz koramal kimi yerlərdə sürünəcəkdiksə, bəs bu dünya kimin üçünmüş? Əgər biz fərsiz, məhdud arzuların əsiri olacaq imişiksə, bəs bu əzəmətli dağlar, bu uçurumlu yollar nə üçünmüş? Bütün məxluqatın əşrəfi olan insanın ləyaqətinin mənası nədən ibarət imiş? Mən insan əli, insan dühası ilə qayrılmış maşının gedib aya çatdığını eşitdiyim gecə uzun zaman yata bilmədim. O gecə mən qəribə bir sevinc, həyəcan içindəydim. Mən üfüqlərin birdən-birə necə sürətlə genişləndiyinə heyran olurdum. Mən uçmaq, uçmaq istəyirdim. (İ.Əfəndiyev)

**2. Elmi üslub elmi** təfəkkürün ifadəsidir. Müxtəlif elm sahələrini əhatə edir. Əsas cəhətləri dəqiqlik, konkretlik, məntiqilik, terminlilikdir. Mürəkkəb cümlələrdən, sxem və qrafiklərdən çox istifadə edilir:

1. «İlə» bağlayıcısı və «ilə» qoşması omonimdir. Onları bir-birindən fərqləndirmək üçün nəzərə almaq lazımdır ki, bağlayıcı kimi işlənən «**ilə**» hissəciyini (la, lə) «**və**» bağlayıcısı ilə, eləcə də vergüllə əvəz etmək olar: Tural **ilə** Anar qardaşdır.//Tural **və** Anar qardaşdır.

2. Çiçəkli bitkilər inkişafının müəyyən dövründə çiçək açır, həmin çiçəklərdən içində toxumalar olan meyvələr əmələ gəlir. Bitki toxumla çoxalır. Deməli, bütün çiçəkli bitkilər, o cümlədən, vegetativ yolla

çoxalanlar da toxumla çoxalır. Bitkilərin toxumla çoxalmasını bilmək üçün çiçəyin quruluşunu yada salaq. Hər bir çiçək yastılaşmış, bəzən də qabarıq olan çiçək yatağının üzərində yerləşir, xaricdən çiçək yanlığı ilə əhatə olunur. Çiçək yanlığı kasacıq və tacdan tbarətdir. Kasacıq yaşıl rəngli, bəzən yarpaqları bitişik olur. Həm ləçəkli, həm də kasa yarpağı olan çiçək yanlığı ikiqat çiçək yanlığı adlanır. Çiçək tacı həm sərbəst, həm də bitişik ləçəkli olmaqla, çox vaxt müxtəlif rənglərdə olur. Bu, tozlayıcı həşəratı cəlb etmək üçün olan uyğunlaşmadır. (Biologiya. 6-7-ci sinif dərsliyi. Bakı, 2005, s.87)

**3. Publisistik üslub** ayrı-ayrı mətbuat – KİV nümunələrinin dilini əhatə edən ictimai təfəkkür formasıdır. Buraya televiziya, radio, qəzet, jurnal və s. dili daxildir. Həm şifahi, həm də yazılı forması vardır. Əsas cəhətləri kütləvilik, aydınlıq, anlaşıqlı olmaqdır. Xalq dilinə yaxındır:

1. Nəsimi rayonunda Rayon İcra Hakimiyyəti və ATİAHİ.[4] Nəsimi rayon komitəsinin birgə təşkilatçılığı ilə 5 oktyabrda Beynəlxalq Müəllimlər gününə həsr edilmiş təntənəli tədbir keçirilmişdir.

251 nəfər qabaqcıl təhsil işçisi, veteranlar və hakimiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə İcra Hakimiyyətinin nümayəndələri, millət vəkilləri və b. iştirak etmiş, son illər Respublikamızın bütün dünyada nüfuzunun artmasından, ölkə rəhbərliyinin təhsilə qayğısından bəhs etmişlər.

2. Portuqaliya milli komandasının baş məşqçisi Paulu Bentu İsrail Futbol Federasiyasının təklifini rədd

[4] ATİAHİ – Azərbaycan Təhsil İdarəsi Azad Həmkarlar İttifaqı.

edib. Bentu İsrail yığması ilə səfərdə oynayacaqları 2014-cü il dünya çempionatının seçmə qrup qarşılaşmasının martın 22-dən başqa tarixə keçirilməsinə razı olmayıb. O səbəb kimi komandasının hazırlıq qrafikinin gərgin olduğunu göstərib. Çünki həmin oyunun ardından Portuqaliya yığmasının Bakıya gələcəyi planlaşdırılıb. Pireneylilər «Bakı» klubunun təlim-məşq bazasında məskunlaşaraq, Azərbaycan millisi ilə martın 26-da Tofiq Bəhramov adına Respublika stadionunda keçirəcəkləri qarşılaşmaya hazırlaşacaqlar. (525-ci qəzet. 19:01. 2013-cü il).

**4. Məişət üslubu** insanların gündəlik məişət danışığını əhatə edir. Konkret dil göstəricisi yoxdur. Əsas cəhəti nitqin sərbəstliyi, təbiiliyi və yığcamlığıdır. Yalnız şifahi forması vardır. Ədəbi dilin ən geniş yayılmış kütləvi üslubudur. Dialoji nitq formasıdır. Nitq etiketləri, mimika və jestlər yarımçıq cümlələr, söz cümlələr bu üslub üçün səciyyəvidir.

Nitq etiketlərinə müraciət etiketləri (xanım, cənab, əmi, dayı, yoldaş, a bala və s); görüşmə etiketləri (salam, xoş gördük, axşamın xeyir, sabahın xeyir və s); *ayrılma etiketləri* (sağ ol, xudahafiz, əlvida, görüşərik, görüşənə qədər və s.); *təbrik etiketləri* (gözün aydın, təbrik edirəm və s), *alqışlar* və *qarğışlar* daxildir:

**Nitq etiketlərinə aid nümunələr:**

**I Görüşmə etiketləri:**

Salam! Dostum, necəsən?
Xoş gördük! Qardaşım!
Sabahın xeyir! və s.

**II Ayrılma etiketləri:**
Sağ ol, dostum.
Xudahafiz, əzizim.
Gələn görüşə qədər.

**III Təbrik etkietləri:**
Təbrik edirəm, bacım.
Mübarək olsun!
Novruz bayramınız mübarək olsun!
Toyunuz mübarək.
Qələbə gününüz mübarək olsun

**5. Rəsmi-işgüzar üsluba** rəsmi və işgüzar sənədlərin dili daxildir. Rəsmi sənədlər dövlət əhəmiyyətli olur və dövlət orqanları tərəfindən tərtib edilir, tarixi əhəmiyyət daşıyır. Hökumət sərəncamları, fərmanlar, əmrlər rəsmi sənədlərdir.

İşgüzar sənədlər dövlət əhəmiyyəti daşımır. Ayrı-ayrı insanlara aid olur, çox zaman elə həmin insanların özü tərəfindən hazırlanır. Ərizə, tərcümeyi-hal, protokol, akt və s. işgüzar sənədlərdir.

Göstərilən üslublar ictimai üslublardır. Onları tərtib edərkən ədəbi dil normalarına əməl edilməlidir.

Ayrı-ayrı şəxslərə məxsus olan fərdi üslub da mövcuddur. Fərdi üslub bir fərdin və ya bir qrupun şifahi və yazılı nitqidir. Daha çox bədii üslubda özünü göstərir: Məsələn,

Sabirin dili (üslubu),

Molla Nəsrəddinçilərin dili (üslubu) və s.

## Tapşırıqlar:

**1. Verilmiş mətn hansı üslubdadır.**

*... Oktyabrın 10-da Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin XVI hesabat-seçki konfransı keçirilmişdir. Konfransın iştirakçıları*

*əvvəlcə Fəxri Xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə güllər qoymuşlar…*

**2. Verilmiş mətnin üslubunu müəyyənləşdirin:**

*Dilçiliyin sintaksis sahəsində öyrənilən əsas məsələlərdən biri də sintaktik əlaqələrdir. Sintaktik əlaqənin iki növü var:*

*1. tabesizlik əlaqəsi*

*2. tabelilik əlaqəsi*

*Tabesizlik əlaqəsi həmcins üzvlər və tabesiz mürəkkəb cümlənin tərəfləri arasında olur.*

*Tabelilik əlaqəsi isə biri digərindən asılı olan, onu izah edib aydınlaşdıran tərəflər, sərbəst söz birləşmələrinin əsas və asılı tərəfləri, tabeli mürəkkəb cümlənin baş və budaq cümlələri arasında mövcuddur.*

**3. Mətnin üslubunu müəyyən edin:**

- *Ay qız, demirəmmi, gəl bir az bu uşaqlara kömək elə.*
- *Gəlirəm, ay ana. Gəlirəm.*
- *Axşam oldu daha, bir az tez olun. Deyəsən, yağış da yağacaq.*
- *Gəldim, ay ana, gəldim daha.*
- *Tez olun, qızlar. Yağış yağsa geriyə-kəndə qayıtmaq çətin olacaq. Artıq qaranlıq da düşür…*

**4. Mətnin üslubunu müəyyən edin və səciyyəvi cəhətlərini söyləyin:**

Oğlu əsir, qızı əsir,
Qışı əsir, yazı əsir.
Haqq deyəni yalan kəsir,
Yalana yar olan dünya.

Düzü əyrinin adına,
Yaşı qurunun oduna.
Məzlumların fəryadına
Qulağı kar olan dünya. (H.H)

**5. Verilmiş mətn hansı üslubdadır.**

*Keçmə, Araz dərindi,*
*İçmə suyu sərindi.*
*Həsrət qalan bu ellər*
*Sənin də ellərindir.*

*Bu dağda mənəm sənsiz,*
*Dağı enmənəm sənsiz.*
*Harda ahu mələsə*
*Bil ki, o, mənəm sənsiz.*

**Suallar:**

1. Üslub və üslubiyyat terminlərini izah edin.

2. Ədəbi dilin neçə funksional üslubu var? Hansılardır?

3. Bədii üslubun məxsusi cəhətləri hansılardır?

4. Elmi və bədii üslubun fərqi nədədir?

5. Publisistik üslubun əsas xüsusiyyətləri hansılardır?

6. Məişət üslubunun səciyyəvi cəhətləri hansılardır?

7. Rəsmi-işgüzar üslub nədir?

8. Rəsmi və işgüzar sənədlərin fərqi varmı? Hansılardır?

9. Nitq etiketləri hansılardır?

10. Fərdi üslub nədir?

# V. Test tapşırıqları

1. Müasir Azərbaycan ədəbi dilində neçə üslub var?
a) 4
b) 5
c) 3
d) 2
e) 6

2. Jest nədir?
a) əl-qol hərəkətləri
b) üz əzələlərinin hərəkəti
c) qəzəblənmək
d) qarğışlar
e) alqışlar

3. Nitq etiketləri sırasında yanlış olanı seçin.
a) müraciət
b) təbrik
c) ayrılma
d) görüşmə
e) jestlər

4. Bədii üslubun əsas cəhəti.
a) obrazlılıq
b) terminlilik
c) təkmənalıq
d) qrafik işarələr
e) sxemlər

5. Monoloq və dialoqlardan ən çox hansı əsərlərdə istifadə olunur?

a) dram əsərlərində
b) hekayələrdə
c) şeirlərdə
d) nağıllarda
e) romanlarda

6. İşgüzar sənədlərə aid deyil.

a) tərcümeyi-hal
b) ərizə
c) izahat
d) prezident fərmanları
e) elanlar

7. Funksional üslublar birləşərək nəyi əmələ gətirir?

a) ədəbi dili
b) dialektləri
c) fərdi nitqi
d) bədii üslubu
e) xalq danışıq dilini

8. Biri rəsmi sənəd deyil.

a) qanun
b) fərman
c) sərəncam
d) əmr
e) ərizə

9. Biri işgüzar sənəd deyil.
a) ərizə
b) tərcümeyi-hal
c) elan
d) sərəncam
e) reklam

10. Elmi üslubun əsas cəhəti hansıdır?
a) obrazlılıq
b) terminlilik
c) emosionallıq
d) ekspressivlik
e) çoxmənalıq

# PRAKTİK MƏŞĞƏLƏLƏR ÜÇÜN MATERİALLAR

# PRAKTİK MƏSƏLƏLƏR

Əcnəbi tələbələrin Azərbaycan dilini daha tez öyrənə bilmələri üçün praktik məşğələlərin əhəmiyyəti, səmərəsi daha böyükdür. Bu məsğələlərdə tələbələrin həm yazılı, həm də şifahi nitqini inkişaf etdirmək üçün müxtəlif iş formalarından istifadə edilməlidir. Şifahi və yazılı ədəbi dil normalarının mənimsənilməsi üçün auditoriyada aparılan praktik məşğələlər tələbələrdə mükəmməl nitq vərdişlərinin formalaşmasına, möhkəmlənməsinə kömək edər.

Praktik məşğələlərin Azərbaycanın tanınmış yazıçı və şairlərinin əsərləri əsasında tərtib edilməsi əcnəbi tələbələrdə mənəvi sərvətimiz olan ədəbi nümunələrimizə, tariximizə də dərin marağın yaranmasına səbəb olar.

Əcnəbi tələbələrin şifahi nitq qabiliyyətini inkişaf etdirmək üçün ifadəli oxudan, şeir parçalarının əzbərlənməsindən, şifahi dialoqların tərtib edilməsindən istifadə edildiyi kimi, yazılı nitq vərdişlərinin inkişafı üçün müxtəlif yazı işlərindən, şəkil üzrə inşaların, ifadələrin yazılmasından istifadə etmək məqsədəuyğundur.

Əcnəbi tələbələrin müxtəlif tədbirlərdə iştirakını təmin etməklə, muzeylərə, vətənimizin tarixi yerlərinə səyahətlər, ekskursiyalar təşkil etməklə də həm Azərbaycanımıza, həm dilimizə, adət-ənənələrimizə, tarixi gerçəkliklərimizə maraq yarada bilərik.

# İnşa necə yazılmalıdır

Yazı insan cəmiyyətinin çox zəngin, mədəni sərvətlərindən biridir. İnsanların əldə etdikləri, yaratdıqları bir çox sirlər, nailiyyətlər yazı vasitəsilə əsrləri adlayır, nəsillərdən-nəsillərə ötürülür.

Orta və ali məktəblərdə tələbələrin yazı mədəniyyətinə yiyələnmələri üçün sərbəst yazıların, xüsusilə də inşa yazıların yazılması vacibdir.

İnşa yazıların yazılması tələbələrdən yaradıcılıq tələb edir. Tələbələr daha çox düşünür, düşündüklərini ümumiləşdirərək fiadə etmək üçün sözlər, kəlmələr axtarırlar ki, bu da onlarda hadisələrə qiymətvermə və nəticəçıxarma kimi cəhətlərin inkişafına təsir göstərir.

Hər hansı bir mövzuda inşa yazmaq üçün, ilk növbədə, mövzu ilə əlaqədar məlumat toplamaq, həmin məlumatı giriş, əsas hissə və nəticə olaraq sistemləşdirərək təqdim etmək məsləhətdir. Giriş hissəsində mövzu ilə əlaqədar tələbələrin bildiyi ümumi giriş beş-altı cümlə vasitəsilə (bir abzas həcmində) verilir, sonra əsas mövzu geniş şəkildə təqdim edilir. Bu hissədə əsas mövzu açılmalı, konkret faktlarla, real həyatdan, ədəbi nümunələrdən götürülmüş nümunələrlə əsaslandırılmalıdır. Sonda beş-altı cümlə (bir abzas həcmində) vasitəsilə mövzuya yekun vurulmalıdır. Tələbənin mövzuya şəxsi münasibəti əks edilməlidir.

**Nümunə:**

## 1. Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur

Ulu tanrının Azərbaycana bəxş etdiyi Heydər Əliyev dərin zəka, analitik təfəkkür, qeyri-adi yaddaş və görünməmiş işgüzarlığa malik olan dövlət xadimi, dünyanın qətiyyətli siyasətçilərindən biri olmuşdur. Onun bu siyasi imici keçmiş SSRİ-də rəhbər şəxslərdən biri kimi, çalışdığı və Azərbaycana rəhbərlik etdiyi otuz ildən artıq bir müddətdə formalaşmışdır.

Heydər Əliyev xalqın və dövlətin taleyüklü, həlledici anlarında bütün məsuliyyəti öz çiyinlərinə götürməyi, ən çıxılmaz vəziyyətlərdə optimal qərar qəbul etməyi və belə vəziyyətlərdən qalib kimi çıxmağı bacaran bir dövlət xadimi idi. Onun xalqa müraciətlərində, bir qayda olaraq, dövlətin taleyinə narahatlıq, səmimiyyət, eyni zamanda səfərbəretmə gücü, möhkəm inam əks olunurdu.

Heydər Əliyev bütün hakimiyyəti boyunca olduqca səmərəli çalışdı. Azərbaycan adlı möhtəşəm bir əsər yaratdı. Daim onun taleyi üçün narahatlıq keçirdi. Azərbaycanın müstəqillik yoluna qədəm qoyduğu dövrdə Heydər Əliyevdən əvvəlki iqtidar Xəzər dənizi neftinin birgə işlənməsi ilə əlaqədar dünyanın bir çox aparıcı dövlətlərinin neft şirkətləri ilə danışıqlar aparsalar da, heç bir nəticə hasil olmamışdı. Heydər Əliyev isə qısa bir müddət ərzində müxtəlif dövlətlərlə Xəzərin neft-qaz yataqlarının istismarı ilə bağlı 21 müqavilə imzaladı, respublikanın iqtisadiyyatına 60 milyard dollar həcmində sərmayə qoyulmasına nail oldu.

Bu gün Azərbaycan dünya siyasətində strateji rola malikdir. Bu, Heydər Əliyevin yeritdiyi uzaqgörən səiyasətin və bu gün onun siyasi yolunu uğurla davam etdirən İlham Əliyevin fəaliyyətinin nəticəsidir.

Heydər Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də ana dilimiz – Azərbaycan dilinin taleyi məsələsi idi. Görkəmli şəxsiyyət özü bu haqda demişdir: «Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm».

Hər bir dövlətin əsas atributlarından biri onun dilidir. Dili yaşadan və inkişaf etdirən isə onun mənsub olduğu xalqdır. Dilin hərtərəfli inkişafı, zənginləşməsi, beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır.

Təcrübə göstərir ki, dilin inkişafında milli müstə-qillik ideyaları və dövlətçilik ənənələrinin, bu ənənələri həyata keçirən görkəmli siyasi xadimlərin müstəsna xidmətləri olur. Azərbaycan dilinin inkişafı, onun təcrübədə ümumişlək dilə, həqiqi dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol alması, zənginləşərək nüfuz qazanması Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti və müdrik dil siyasətinin nəticəsidir.

Heydər Əliyevin Azərbaycan dili haqqındakı fikir-ləri, qəbul etdiyi qərarlar, imzaladığı sərəncamlar bu gün Azərbaycan dilinin mövqeyinin yüksəlməsinə səbəb olmuşdur. Bütün sahələrdə olduğu kimi, bu sahədə də Heydər Əliyev əlindən gələni əsirgəməmişdir.

Azərbaycan torpaqlarını, Azərbaycanın dövlətçiliyini qorumaq bir dövlət rəhbəri kimi Heydər Əliyevi daha çox narahat etmişdir. Bu sahədə də Ulu Öndər çox böyük uzaqgörənlik göstərmiş, hələ keçmiş

SSRİ-nin tərkibində olduğu dövrlərdə belə, ölkəmizdə hərbi məktəblərin, fakültələrin açılmasına, gənclərimizin qonşu dövlətlərdə hərbi təhsil almasına nail olmuşdur. Bu gün ən böyük sərvətimiz olan müstəqilliyimizi, döylətçiliyimizi qorumaq üçün həmin hərbi məktəbləri, akademiyaları bitirmiş zabit kadrlarının qarşısında çox mühüm bir vəzifə var: Heydər Əliyevin gərgin əməyi nəticəsində yaranmış Müstəqil Azərbaycan torpaqlarını yağılardan qorumaq.

Çünki dünyaya meydan oxuyan rus imperiyası dağıldıqdan sonra Azərbaycanda milli azadlıq hərəkatı vüsət aldı. İnsanlar azadlıq ideyası ilə meydanlara axışdılar. Bu hərəkatın qarşısını almaq üçün rus şovinizmi erməni hiyləsindən, erməni fitnəsindən istifadə etməyə başladı. Heydər Əliyevin qeyri-adi zəkası, müdrikliyi sayəsində Azərbaycan bu bəladan qurtardı. Azərbaycanın daxildən parçalanmasının qarşısı alındı. Dünya dövlətlərinin sırasına yeni bir ad da yazıldı: Azərbaycan.

Bu dövlətin memarı və yaradıcısı isə Heydər Əliyev idi. Heydər Əliyevin adı Azərbaycanın yaddaşına, düşüncəsinə qızıl hərflərlə yazılıb. Daha doğrusu, Ulu öndər öz ağlı, zəkası, əməlləri ilə adını xalqımızın yaddaşına yazdı. Heydər Əliyev və Azərbaycan adı bu mənada bir-birini tamamlayır.

Bu gün hər bir Azərbaycan vətəndaşı Ulu öndər Heydər Əliyevin bizə miras qoyub getdiyi Müstəqil Azərbaycan dövlətini, bu dövlətin dilini, sərvətlərini qorumağa and içməli, bu şərəfli vəzifənin yerinə yetirilməsinə çalışmalıdır. Hər birimiz bir damlayıq. Damlalardan ümman olur, sellər yaranır. Belə selin qarşısında isə heç nə dayana bilməz. Ulu öndər! Allah Sənə rəhmət eləsin. Bizə Azərbaycan adlı müstəqil bir

dövlət, bu dövlətdə xoşbəxt həyat bəxş etdiyin üçün ruhun qarşısında baş əyirik.

**Nigar**
**ADU. I kurs**

## 2. Ana məhəbbəti

Dünyada insan hissləri içərisində ən müqəddəs hiss ana məhəbbəti, ana sevgisidir. Nahaq yerə deməmişlər ki, cənnət anaların ayağı altındadır. Bütün dünyada ana laylası qədər həzin, insana rahatlıq gətirən bir musiqi ola bilməz.

Zaman-zaman şairlər, yazıçılar ana məhəbbətini yüksək qiymətləndirmiş, ona dastanlar, şeirlər həsr etmişlər. Ən böyük yazıçıların yaradıcılığında «ana» mövzusu ən önəmli yerdə olmuşdur.

Ana! Ana! O adın qarışısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir.

- deyən C.Cabbarlının səsinin titrəyişini də bu misralarda duymaq mümkündür.

Anaların adı Vətənlə yanaşı çəkilir. Çünki hər ikisi müqəddəsdir. Bu kəlmələr yanaşı işləndikdə müqəddəslik, əzm daha da artır. Bütün həyatını övladlarına həsr edən, saçlarının qaralığını, gənclik təravətini heç əsirgəmədən övladlarına bağışlayan, gecə-gündüz rahatlıq bilmədən övladlarını Vətənə layiq insanlar kimi tərbiyə edən analara eşq olsun. Belə analarımıza yüzlərlə şeirlər, mahnılar yazılsa da, azdır: Ana haqqı – tanrı haqqıdır!

**Könül**
**BDU. I kurs**

# SƏRBƏST İNŞA MÖVZULARI

1. Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.
2. Türk dünyasının atası – Atatürk.
3. Azərbaycan vətənimdir.
4. Bakı
5. Mənim dostum
6. Qəhrəmanlar ölmürlər.
7. Milli sərvətlərimiz.
8. Ən çox sevdiyim şair (yazıçı)
9. Ən çox sevdiyim ədəbi qəhrəman.
10. Təbiəti qoruyaq.
11. Ən çox sevdiyim fəsil.
12. Mənim yay tətilim
13. Ana haqqı – tanrı haqqı.
14. Çiçəklənən diyarımız.
15. Ana dilim.
16. Bizim qəhrəmanlarımız.
17. Yurdumuza bahar gəlir.
18. Novruz milli bayramımızdır.
19. İnsan əməklə ucalır.
20. Mənim arzum.
21. Doğma şəhərim.
22. Sevdiyim peşə.
23. Mənim idealım.
24. Azərbaycanın təbii sərvətləri.
25. Qızıl payız.



***Məkkə. Müqəddəs Kəbə***



***Yaşıl adalar.***



***Dəniz mənzərəsi***



***Dağlar***



***Sübh çağı***



***Təbiətin möcüzəsi***



***Şəlalə***



***Tənha ağac***



***Qürub çağı***



***Qışda***



***Dənizlər və qalalar***



***Göy qurşağı***



***Yaz gələndə***



***Qızıl payız***



***Sarı çiçək***



***Dağlar***



***Qışın gözəlliyi***



***Kür çayı***

# Dialoq tərtibi nümunəsi

## Mağazada

Səlim və Orxan kitab mağazasına daxil oldular. Onlar bu gün müəllimin tapşırdığı «Kitabi-Dədə Qorqud» kitabını almaq istəyirdilər.

Səlim satıcıya yaxınlaşdı:

– Zəhmət olmasa, deyin, sizdə «Kitabi-Dədə Qorqud» əsəri varmı?

– Bizim mağazada bu kitab olub, satılıb, əgər istəyirsinizsə, mən sifarişinizi qəbul edib, sabah kitabı gətizdirə bilərəm.

– Bəli, bu kitab bizim üçün çox vacibdir. Sabah mütləq gələrik.

– Baş üstə. Sabah günorta saat $2^{00}$-də gəlsəniz, kitabı ala bilərsiniz.

– Çox sağ olun!

– Sağ olun.

# Dialoq tərtibi üçün mövzular

1. Azərbaycan dili dərsində.
2. Mağazada.
3. Kitab mağazasında.
4. Yolda.
5. Xəstəxanada.
6. Kitabxanada.
7. Evimizin həyətində.
8. Məktəbdə.
9. Parkda.
10. Avtobusda.
11. Universitetin həyətində.
12. Tənəffüsdə.
13. Yeməkxanada.
14. Konsertdə.
15. Dəniz limanında.
16. Evdə.
17. Təyyarədə.
18. Qız qalasının yolunu soruşmaq.
19. Tələbə yeməkxanasında.
20. Həkimin qəbulunda.
21. Hava limanında.
22. Telefon danışığı.
23. Gəmidə.
24. Rəsm sərgisində.
25. Mərkəzi poçtda.

# İMLA YAZI MƏTNLƏRİ

## İmlaların yazılması metodikası

İmla tələbələrin şifahi və yazılı nitqi arasındakı münasibəti əlaqələndirən xüsusi yazı növüdür. İmlalar yoxlayıcı və öyrədici olaraq iki növə bölünür.

Əcnəbi tələbələrin, əsasən, yazılı nitq vərdişlərini inkişaf etdirmək məqsədilə aparıldığı üçün verilmiş imlalar mətni dəyişdirmədən yazdırılan imlalar olmalıdır.

Qeyd etmək lazımdır ki, verilmiş nəzəri mövzuların hər birinin sonunda yekunlaşdırıcı imla yazılardan istifadə etmək olar. Bu zaman imla yazıldıqdan sonra keçirilmiş mövzu ilə əlaqədar tapşırıqları da imlanın sonuna əlavə etmək olar. Məsələn, Nitq hissələri haqqında məlumat verildikdən sonra «Şahzadə» başlıqlı imlanı yazdırmaq, sonda isimlərin, əvəzliklərin mətndən seçilməsini məqsədəuyğun olar. Bu tapşırıqları variantlar üzrə tapşırmaq daha məqsədəuyğun olar:

**I variant:** Mətndə işlənmiş isimləri seçin (isimlərin altından bir düz xətt çəkin).

**II variant:** Mətndə işlənmiş əvəzlikləri seçin (Əvəzliklərin altından iki düz xətt çəkin) və s.

## Şahzadə

Şəhərə car çəkdilər ki, şahzadə uzun və uzaq səfərdən qayıdır. Şah qırmızı geyinib taxta çıxdı. Bir azdan o, dəvələrin zınqrov səsini eşitdi. Sonra qabaqda at belində gələn cavan oğlanı gördü. Onun enli kürəyi, çatma qaşları vardı. Yəhərin üstündə yanpörtü

oturmuşdu. İpək çalmasının ortasında yumurta boyda yaqut parıldayırdı.

Atın başını tutdular. Oğlan sıçrayıb yəhərdən düşdü. Sonra şahın qarşısında diz çökdü və əlindən öpdü (İ.Şıxlıdan).

## Açarı özümüzdədir

İstambuldan qayıdan gəminin göyərtəsində sərnişinlərdən bir dəstəsi rəqs edirdi. Bir bığlı kişi də böyük həvəslə oynayırdı. Birdən gəmi ləngər vurmağa başladı. Bığlı kişinin sandıqcası yuvarlanıb dənizə düşdü. Lakin o, oyun meydanında halını pozmadan dedi: «Eybi yoxdur, sandığın açarı özümüzdədir».

## Ceyran ovu

Əhməd kişi çiynində tüfəng dağa tərəf çıxırdı. Oğlu Nəsib də onun yanınca gedirdi. Onlar dağın döşünə çatdılar. Orada bulağın yanından ensiz bir cığır uzanırdı. Bu cığırla həmişə ceyran, cüyür bulağa su içməyə gəlirmiş. Əhməd kişi qoca bir palıd ağacının dalında dayandı. Cığırla bulağa tərəf gələn ceyranı oğluna göstərdi. Ceyranın körpə balası oynaqlaya-oynaqlaya anasının qabağına keçdi. Elə bu zaman ağacların arasından cavan bir oğlan çıxdı. Oğlan tüfəngi əlinə alanda Əhməd kişi qışqırdı:

– Dayan! Nə edirsən?

Oğlan çaşdı və tüfənginin lüləsini aşağı saldı.

İnsan səsi eşidən ana ceyran balasını döşünə alıb yel kimi gözdən itdi.

# Səhv küpdədir

Keçmiş zamanda bir kəndli qazıdan xahiş edir ki, ona bir arayış yazsın. Qazı deyir: «Vaxtım yoxdur, get sonra gələrsən».

Kəndli naəlac evə qayıdır. Bir azdan ağlına bir fikir gəlir. O, bir küpə torpaq doldurub, üstünə də azca yağ qoyur və qazının yanına qayıdır. Qazı küpü görüb kəndliyə arayış yazır.

Kəndli gedəndən sonra qazı bir qaşıq yağ götürüb çörəyin üstünə yaxmaq istəyir. Görür ki, qaşığa yağ əvəzinə torpaq gəldi. Qazı hirslənir və tez küçəyə qaçıb kəndlinin dalınca çağırır: «A kişi, dayan! Arayışı səhv yazmışam, gətir düzəldim». Kəndli uzaqdan səsini ucaldıb deyir: «Qazı qardaş, arayışda səhv yoxdur, səhv küpdədir».

# Körpü

Səlim kəndə çatanda hava qaralmışdı. Dağların üzərində toplaşan buludlar onu narahat etməyə başladı. O, havanın qarışdığını bayaqdan görmüşdü.

Səlim evə yenicə gəlmişdi ki, birdən-birə göy guruldadı. İldırım işığı ətrafı bürüdü. Elə bil göy nərə çəkir, alov püskürürdü. Səlim dəhlizə qaçdı. Göyün hər nöqtəsindən yerə bir şəlalə tökülürdü. Səlimin həyəcanı getdikcə artmağa başladı. Ona elə gəlirdi ki, hər cığırdan bir çay axır. İldırımlar sanki onun beynində çaxırdı. Səlim gecəni səhərə kimi yata bilmədi. O, verdiyi vədi xatırladıqca dəhşətə gəlirdi. Səlim bilirdi ki, tikintisinə

yenicə başladıqları körpü bu selin gücünə tab gətirməyəcək.

# Meşədə

Nurəddin meşədə iki saata qədər yol getdikdən sonra bir çaya rast gəldi. Uzun bir ağac sınıb körpü kimi çayın üstünə düşmüşdü. Nurəddin bu ağacın üstü ilə çayın o biri sahilinə keçmək istədi. Lakin ayağı sürüşüb çaya düşdü. Bura çayın dərin yerlərindən biri idi. Ağacın əyilmiş şaxı Nurəddinin əlinə keçdi. O, bu şaxdan tutub, bir təhər kənara çıxdı. Bir az rahat olduqdan sonra paltarını soyunub sıxdı və qurutmaq üçün günün qabağına sərdi.

Hava yavaş-yavaş qaralırdı. Nuraddin hələ də yolu tapa bilməmişdi. Çarəsizlikdən bir ağacın üstünə çıxıb səhərə qədər orada yatmağı qərara aldı. (S.S.Axundovdan)

# Göy göl

Min yüz otuz doqquzuncu ildə güclü zəlzələ nəticəsində Kəpəz dağı uçmuşdu. Dağın uçması nəticəsində bir çox göllər əmələ gəlmişdi. Bunlardan ən böyüyü Göy göldür. Göy göl Gəncə şəhərinin qırx dörd kilometrliyindədir. Bu göl dəniz səviyyəsindən min beş yüz yetmiş altı metr hündürlükdə yerləşir. Orta dərinliyi otuz metr, ən dərin yeri yüz metrə yaxındır. Suyu təmiz və şəffafdır.

Göy göl dövlət qoruğudur. Göldə xallı balıqlar yaşayır. Bu gölün ətrafını qalın fıstıq, palıd meşələri və qarışıq meşələr bürümüşdür. Bu meşələrdə porsuq, cüyür, dağkeçisi və başqa heyvanlar vardır.

# Tufan

Günbatan tərəfdən gurultu ilə gələn qara bulud xatasız deyildi. Çoban Qulam o biri çobanlara xəbərdarlıq etdi ki, ayıq olsunlar.

Bir azdan ətrafa vahiməli bir qaranlıq çökdü. Hərdən göydə şimşək çaxırdı. Birdən mərmi kimi partlayan ildırım yeri titrətdi. Dəhşətli səsdən atlar kişnəyir, itlər ulayırdılar. Qoyun sürüsünü yerində saxlamaq mümkün olmurdu. Elə bu vaxt güclü yağış başladı. Yağış şəlalə kimi tökdükcə dərəni su basırdı. Ferma işçiləri bilirdilər ki, belə gecələr çox qorxulu keçir. Çünki qoyun sürüsü arxacdan çıxsa, selə qərq ola bilər. Yağış get-gedə şiddətlənirdi. Hamı səhərə qədər ayaq üstə sürünün keşiyində durdu.

Səhərə yaxın yağış kəsildi. Günəş üfüqdə güləndə çobanlar sürünü yavaş-yavaş otlağa tərəf sürməyə başladılar (B.Bayramovdan).

# Kəklik

Bahar ağacı çiyninə qoyub fit verə-verə yeriyir, hərdən dərəyə daş atır, quş axtarırdı. Birdən qabaqdakı kolluqların arasında onun gözü bir şeyə sataşdı. Diqqətlə oraya baxdı. Daşın altında çil-çil qanad görünürdü.

Əyiləndə kəkliyin başını gördü. Kəklik tərpənmirdi. Bahar yavaşca irəli yeridi. Motal papağını yuvanın ağzına basıb kəkliyi tutdu. Quş dartınıb əldən çıxmaq istədi. Bahar onu iki əli ilə qucağına basdı. Yuvasına baxanda boz və balaca yumurtalar gördü. Ovuclayıb cibinə doldurdu. Sevincək quzuları qabağına qatıb ağzıyuxarı yeridi. Gün hələ yenicə əyilmişdi. Bahar quzuların dalınca gedir, kəkliyin balaca, yumşaq, yaraşıqlı başını tumarlayıdı. Birdən ürəyindən bir pırıltı qopdu. Sanki ürəyi köksündən uçub getdi. Bahar dayandı. Dərəyə sarı uçan, iti qanadları ilə havanı yarıb gedən kəkliyə baxdı. (Mir Cəlal).

# Günahlar bağışlanmır

Üç yaşlı Ruslan və iki yaşlı Səlimə iki saata yaxın idi ki, səs-səsə verib ağlayır, analarını istəyirdilər. Leytenant Əliyev isə göz yaşları ürəyinə axa-axa çarpayıda uzanıqlı vəziyyətdə bu mənzərəni ürəyi ağrıya-ağrıya seyr edirdi.

Maşın qəzasından sonra onun qolu və ayaqları sınmış, başından aldığı kəskin zərbədən dili tutulmuşdu. Arvadı isə həmin qəzada ölmüşdü. Bu hadisəyə qədər özünü güclü hesab edən leytenant indi anlayırdı ki, insanın gücü ondan daha güclü olan ixtiyar sahibinin əlindədir. İxtiyar sahibi isə həmişə haqqın tərəfindədir. (Vahid Aslan)

# Səssizlik

Həmişə olduğu kimi, bu gün də işdən yorğun çıxmışdı. Bir tərəfdən də maaşların bu gün verilməməsi kefini tamam pozmuşdu. Deməli, uşaqlara meyvə ala bilməyəcəkdi. Arvadı iki aydan çoxdur, ərinin maaş alacağını gözləyir ki, özünə təzə ayaqqabı alsın…

Yolu parkdan keçirdi. Boş bir skamyada oturdu. Pariros götürüb ağır-ağır yandırdı… Gözü yaxınlıqdakı zavoddan burula-burula çıxan qara tüstü topasına ilişdi. Beləcə təmiz havamızı da korlayırlar, – deyib ürəyində deyindi. Yan tərəfə baxdı. Tikintisi yarımçıq qalmış binaya yazığı gəldi. Parirosunu söndürüb ayağa qalxdı… (Vahid Aslan)

## Pis adət

Bu hekayəni nağıl etməmişdən qabaq bunu istəyirəm deyəm ki, bir para uşaqlarda bir pis xasiyyət olur ki, əllərinə karandaş düşən kimi başlayırlar evlərin divarlarını yazmağa. Bəziləri kömürlə, tabaşirlə də yazır… Eləsi var ki, əlinə düşən mismarla, bıçaqla divarları cızıb xarab edir.

Nədənsə divar yazan uşaqlarla mənim aram yoxdu. Çünki əgər sən yaxşı uşaqsan, məşq etmək istəyirsən, götür kağızı, qələmi, bir yerdə otur və nə qədər kefin istəyir yaz! (C.M)

## Ayının hiyləsi

Qasım əmi meşənin içi ilə evlərinə qayıdırdı. O, meşədən kiçik gölün sahilinə çıxmaq istəyəndə qəribə bir hadisə ilə rastlaşdı. Böyük bir ayı arxa pəncələri üstündə yavaş-yavaş suya girirdi. Qabaq pəncəsində bir çəngə ot

tutmuşdu. O, suyun dərinliyinə girdikdə ot çəngəsini yuxarı qaldırırdı. Ayı özünü tamam suya batırandan sonra ot çəngəsini kənara tullayıb sürətlə sudan çıxdı. Qasım əmi başa düşmüşdü ki, ayı bu oyunu ilə bədənindəki birələrdən xilas olmaq istəyirmiş. O, suya girdkdə bədənindəki birələr yuxarı qalxıb ot çəngəsinin üstünə toplaşır, beləliklə ayı canını birələrdən qurtarırmış.

# Yaz gələndə

Qışla yaz vuruşurdu – günün istisi torpağa nüfuz etsə də, yerdən hələ də qışın soyuq nəfəsi kəsilmirdi. Amma günəşin şüaları güclənir, boz torpağın üstündə yavaş-yavaş otlar göyəyir, qışın yerə vurduğu yaralar sağalmağa başlayırdı. Hər tərəf oyanır, boz sərçələrin civiltisi artırdı. Dəstə-dəstə uçuşan dolaşalar, mavi dənizi andıran tarlalara qara bulud kimi qonur, ellər-obalar cana gəlir, qışın insafsız pəncəsindən qurtulan mal-qara ağır-ağır yamaclara qalxır, orada-burada naxırçıların hay-harayı eşidilirdi. Uzaqlarda kiminsə şikayət dolu bir səslə oxuduğu mahnı Ayıbasar kəndi üzərində qanad gərmiş kədəri daha da artırırdı. (M.Hüseyn)

# Minarənin kədəri

Bayramdan məktub gəldiyini anasından eşidən Minarənin qaş-qabağı yenə də açılmamışdı. Pəri nənə də, Bahadır da bunu aydın hiss edirdi. Onlar gecə yatağa uzanandan sonra qaranlıq daxmanın qəmgin sükutu içində Minarənin tez-tez köksünü ötürməyindən, dumanlı şəkildə olsa da, bəzi şeylər duymağa başlayan Pəri nənə, Bahadırın yuxuladığını yəqin edib, qızından ərinin kefini-əhvalını soruşanda, Minarə bir

xeyli dinmədi; anası səsini eşitməsin deyə hıcqırmamağa çalışdı. Amma bu dəqiqə onun bütün varlığı elə bil kədər və qüssədən yoğrulmuşdu. Ağlamaqdan gözləri acışır, başı ağrıyırdı. Dərdini açıb anasına söyləməkdə də çətinlik çəkirdi. Pəri nənə isə yorğan-döşəyinə qor dolmuş kimi yerindən o yan bu yana çevrildi, qızının nə səbəbə belə qəmgin olduğunu öyrənməmiş gözünə yuxu getməyəcəyini bilirdi. (M.Hüseyn)

# Atalar sözləri

Qəm də, sevinc də əkizdir. Sözü düz olanın özü də düz olar. Allaha ağ olan ailəsinə də ağ olar. Qızıl palçıqda da parıldar. Sürfədə əlini saxla, məclisdə dilini. Toyda oynamaz, vayda ağlamaz. Qonşuda bişər, bizə də düşər. Sərtlik olan yerdə pərtlik də olar, tərslik də. Dövlətdə dəvə, övladda nəvə. Kölgədə bitən ağacın meyvəsi olmaz. Özü yeməz, özgəyə də verməz. Ev-eşiyini  sevməyən obasını da sevməz. Armudun yaxşısını meşədə ayı yeyər.

# Verilmiş mətnlərin davam etdirilməsi

## Nümunə

**№3. Axşamdan başlayan güclü yağış kəsmək bilmirdi.** Tez-tez şimşək çaxır, ildırım ətrafı işıqlandırıırdı. Səlim balaca bacıları ilə pəncərə qabağında oturub yağışa baxır, hələ işdən evə dönməyən atasını düşünürdü. Atası Mərdan əmi dənizdə – Neft daşlarında işləyirdi. Neftçi idi. Bu cür havalar dəniz neftçiləri üçün çox əlverişsiz və təhlükəli idi. Səlimə xala isə uşaqları qorxutmaq istəməsə də, fikri Mərdanın yanında qalmışdı. Hey Allaha dua edirdi. Tufanın dayanmasını, ərindən bir xəbər çıxmasını çox istəyirdi.

Bir neçə saatdan sonra külək yavaş-yavaş zəiflədi, yağış dayandı. Lakin ailənin narahatlığı davam edirdi. Balaca Nərgiz anasının qucağında yuxuya getmişdi. Elə bu vaxt telefon səsləndi. Səlim anasının üzünə baxa-baxa dəstəyi götürdü. Dəstəyin o biri başından atasının yorğun səsini eşitdi. Sevincdən gözlərindən yaş axdı.

***

1. Bir dəfə Adil dostları ilə meşəyə getdi…
2. Qaranlıq bir qış gecəsi idi…
3. Axşamdan başlayan güclü yağış kəsmək bilmirdi…
4. Səhər yuxudan durub pəncərədən baxanda hər tərəf ağappaq idi, lopa-lopa qar yağırdı… Belə bir gündə…

5. Atam neft mədənlərində işləyirdi…

6. Mən Kamillə uşaqlıqdan birgə böyümüşdüm. Çox mehriban dost idik. Lakin bir dəfə…

7. Uşaqlar balıq tutmağa gedirdilər. Balaca Əli də onlara qoşuldu. Lakin gölün sahilinə çatanda…

8. Pambıq yığımı başlamışdı. Məktəbli uşaqlar da pambıqçılara kömək etmək qərarına gəldilər…

9. Balaca Əhməd və Əli evdə tək idilər. Anaları onları qoyub dükana getmişdi. Qayıdanda gözlərinə inanmadı…

10. Leyla qardaşı Səlimlə dərsdən qayıdırdı. Yolda bir qocanın yolu keçmək istədiyini gördülər. Maşınlar şütüyürdü. Qoca çaşıb qalmışdı…

11. Biz hava qaralmamış kəndə çatmaq istəyirdik. Lakin…

12. Biz X sinifdə oxuyanda müəllimimiz bizi yaxınlıqda yerləşən "Xalça" zavoduna gəzintiyə apardı. Biz orada…

13. Anam müəllimə idi. Biz dəfə məni də özü ilə məktəbə aparmışdı. Mən anamın dərs dediyi 3-cü sinfin dərs otaındanda "Ana dili" dərsində iştirak etdim və…

# Cümlələri II dərəcəli üzvlərlə genişləndirin

## Nümunə

Artıq iki gün idi ki, güclü külək əsir, şiddətli yağış yağırdı.

1. Yağış yağırdı.
2. Mən gəldim.
3. Sevinc qarşıladı.
4. Arif gördü.
5. Mən sevindim.
6. Biz qərara aldıq.
7. Gün çıxdı.
8. Şənlik başladı.
9. Bizi qarşıladılar.
10. Gülşən baxdı.
11. O işləyir.
12. Qız dedi.
13. Müəllim tapşırdı.
14. Əsgər vurdu.
15. Müğənni oxudu.
16. Pərdələr açıldı.
17. İşıqlar yandırıldı.
18. Biz gördük.
19. Maşın yaxınlaşdı.
20. Təyyarə endi.
21. Tufan başladı.
22. Biz qalib gəldik.
23. Ana sevinirdi.
24. Yaz gəldi.
25. Çox hazırlaşdı və...

26. Ağaclar çiçəkləyir.
27. Kitab maraqlıdır.
28. Mən oxuyuram.
29. Əsgərlər qoruyurlar.

# ƏMƏLİ YAZI NÜMUNƏLƏRİ

# BƏZİ İŞGÜZAR SƏNƏDLƏRİN TƏRTİBİ

## ƏRİZƏ

Ərizə, ərəbcə ərz sözündən olub, müraciət, ərz, xahiş mənalarını bildirir. Ərizə yazarkən başlıq hissə (yuxarı sağ tərəfdə), kimə və kimdən yazılması dəqiq olmalıdır. Vərəqin orta hissəsində «ərizə» sözü yazılır, altında abzasdan ərizənin məzmunu, xahiş olunan məsələ qısa, konkret şəkildə ifadə edilir. Ondan aşağıda sağda ərizəçinin imzası qoyulur və tarix qeyd edilir

**Nümunə:**

Gəncə şəhəri 2 № saylı məktəbin direktoru A.Məmmədova XI sinif şagirdi Leyla İsayevadan

**Ərizə**

Səhhətimlə bağlı mənə bu gün dərsdən icazə verməyinizi xahiş edirəm.

İmza: (L.İsayeva)
20. XI.2012

# TƏRCÜMEYİ-HAL

Tərcümeyi-hal şəxsin özü haqqında verdiyi ətraflı, dəqiq yazılı məlumatdır. İşə, ali məktəbə qəbul olarkən, vəzifəyə təyin olunarkən və s. insanlardan tələb olunur.

Tərcümeyi-halda şəxsin doğum tarixi, yeri, təhsili, qazandığı nailiyyətlər haqqında məlumat verilir. Şəxsin öz əli ilə yazılmalı, sonunda imza qoyulmalı, tarix göstərilməlidir.

**Nümunə:**

## TƏRCÜMEYİ-HAL

Mən Salmanlı Nazim Elxan oğlu, 1985-ci ildə Sumqayıtda anadan olmuşam. 1992-ci ildə orta məktəbə getmiş, 2002-ci ildə oranı bitirib, ADU-nun jurnalistika fakültəsinə daxil olmuşam. İşləmirəm.

Ailələmiz dörd nəfərdən ibarətdir.

Atam Salmanlı Elxan 1955-ci ildə anadan olub, həkimdir.

Anam Salmanlı Mədinə 1960-cı ildə anadan olub, müəllimədir.

Bacım Salmanlı Günel 1996-cı ildə anadan olub, tələbədir.

İmza: (Salmanlı N)
18.04.2012

# XASİYYƏTNAMƏ

Xasiyyətnamə şəxsə mənsub olduğu idarə, təşkilat və ya tələbədirsə, həmin ali məktəb, orta məktəb və s. tərəfindən verilir. Xasiyyətnaməni idarə rəhbəri verir, imza və möhürlə təsdiqlənir.

Xasiyyətnamədə şəxsin ictimai fəaliyyəti, əxlaqi- siyasi keyfiyyətləri əks olunur. Kimə, kimdən və haraya təqdim olunması göstərilir, həcmi 1-2 səhifədən artıq olmur. Xasiyyətnamənin sonunda ən azı iki məsul şəxsin imzası olur.

**Nümunə:**

## XASİYYƏTNAMƏ

Verilir Məmmədova Sənəm Vaqif qızına.

Salmanova Sənəm Vaqif qızı V sinifdən bizim 20 saylı tam orta məktəbdə oxuyur. Mən onun sinif rəhbəriyəm. Burada oxuduğu 5 il ərzində Sənəm özünü çox yaxşı aparmış, bacarıqlı, məsuliyyətli şagird kimi tanınmışdır. Qiymətləri dörd və beşdir. İntizamlı tələbədir. Xarici dillərə marağı güclüdür. Məktəbin divar qəzetinin rəssamıdır. Tənbəl şagirdlər haqqında çəkdiyi karikaturalar hamının diqqət və marağına səbəb olmuşdur. Olimpiadalarda iştirak edir.

Xasiyyətnamə rəsm dərnəyinə təqdim təqdim etmək üçün verilir.

Məktəbin direktoru: Qadirov V
Sinif rəhbəri: Hüseynov A

15.01.2012

# HESABAT

Hesabat ərəb sözüdür, hesab sözünün cəmidir, görülmüş işlərin nəticəsi haqqında yazılı və ya şifahi şəkildə verilən rəsmi məlumatdır.

Hesabatda dəqiq faktlar, rəqəmlər verilir. Yersiz sitatlara, yorucu fikirlərə yer verilmir. Hesabatın əvvəlində şəxsin adı, soyadı, atasının adı yazılır, sonda imza və tarix qeyd olunur.

**Nümunə:**

**Hazırlıq fakültəsinin tələbəsi Ayxan Sevərin illik**

**HESABATI**

Qrupumuzda üç tələbə var. Onların hamısı Türkiyə-nin ayrı-ayrı bölgələrindən gəlmişlər. Bütün tələbələr dərslərə məsuliyyətlə yanaşmış, imtahanlarda uğurlu nəticələr göstərmişlər.

Tələbələrimizdən ikisi – Əhməd, Alpər və Buşra Ağdəmir riyaziyyat olimpiadasında iştirak etmiş və II yerə sahib olmuşlar.

Tez-tez muzeylərə getmiş, təəssüratlarımız haqqında inşa yazılar yazmışıq. Tədbirlərdə iştirak etmiş, iclaslar keçirmişik. Təhsilimizdən çox razıyıq.

İmza: Ayxan S

20.03.2012

# RƏY

Rəy də ərəb sözüdür, fikir, mülahizə mənasındadır. Rəy bir insan haqqında, kitab, əsər, tamaşa, film və s. haqqında ola bilər.

Rəyin əvvəlində kimə, nəyə verilməsi göstərilir. Səhifənin ortasında «rəy» sönü yazılır. Onun altında rəy verilən faktın müsbət və mənfi cəhətləri təhlil olunur, tövsiyələr, təkliflər qeyd olunur. Sonda səhifənin aşağı sağ tərəfində rəyçinin adı, soyadı, imzası verilir, daha sonra tarix göstərilir.

**Nümunə:**

**ADU-nun I kurs tələbəsi Hüseynova Bahar Əli qızının «Rəsul Rzanın yaradıcılığına bir baxış» məqaləsinə**

**RƏY**

Hüseynova Bahar «Müəllim sözü» qəzetində çap olunmaq üçün «R.Rra yaradıcılığına bir baxış» adlı məqalə təqdim etmişdir. Məqalədə böyük şairin həyatı, ictimai-siyasi fəaliyyəti haqqında qısa məlumat verilmiş, əsərlərindən nümunələr göstərilmişdir. Şairin 80 illik yubileyinin keçirildiyi bir vaxtda məqalənin nəşri məqsədəuyğundur.

İmza: V.Aslan

«Müəllim sözü»
qəzetinin redaktoru
20.XI.2012

# PROTOKOL

Protokol yunan sözü olub ilk, birinci vərəq və yapışdırmaq sözlərindən (protok+kolos) düzəlmişdir.

Hər hansı bir iclasda, konfransda çıxışları, qərarı əks etdirmək üçün (yazılı şəkildə) tərtib edilir.

Protokol və onun nömrəsi vərəqin ortasında böyük hərflə yazılır. İclasın keçirildiyi təşkilatın adı və yeri qeyd olunur. İştirak edənlərin sayı göstərilir, sədr və katib seçilir. Gündəlik məsələlər qeyd olunur. «Eşidildi» sözündən sonra müzakirə edilən məsələ qeyd edilir. «Çıxışlar» sözündən sonra isə bir-bir çıxışçıların adı qeyd olunur, çıxışlar öz əksini tapır. Sonda sədr və katib imza edir.

**Nümunə:**

## PROTOKOL №1

2006-cı il aprelin 30-da Gəncə şəhəri 5 saylı məktəbin X sinif şagirdlərinin ümumi iclası keçirildi. İclasda 25 şagirddən 23-ü və sinif rəhbəri Ağayev Vahid iştirak etdi.

**İclasın gündəliyi:**

Şagirdlərdən Əli Məmmədov və Sevinc Qarayevanın Respublika olimpiadasında iştirakı barədə.

**Eşidildi:** Məsələ barədə sinif rəhbəri Ağayev Vahid ətraflı məlumat verdi.

**Çıxışlar:** Şagirdlərdən S.Kərimova, Q.Həsənova və İ.Kərimov çıxış edərək uşaqların məsuliyyətlərini, təqdim edilmiş bütün suallara ətraflı cavablarını qeyd etdilər.

**Qərar:**

1. Ə.Məmmədov və S.Qarayevanın olimpiadada iştirakı barədə hesabat nəzərə alınsın.

2. Şagirdlərin mükafatlandırılması üçün məktəb direktoru qarşısında məsələ qaldırılsın.

| | |
|---|---|
| Sədr: | Ağayev V. |
| Katib: | Şirinov Ş. |

## MƏKTUB

Məktub ən geniş yayılmış əməli yazı növlərindən biridir. Buna görə hər bir şagird, tələbə, hər bir şəxs məktub yazmağı bacarmalıdır. Məktublar adi və dövlət səviyyəli ola bilir və özünəməxsus tərtib edilmə qaydası var.

Məktublar dörd hissədən ibarət olur:

1. Müraciət hissəsi: burada məktubun ünvanlandığı şəxsin adı (bəzən soyadı da) göstərilir və görüşmə etiketlərinə əməl olunur.

2. Ümumi hissə: burada şəxslərin ümumi vəziyyəti haqqında məlumat verilir.

3. Fərqləndirici hissə: Bu hissədə məktub yazanın əsas fikri öz əksini tapmalıdır.

4. Yekunlaşdırıcı hissə: Bu hissədə məktubu yazan məktubu ünvanladığı şəxslə sağollaşır, məktubun yazılma tarixi göstərilir.

Məktub konvertə qoyulur, dəqiq ünvan göstərilir və yola salınır.

**Nümunə:**

## MƏKTUB

Əziz anam! Mən artıq üç aydır ki, Bakıdayam. Tələbə həyatının ilk aylarıdır. Çox çalışırıq. Ən mühüm işimiz Azərbaycan dilini öyrənməkdir. Darıxmağa çox vaxtımız olmur. Lakin dərslərdən sonra, axşamlar doğma Türkiyəm, doğulduğum İzmir, sən, atam və qardaşlarım yadıma düşür. Sizləri görməyi çox istərdim.

Universitetimizdən, müəllimlərdən çox razıyam. Dərslərimiz də çox yaxşıdır. Biz bəzən Bakını gəzir, muzeylərə gedirik. Bayram tətilində sizləri görmək üçün Türkiyəyə gəlməyi planlaşdırıram.

Sizin Mete! 10.03.2012

*Şeir əzbərləyin, çünki şeir dilinizi düzəldir,*
*danışığınızı, nitqinizi gözəlləşdirir.*

***Həzrəti Məhəmməd Peyğəmbər (s.)***

# İFADƏLİ OXU VƏ ƏZBƏR ÜÇÜN MƏTNLƏR

# AZƏRBAYCAN FOLKLORU

## I Bayatılar

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə
Ölməyə vətən yaxşı.

***

Əziziyəm bir də mən,
Doldur içim bir də mən.
Ömür keçdi, gün keçdi
Cavan olmam bir də mən.

***

Əzizim, ay incəli,
Xoş gəldin, ay İncəli.
Dərdini çəkən ölməz,
Günbəgün ay incəli.

***

Əzizim, bala qaçdı,
Çeşmindən bala qaçdı.

Bulud tikən yuvadan,
On iki bala qaçdı.

***

Əzizim, mən dəlidən,
Mən Məcnun, mən dəlidən.
Ay ellər, Leylimə bax,
Küsübdür, mən dəlidən.

***

Əzizim, gül yanağa,
Ağ buxaq, gül yanağa.
Fələk də həsrət qoydu,
Yar deyə, gül yanağa.

***

Mən aşıq, duran ada,
Axan su, duran ada.
Sənə qurban, ay nənə
Yanında durana da.

***

Eləmi, ya saraylar,
Ürəyim yaz haraylar.

Üstümə hücum çəkdi
Pis günlər, yassar aylar.

***

Əzizinəm, qaş-daşı,
Xançalıyın qaş-daşı.
Ərəbin üzün görmə
Taladı, o, qaş-daşı.

***

Əzizim, dam arzular,
El köçüb, dam arzular.
Dur sallan, sərv qamətlim,
Qoy baxsın tamarzılar.

***

Əzizinəm, yüz dərdim,
Dərmansızdı yüz dərdim.
Ərəb gəldi, öc oldu
Birkən, artdı yüz dərdim.

***

Əzizinəm, yar dağı,
Külüng ilə yar dağı.
Getməz candan acısı,
İllaha ki, yar dağı.

***

Mən aşiqəm, ay üzünə,
Bulud gələr ay üzünə.
Bivəfa yarıma bax,
Niqab çəkib ay üzünə.

***

Əzizim, bala dağı,
Bağ dağı, bala dağı.
Hər dərddən betər olar,
Anaya bala dağı.

***

Əzizim, Kərəm bağlar.
Qapımı kərəm bağlar.
Ruzigar belə getsə,
Ürəyim vərəm bağlar.

***

Əzizim, yolum budur,
Dərd budur, zülüm budur.
Mən ağlaram, yad gülər,
Ölümlü günüm budur.

***

Əziziyəm, al götür.
Sac üstündən çal götür.
Bişdi, bişməz olaydı,
Acı sözdən bal götür.

***

Əziziyəm sev, bəslə,
Körpə ikən sev, bəslə.
Evlənsə ayrı olsun,
Hərdən süfrəyə səslə.

***

Əzizim, bahar olsun,
Qış keçsin, bahar olsun.
Hər evdə, hər ocaqda
Şam olsun, nahar olsun.

## AZƏRBAYCAN ATALAR SÖZLƏRİ

Vətənə gəldim, imana gəldim.

Gözsüz yaşamaq olar, vətənsiz yox.

El igidləri ilə tanınar.

Eli olmayanın dili də olmaz.

Birlik harada, dirilik orada.

Güc birlikdədir.

Qələm yazanı qılınc poza bilməz.

Yüz ölç, bir biç.

İşləməyən dəmir pas atar.

Haqq söz axan suları saxlar.

Ağıl yaşda deyil, başdadır.

Ağıllı düşmən nadan dostdan yaxşıdır.

Arifə bir işarə kifayətdir.

Bilməmək eyib deyil, soruşmamaq eyibdir.

Elmsiz adam meyvəsiz ağac kimidir.

Sürüdən ayrılan qoyunu qurd yeyər.

Cahil ilə bal yemə, aqil ilə daş daşı.

Çıraq dibinə işıq salmaz.

Tamahkarı yalançı aldadar.

Dost dar gündə tanınar.

Yalan ayaq tutar yeriməz.

Yalançının evi yandı, heç kəs inanmadı.

Xain xoflu olar.

Yol böyüyün, su kiçiyindir.

Böyüksüz evdə xeyir-bərəkət olmaz.

Uşağı buyur, dalınca yüyür.

Dost başa baxar, düşmən ayağa.

Yaman günün ömrü az olar.

Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir.

Yaxşılıq elə at dəryaya, balıq bilməsə də, xaliq bilər.

Dəmiri nəm çürüdər, insanı qəm.

Sonrakı peşmançılıq fayda verməz.

Cəfa çəkməsən, səfa görməzsən.

İş insanın cövhəridir.

Artıq tamah baş yarar.

Acıqlı başda ağıl olmaz.

# Koroğlu daşı

Deyirlər ki, Koroğlu hara gedir getsin, Çənlibeldən özü ilə bir daş apararmış. Yatanda başının altına qoyarmış. Bu daş Koroğlunun həyanı, vətən daşı, yoldaşı olarmış.

Bundan başqa Koroğlu dəliləri bir yerə göndərəndə özü gizlənərmiş, amma harada olduğunu bu daşla bildirərmiş. Dəlilər üstü nişanlı olan bu daşı yaxşı tanıyarmışlar.

Deyilənə görə, Koroğlu öz dəliləri ilə Zəngəzur dağlarına ova çıxır. Hərə bir tərəfə dağılır, hamı bir-birindən aralı düşür. Koroğlu dəliləri bir yerə yığmaq üçün Çənlibel daşını Zəngəzur dağının arasından keçən yola qoyur. Bunu görən dəlilər bir yerə toplaşırlar.

Koroğlu daşı yerindən tərpətmir. Deyir: – Qoy bu daş bizdən yadigar qalsın.

O vaxtdan bu daşa «Koroğlu daşı» deyirlər.

# Ağca qala

Bu qala Şəkinin Aydın bulaq kəndi yaxınlığındadır. Aşağı Daşağıl kəndi isə qalanın gündoğan tərəfindədir.

Bu möhtəşəm qala Ağca adlı bir qəhrəman qızın sifarişi ilə tikilibdir. Əfsanəyə görə, Ağca elin gözəl və cə-

sur bir qızı olubdur. Yaşlı bir xan qıza aşiq olur. Qız sifariş göndərir:

– Xan bir dağın başında möhtəşəm bir qala tikdirsin. Məni və elin qırx gözəl qızını o qalaya köçürsün, bir neçə müddət oxutdursun, ədəb-ərkandan dərs alaq.

Bu təklif xanın çox xoşuna gəlir. Çay daşından möhkəm bir qala tikdirir. Ağcanı və daha qırx qızı ora köçürdür. Molla seçib göndərir ki, bu qızlara dərs desin.

Xan çox zülmkar adam imiş. Xalq ağır vergilər altında inləyirmiş. Qızların da xana nifrəti varmış.

Bir gün xan qalaya gəlir. Ağca qala bürcünə çıxıb deyir:

– Xan, düşmənlərindən qorunmaq üçün bizə silah ver, qılınc oynatmaq, tüfəng atmaq öyrət. Biz bu ellərə arxa ola bilərik.

Ağcanın bu təklifi də xanın xoşuna gəlir.

Qızlar bir müddət silahları necə işlətməyi öyrənirlər.

Axırda qırx cariyə də başında Ağca üsyana başlayır. Xanın qarşısında tələb qoyur ki, kəndlilərin vergisini azalt, qızlara isə bu qalada tam azadlıq ver. Xan bununla razılaşmır. Qoşun çəkib qalaya hücum edir. Qırx qız və Ağca mərdliklə vuruşurlar. Qala bürcləri dağıdılır. Ağca və qırx qız xanın adamları tərəfindən edam edilir.

Qala da qəhrəman qızın – Ağcanın adı ilə «Ağca qala» adlanır.

## Bülbül və gül

Uzaq keçmişlərdə Gül adlı qənirsiz gözəl bir qız varmış. Yer övladından bir kimsənə onun könlünə yol tapa bilməzmiş. Sən demə, Gülün ürəyində eşq odu donubmuş. Sevdanın istisi, məhəbbətin günəşi Gülün könül otağına boylana bilməzmiş. Odur ki, ay kimi camalın şöləsinə aldananlar buz kimi ürəyin soyuğundan üşüyüb qaçarlarmış.

Günlərin birində qonşu oymağın adlı-sanlı igidi Bülbül Gülün bağçasının yanından keçərkən gözü qıza sataşır. Bir könüldən min könülə ona vurulur. Səhər sevdiyi qız qarşısına çıxanda deyir:

– Ey Gül, mən səni sevirəm! Sənsiz dünya mənim üçün cəhənnəm əzabından başqa bir şey deyil.

Axşam sevdiyi qız qarşısına çıxanda deyir:

– Ey Gül, mən səni sevirəm! Sənsiz dünya mənim üçün cəhənnəm azabından başqa bir şey deyil.

Amma Gül ona məhəl qoymur. Bülbül gündən-günə Gülün xiffətini çəkməkdən saralıb solur. İncəlib sapa dönür. Bülbül çox götür-qoydan sonra dərdinə dava üçün müdrik qocaların məsləhətini dinləyir. Ağzı fal bir ağsaqqal ona deyir:

– Sən dərdini, eşqini sözlə deyirsən. Söz onun buza dönmüş ürəyini isindirməyə qadir deyil. Bu əsarətdən qurtarmaq üçün həqiqi aşiqin odlu-alovlu nəğmələri lazımdır. Ancaq belə nəğmələr buza dönmüş məhəbbəti oyada bilər.

Bülbülün elə əzəldən gözəl səsi varmış. Gülə vurulduqdan sonra səsin yanğısı artır. Müdrik qocanın məsləhətinə qulaq asan Bülbül dərdini bundan sonra sözlə deyil, odlu-alovlu nəğmələrlə Gülə çatdırır. Ürəyin buzu qaynar bulaq kimi çağlayıb üstünə tökülən mahnıların hərarətindən əriyir, məhəbbət tilsimdən xilas olur. Gül

Bülbülün nəğmələrinin mənasını anlayır, öz ürəyini ona verir.

# Göyərçin

Keçmiş əyyamda Şərq ölkələrinin iki qüdrətli şahı arasında düşmənçilik münasibətləri daha da gərginləşir. Gündə bir-birinə hədə-qorxu gəlirlər. Nəhayət, şahın biri o biri ölkənin şahına müharibə elan edib onu təkbətək meydana çağırır. Elçilər müharibənin başlanağacı günü dəqiq müəyyənləşdirirlər. Təcili son hərbi hazırlıq işləri görülür.

Döyüşə çağırılan şah 15 il idi ki, müharibə etmirdi. Odur ki, döyüş papağını əl-ayaqdan uzaq köhnə otaqlardan birinə qoymuşdu. Vuruşmaya bir gün qalmış şah anasından döyüş papağını gətirməsini xahiş edir. Anası gedir, lakin çox çəkmir ki, əliboş qayıdır. Oğlu anasından soruşur:

– Nə üçün papağımı gətirmədin?

Anası oğluna müəmmalı cavab verir:

– Papağı gətirə bilmədim…

– Ana, mən səni başa düşmürəm. Meydanda ölüm-itim olar. Yaxşısı budur ki, döyüş papağımı gətirib qələbə xeyir-duası verəsən.

– Yanılırsan, bala, igid meydanda ölər. Ancaq döyüş papağın o qədər ağır sirli-sehirli idi ki, onu yerindən tərpətməyə gücüm çatmadı.

– Mənim gücüm çatar.

Ana şah oğlunun ayaqlarına döşənir:

– Səni and verirəm halal südümə, papağa dəymə!..

– Anacan, mən şaham! Şah meydanına papaqsız, dəbilqəsiz necə çıxım?

Ana oğlunu inadından döndərmək üçün gördüklərini açmalı olur:

– Bala, sənin döyüş papağının içində indiyədək heç kimə ziyan vurmayan, dünyada ən dinc heyvan olan ağ göyərçin yuva bağlayıb. Özünün də üç dənə ətcə balası var. Biaram özünü çölə vurub balalarını yemləyir. Onları təhlükəsiz bir yerdə boya-başa çatdırmaq istəyir. Mən bu günahsız balalara toxunsam, ağ göyərçin bizdən küsüb gedər, yetim balaların ah-naləsi ölkəmizə bəlalar gətirər. Gəl bu dəfə papağını qoyma.

Bu sözləri eşidən oğlu heç nə demir. Şahlıq tacını ağ göyərçinə tapşırıb başıaçıq düşmənin meydanına çıxır. Döyüşə gələn şah rəqibinin döyüş papağı olmadan döyüşə gəldiyinə təəccüblənir. Bu sirli oyunun səbəbini soruşur. Dəbilqəsiz şah deyir:

– Mənim papağımda ağ göyərçin üç bala çıxardıb. Anam südünə and verdi ki, balalara toxunmayım, insanları yersiz bəlalara düçar etməyim.

Rəqib şah sözə inanmır. Vəzirini göndərir ki, gedib bunun düzgünlüyünü yoxlasın. Bir azdan vəzir qayıdır. Hər şeyin doğru olduğunu söyləyir. Bunu eşidən şah dərin fikirlərə dalır. Əlini düşməninə uzadıb deyir:

– Gəl barışaq, sülh bağlayaq! Sənin anan bir quşun – ağ göyərçinin evini dağıtmaq istəmir. Bəs niyə nahaq qan töküb minlərlə insanların evini dağıdaq.

Onlar sülh bağlayırlar. O gündən ağ göyərçin sülh quşu hesab olunur.

## Hophop

Deyirlər ki, bu quş əvvəllər bir gəlin imiş. Həmin gəlin bir dəfə başını yuyan zaman qayınatası gəlib onu görür. Özünü itirən gəlini həya təri basır, üzünü göyə tutub yalvarır:

– İlahi, sən məni bir quş elə, uçum gedim çöllərə. Bir daha qayınatamın gözünə görünməyim.

Həmin vaxt gəlin quş olur. O uçub qalxır göylərə. Gəlinin iki uşağı varmış. Biri oğlan, biri qız. Oğlunun adı Hophop, qızının adı isə Gültop imiş. O vaxtdan bəri ana övlad həsrəti çəkir və onları təkrar-təkrar öz adları ilə çağırır:

– Hophop, Gültop…

# Kəklik

Deyirlər ki, qədimlərdə çox gözəl, ağıllı və qeyrətli bir qız varmış. Bu qız öz əmisi oğluna adaxlı imiş.

Qızın toy günü çatır. Onun əl-ayağına xına qoyurlar, bir azdan oğlan evinə aparacaqlarmış.

Hamının başı həyət-bacada toy işlərinə qarışır. Qız təkcə evdə oturubmuş. Elə bu zaman çoxdan bəri qızı izləyən, onu ələ keçirməyə can atan dövlətli oğlan öz başının dəstəsi ilə içəri soxulur. Onlar yengənin əl-ayağını, ağzını bağlayıb yerə yıxırlar. Qızı da götürüb dağlara qaçırlar.

Qız nə qədər dartınır, qışqırır, yalvarır ona qulaq asan olmur. Hər yerdən əlacı kəsilən, əli üzülən köməksiz qız üzünü göyə tutub deyir:

Tanrı məni quş elə,
Qanadı gümüş elə.

Eldə rüsvay eləmə,
Dağda günüm xoş elə.
Daşlara yoldaş elə.

Qız bunu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub qayalığa düşür.

Qızın əl-ayağı xınalı olduğu üçün, kəkliyin də ayağı xınalı olur.

## Turac quşu

Bir gün qulluqçu qız xanımın darağını alıb başını darayır. Darağı boxçaya, paltarın arasında taxçaya qoyur.

Aradan xeyli keçir. Xanım başını yuyurmuş, darağı istəyir. Qulluqçu qız darağın yerini unudubmuş.

Nə qədər çalışırsa darağın yerini yadına sala bilmir.

– Xanım, vallah darağın yerini unutmuşam.

Xanım qulluqçu qızdan şübhələnir.

– Darağı oğurlamısan! – deyir.

Qız xəcalətindən tər tökür.

– Xanım, mənim əlim əyri deyil, daraq buralardadır. Hara qoyduğumu yadıma sala bilmirəm.

Xanım hirslənir:

– Onda qonşuya, ya qohuma vermisən.

Qız görür xanımı inandıra bilmir. Əliəyri qulluqçu kimi bu evdə yaşamaq, ya da qovulmaq ona ağır gəlir. Deyir:

– İlahi, xəcalət məni öldürər, ya məni daş elə, ya da quş.

Qız quş olur, Turac quşu.

Qız quş olandan sonra darağın yeri yadına düşür. Bağçaya qonub oxuyur, darağın yerini xanıma bildirir:

Taxçadadır,
boxçadadır.
Boxçadadır,
taxçadadır.

## Qu quşu

Ananın çox da körpə olmayan dörd uşağı var idi. Ana uşaqlarını qayğısız böyüdür, onlara hər cür qulluq edirdi. Günlərin bir günü ana bərk xəstələnir. Ananın hərarəti artır. O, su deyə yanır, ancaq ananın durub su içməyə imkanı olmur. O, böyük övladını çağırır ki, gəlib ona su versin. Uşaq anasına su verməyib oynamağa gedir. Su deyə dili, dodağı yanan ana o biri övladlarını çağırır. Etibarsız, fərsiz övladların heç biri su deyə yanan xəstə anaya su vermir. Bunu görən ana bərk qüssələnir. O belə övladların üzünə baxmaq istəmir. Arzu edir ki, göylər onu bir quşa çevirsin. Zümrüd sulardan içsin, azad göylərdə qanad çalsın.

Ana öz arzusuna çatır, o, bir qu quşu olur. Uçmağa başlayır. Uşaqlar ananı uçan görüb onun dalınca qaçır, ağlayırlar. Ana uşaqlarını istəsə də, onlar üçün ürəyi yansa da uça-uça uzaqlaşmağa başlayır. Uşaqları daşlara, yerə dəyə-dəyə, kola-kosa çırpıla-çırpıla bir müddət ananın dalınca qaçırlar. Lakin artıq gec olur, ana çox uzaqlara uçub gedir. Anadan ümidləri üzülən uşaqlar anasız buz kimi soyuq olmuş evə qayıdırlar. O gündən övladından bir etibar görməmiş qu quşu yuva qurub bala çıxarmır.

Ancaq özgə quşların yuvasında yumurtalayır. Onun balasını da özgə quşlar çıxardıb bəsləyir.

## Xarı-bülbül

Azərbaycanın qədim şəhərlərindən biri olan Şuşada belə bir gül var ki, hamı onun adına xarı-bülbül deyir.

Rəvayətə görə, bir gün bülbül öz sevgilisi gülün görüşünə getmək istədiyi vaxt bərk külək əsir. Küləyin məqsədi gülü bülbülün gözləri qarşısında alçaltmaq imiş.

Külək öz gücünə, qüvvəsinə həddindən artıq inanırmış. O əsəndə, hərəkətə gələndə, aləmi tozanağa bürüyəndə bütün canlılar onun qarşısında əyilərmiş. Müqavimət göstərmək istəyənləri şaxbudaq eləyib yerlə-yeskan edərmiş.

Bir gün külək var qüvvəsilə əsirmiş, nəhəng çinarlar, uca sərvlər, salxım söyüdlər onun qarşısında dönə-dönə əyilirdilər. Yalnız zərif, gözəl, ətirli gül küləyin ağzınlığına, yekəxanalığına tabe olmurdu. Bunu görən külək heyrətə gəldi:

– Ay zərif gül, sən hansı cəsarətlə mənə baş əymirsən? Sən bu gücü hardan alırsan?

Gül inamla cavab verdi:

– Məhəbbətdən! Məhəbbətin gücü yenilməz olur. Sevən vüqarlı olur, o heç kəsə baş əymək istəmir. Mən bülbülü sevirəm. Onun saf məhəbbəti məni baş əyməyə qoymaz.

Baxarıq!.. Sən məhəbbətini sına, mən də gücümü…

Külək bu sözləri deyib kükrədi. Elə bu vaxt bülbül sevgilisi gülün görüşünə gedirdi. Küləyin qəzəbi yerə, göyə sığmırdı. Zərif otlardan tutmuş fil gövdəli ağaclara qədər ona hər şey baş əyirdi. Gül isə onun zorakılığı qarşısında əyilmir. Artıq gül son qüvvəsini toplayırdı. Onun müqaviməti tükənməyə başlayırdı. Çünki o tək qalmışdı. Əgər bülbül yanında olsaydı…

Gül bir yarpaq əyildi. Külək qələbəsindən sevinərək daha bərkdən uğuldadı. Bir az da keçəcək, külək gülü öz gücü qarşısında iki qat edəcəkdi. Bülbül özünü vaxtında gülün harayına çatdırır. O, sinəsini yavaş-yavaş əyilən gülün köksünə söykəyir. Külək daha da hiddətlənir. Bülbül gülün azacıq əyilən qamətini düzəldir. Ancaq gülün xarı (yəni tikanı) onun sinəsinə sancılır. Bülbül məhv olur, bir addım geri çəkilib gülü əyilməyə qoymur. Elə həmin vaxtdan özünü məhəbbəti uğrunda fəda edən bülbülün adı xarı-bülbül qalır. Gül xarı-bülbül görkəmində güllər açır. Həmin xarı-bülbül gülü heç bir qızılgül koluna və gülünə bənzəmir.

## Bülbül və qaratikan kolu

Bir xan qəfəsdə bir bülbül saxlayarmış. Bülbül üçün hər cür şərait yaradılmışdı. Hər cür güldən onun qəfəsinin ətrafında varmış. Ancaq o, bahar fəslinin gəlməsinə baxmayaraq, bir dəfə də gözəl səsi ilə oxumurmuş. Elə məyus-məyus durub baxırmış.

Xan deyir, mən onu o cür bəsləyirəm, yenə oxumur. Buraxın onu, çıxıb getsin. Ancaq izləyin, görün hara gedir. Xanın adamları görürlər ki, bülbül uça-uça qaratikan kolunun üstündə qurumuş bir bülbül yuvasının yanına

qonur və «vətənə gəldim, imana gəldim» deyərək cəh-cəh vurmağa başlayır.

Bütün bunları xana çatdırırlar. Xan öz-özünə fikirləşir. Mən ona o cür baxırdım, bütün bunlar, qaratikan kolunun yanında heç nə imiş.

***

# DİL

Qədim Yunanıstanın tanınmış təmsilçisi Ezop filosof Ksanfın köləsi olmuşdur. Günlərin bir günündə Ksanf dostlarını qonaq çağırmaq fikrinə düşür. O, Ezopa ən yaxşı bir şeydən xörək bişirməyi əmr edir. Nahar vaxtı süfrəyə ancaq dil xörəkləri gətirildiyini görən Ksanf təəccüblənir və Ezopdan bunun səbəbini soruşur. Ezop cavab verir: «Sən əmr etmişdin ki, ən yaxşı şeydən xörək hazırlayım. Dünyada dildən yaxşı nə ola bilər? Dilin köməyi ilə şəərlər salınır, xalqın mədəniyyəti inkişaf edir. Dilin köməyi ilə biz biliklərə yiyələnirik. İnsanlar fikirlərini bir-birlərinə dil vasiətsi ilə başa salırlar və dilin köməyindən istifadə edirlər». Ezopun bu ağıllı sözləri Ksanfın da, qonaqların da xoşuna gəlir.

Bu əhvalatdan bir neçə gün sonra Ksanf yenə öz dostlarını nahara dəvət edir. Bu dəfə o, Ezopa tapşırır ki, ən pis şeydən dadlı xörəklər hazırlasın. Ezop yenə də bazardan dil alır.

Nahar vaxtı Ksanf və dostları süfrəyə gətirilən xörəkləri görüb təəccüblə Ezopa baxırlar. Ezop üzünü Ksanfa tutaraq deyir: «Sən mənə tapşırmışdın ki, nahar üçün ən pis şeydən xörək hazırlayım. Dünyada dildən də pis şey varmı? Dil bəzilərinə peşmançılıq gətirir. Bəzilərini ikiüzlülüyə, yalan danışmağa, hiyləgərliyə yuvarlayır. Dil adamları bir-birinə düşmən edə bilir. Məgər dildən pis ikinci bir şey tapılarmı?».

Ezopun bu mənalı və həqiqətə uyğun sözlərini eşidən qonaqlardan bəziləri çox məyus olurlar.

# NİZAMİ GƏNCƏVİ

*(1141-1209)*



Şərq ədəbiyyatında ilk «Xəmsə» müəllifidir.

N.Gəncəvi 1141-ci ildə Gəncədə anadan olmuşdur. Əsl adı İlyas Yusif oğludur. Bütün ömrü boyu Gəncədən ayrılmamış, burada mədrəsə təhsili almış, ərəb və fars dillərini dərindən öyrənmiş, tarix, fəlsəfə, hüquq, məntiq, coğrafiya, astronomiya ilə tanış olmuş, mətnşünaslıq və rəssamlığı yaxşı bilmişdir. Yaradıcılığa lirik şeirlər, qəzəllərlə başlasa da, Xəmsəyə daxil olan beş poeması ilə tanınmışdır. Həmin poemalar aşağıdakılardır:

1. «Sirlər xəzinəsi» (1174-75).
2. «Xosrov və Şirin» (1181).
3. «Leyli və Məcnun» (1188).
4. «Yeddi gözəl» (1197).
5. «İsgəndərnamə» (1203-1205).

Nizami Gəncəvi öz yaradıcılığı ilə dünya ədəbiyyatının inkişafına təsir göstərmişdir. Şeyx Nizaminin hər kəlməsi aforizmdir:

1. Peyğəmbərlərdən sonra şairlər gəlir.
2. Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.

3. Hər uca rütbədən bilinir fəqət,
Alimin rütbəsi ucadır əlbət.

4. Əlində yumşalsa dəmir onu bil,
Tədbirlə yumşalar, hiddətlə deyil.

5. Varkən sağlıq əldə, cavanlıq əldə
Sənindir hər murad hər xoş əməl də.

6. Ömrünü boş yerə vermə əlindən
Ötən gün qayıtmır yaxşı anla sən.

7. Çatacaq kamına istedadlılar,
İşləri iş bilən aparsa əgər.

8. İnsana arxadır onun kamalı
Ağıldır hər kəsin dövləti-malı.

9. Səbr etməklə kişi zindandan çıxar,
Səbr ilə açılar bağlı qapılar.

10. Səbri, hövsələni unudan insan,
Ağıldan, şüurdan açmasın dastan.

11. Xəzinə kəşf etmək istəsən əgər,
Hər bir çətinliyə tab et, sinə gər.

12. Yüz ulduz yansa da göylərdə, inan
Bir günə baş əymək xoşdur onlardan.

13. Göydə parlasa da nə qədər ulduz
Günəşdir nur verən aləmə yalnız.

14. Mədənlə dolsa da hər bir xəzinə
Hər kiçik zərrəsi dərmandır yenə.

15. Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

16. Ağzına qıfıl vur yandır sözünü,
Boş-boş söyləməkdən saxla özünü.

17. Şir kimi hücum et, şirə rast gəlsən
İt görən zamanda gəl baş qoşma sən.

18. Böyüklə vuruşda insan ad alar
Alçaqla vuruşda özü alçalar.

19. İradəsiz olma, iradəsizlər
Ayaqsız qurd kimi yerdə sürünər.

20. Sözün də su kimi lətafəti var
Hər sözü az desən daha xoş olar
Bir inci saflığı varsa da suda
Artıq içiləndə dərd verir o da
İncitək sözlər seç, az danış, az din
Qoy az sözlərinlə dünya bəzənsin.

21. Ürəyi oxşayan bir dəstə çiçək
Yüz xırman otundan yaxşıdır gerçək.

22. Az sözün incitək mənası solmaz
Çox sözün kərpic tək qiyməti olmaz.

23. İnsan yem dalınca qaçmasın gərək
Quşdan ayıq olsun, zirəkdən zirək.

Nizaminin 800 ilik yubileyi (1941-ci ildə) YUNESKO xətti ilə dünya miqyasında qeyd edilmişdir.

Şair 1209-cu ildə Gəncədə vəfat etmişdir. Hazırda Azərbaycanın hər yerində şairin 870 illiyi ilə əlaqədar yubiley tədbirləri keçirilir.

## «Xeyir və şər»

*(«Yeddi gözəl» poemasından ixtisarlar)*

Çin qızı söylədi: - İki növcavan,
Başqa bir şəhərə oldular rəvan.
Gəncin biri Xeyir, birisi Şərdi,
Onlar adları tək işlər görərdi.
Bir-iki gün gedib mənzil aşdılar,
Yanlarında olan azuqə ki, var,
Şər saxlayır, Xeyir yeyib, içirdi,
O əkir, bu isə buğda biçirdi.
Gedirdi yanaşı cavanlar belə,
Birdən yetişdilər isti bir çölə.
Bu çöl təndir kimi bir odlu yerdi,
İstisi dəmiri mum eyləyirdi.
Şər yaxşı bilirdi, yolu uzaqdır,
Susuz xarabadır, xeyli quraqdır.
Xəlvəti məşkinə su doldurub Şər,
Dürr kimi gizlədi, vermədən xəbər.
Xeyir: - Yəqin, yolda su var – deyirdi,
Hər tərəf susuzdu, o bilməyirdi.

Yeddi gün getdilər qızğın çöl boyu,
Qurtardı zavalı Xeyirin suyu.
İçirdi Şər, susuz yanıb da, ancaq,
Xeyir dinməyirdi, tikmişdi dodaq.
Nəhayət, ciyəri qurudu, yandı,
Endi kirpikləri, gözü qapandı.
Yanında od rəngli cüt ləli vardı,
Suyu daşda idi, sanma axardı.
Açdı sulu ləli göstərib Şərə,
Qoydu qabağında əlbəəl yerə.
Dedi ki: «Yanğıdan öldüm, kömək et,
Söndür atəşimi… yandım… mərhəmət…
Bir içim saf su ver, imdadıma çat,
Ya mərdlik ucundan bağışla, ya sat,
Bu qoşa gövhəri öz suyuna sal,
Su ver, gövhərimin bir qeydinə qal».
Tanrı qəzəbinə gəlmiş zalım Şər
Gördü adı kimi yaramaz işlər.
«Bu daşdan, - dedi ki: - yonma gəl bulaq,
Mümkünmü dünyada məni tovlamaq?
Viranədə gövhər verirsən mənə
Ki, abad şəhərdə alasan yenə?..
İstəyirəm elə bir gövhərki səndən,
Ala bilməyəsən geriyə məndən».
Xeyir dedi: «Nədir o, söylə görək?
İstədiyin dürrü tapıb da verək».
Şər dedi: «O gövhər ikicə gözdür,
Bu, ondan, o, bundan daha əzizdir.
Gözünü satmasan, bunu yaxşı bil,
Bu sudan içməyin heç mümkün deyil».
Xeyir bu rəftara qaldı xeyli mat,

Su üçün göz suyu axıtdı, heyrat.
Gördü ki, öləcək, əldən gedir can,
Xilas olmayacaq can yanğısından.
Dedi: «Bıçaq gətir, xəncər gətir, gəl,
Su ver içim ömrə qımayadan əcəl.
Bu halı görüncə siyirib xəncər,
Quş kimi şığıdı Xeyirin üstə Şər.
Xəncəri çırağa çaldı, qanmadı,
Çırağı söndürdü, qəlbi yanmadı.
Ömrünü yazığın salıb zavala
Su dəxi verməyib düzəldi yola.
Bütün şeylərini, ləlini soydu.
Koru təkbaşına səhrada qoydu.
…Bir kürd vardı mallı, pulu, kefi çağ,
Qurdun balasından sürüsü uzaq.
Ot, ələf dalınca düşərdi çölə,
Sürü otarardı hər zaman belə.
Otlağın otları yetincə sona,
Sürünü çəkərdi başqa bir yana.
Qəzadan, iki gün vardı o yerə
Pəncə uzatmışdı bənzəyib şirə,
Onun türk baxışlı, xoş hindu xallı
Bir qızı vardı ki, xeyli kamallı.
Evdə bəslənilib çatmışdı boya
Balıqtək meyl etdi o gözəl suya.
Yolun kənarında bir çeşmə vardı,
Soyuqdu, el suyu ordan alardı.
Qız o şirin sudan gəlib doldurdu,
Sonra evlərinə getməyə durdu.
Birdən qulağına gəldi uzaqdan,
Yaralı xəstədən qopan ah, fəğan.

Eşidib o yana qız tez yüyürdü,
Gəlib qan içində bir gənci gördü.
Dedi: «Vay halına, söylə görüm sən,
Qanlar içindəsən nə üçün, nədən?»
O dedi: «Ey mələk, de görüm ki, sən,
Pərizadəmisən, ya mələkmisən?
İşim çox qəribə oyundur heyhat,
Uzundur başıma gələn əhvalat.

***

(Ey Şər)
Ona su verməyib çıxdın da getdin.
Aldın göz gövhəri, kəmər gövhəri,
Apardın onları, yandı ciyəri.
Bil ki, gövhərləri gedən mənəm, mən!
Sənin bəxtin öldü, mənimkidir şən.
Mənim taleyimə Allah oldu yar,
İqbalım eylədi məni tacidar.
Kəsildi bəxtinin tanrı pənahı,
İndi bu yerlərin şahıyam, şahı!
Vay sənin halına, yamandır zatın,
Qurtarmaz əlimdən artıq həyatın».
Şər Xeyiri tanıdı və birdən-birə,
Özünü götürüb çırparaq yerə,
Söylədi: «Gördüyüm işlər yamandır,
Pis əməllərimə baxma, amandır.
Başımız üstündə dönən fələklər,
Sənə Xeyir demiş, mənə isə Şər.
Nələr eylədimsə o zaman sənə,
Bütün eylədiyim yaraşır mənə.
Nələr bacarırsan, mənə, durma, et,

Et, ancaq özünə, adına nisbət».
Xeyir bu nöqtəni eyləyincə yad,
Tez onu ölümdən eylədi azad.
Elə ki, qılıncdan Şər azad oldu,
Uçdu yol uzunu, qəlbi şad oldu.
Qəzəbli kürd isə dalınca getdi,
Vurdu qılınc ilə tez həlak etdi.
Xeyir düşündüsə xeyirli işlər,
«Şərsən, - dedi, - çıxar qabağına şər».

# YUNUS ƏMRƏ

*(1228-1320)*



Yunus Əmrə Porsuq çayının Sakarya çayına töküldüyü yerdə – Sərfi kəndində 1238-ci ildə doğulmuşdur. Mədrəsə təhsili görmüş, Tapdıq Əmrə adında şeyxə şəyirdlik etmişdir. Mövlana Cəlaləddin Ruminin məclislərinin iştirakçısı olmuşdur. Anadolunun bir çox kəndlərini gəzmiş, Azərbaycana və Şama da səfər etmişdir. Yunus Əmrə Qax rayonunun Oncallı kəndindəki oğuz qəbiristanlığında dəfn olunmuşdur. Hər il may ayında Türkiyənin ən gözəl şəhərlərindən olan Əskişəhərdə Yunus Əmrə günləri keçirilir.

Yunus Əmrənin özü və yaradıcılığı haqqında bir çox əsərlər yazılıb. Bunlardan "Yunus Əmrə, Həyatı, sənəti və şerləri" (Əbdülbakı Cəlpinarlı, 1952-ci il) "Yunus Əmrə və Tasavvur" (Əbdülbakı Cəlpinarlı, 1961-ci il), "Dərdli dolab və Yunus Əmrənin həyat hekayəsi" (Nəzihə Araz, 1961-ci il), "Anadolunun iç aydınlığı, Yunus Əmrə" (Köyxan Övliya oğlu, 1963) və s. adını qeyd etmək olar.

Türk şairi Yunis Əmrə 1320-ci ildə vəfat etmişdir.

## SALAM OLSUN

Biz dünyadan gedər olduq
Qalanlara səlam olsun.
Bizim üçün xeyir-dua
Qılanlara səlam olsun.

Əcəl bükə belimizi
Söylətməyə dilimizi
Xəstə ikən halımızı
Soranlara səlam olsun.

Tənim ortaya açıla
Yaxasız kömlək biçilə
Bizi bir asan vəch ilə
Yuyanlara səlam olsun.

Kimsə durmaz qəsdimizə
Gedər olduq dostumuza
Namaz üçün üstümüzə
Duranlara səlam olsun.

Bu qaydadı, gələn gedər,
Əcəl ki var bizi güdər.
Bizim halımızdan xəbər
Soranlara salam olsun!

Dərviş Yunus söylər sözü
Yaş dolmuşdur iki gözü
Bilməyən nə bilsin bizi
Bilənlərə səlam olsun.

## İMADƏDDİN NƏSİMİ

*(1369-1417)*



Anadilli poeziyamızda fəlsəfi-lirik şeirin banisi, hürufiliyin ilk mücahidlərindən biri olmuşdur.

Nəsimi 1369-cu ildə Şamaxıda doğulmuş, mükəmməl mədrəsə təhsili almış, dini və dünyəvi elmləri, Yaxın və Orta Şərq poeziyasını dərindən öyrənmişdir.

Hürufiliyi təbliğ etdiyinə görə doğma vətənində təqib edilmiş, Türkiyəyə – Anadoluya, sonra isə Hələbə getmiş və 1417-ci ildə Hələbdə edam edilmişdir.

## AYRILIR

Ey müsəlmanlar, məndən ol, yari-pünhan ayrılır,
Ağlamayım neyləyim, çün gövdədən can ayrılır.

Ey sənəm, hicran əlində naleyi-zar eylərəm,
Gözlərimdən sanasan dəryayi-ümman ayrılır.

Ol səbəbdəndir ki, mən bimarü rəncur olmuşam,
Xəstə könlüm məlhəmi şol dərdə dərman ayrılır.

Rəngi-çöhrəm zərd olubdur, qamətim həm çün hilal,
Ol günəş üzlü həbibim, ləli xəndan ayrılır.

Taqətim, səbrim tükəndi, yarsız mən neylərəm?
Əqlimi şeyda qılan ol çeşmi fəttan ayrılır.

Məhşəri-yovmül-hesab qopdu qiyamət başıma,
Ey Yusif surətli, məndən piri-Kənan ayrılır.

Ey cigərsuz nari-firqətdən Nəsimi çarə nə?
Hər kimə "nəhnü qəsəmna" çün əzəldən ayrılır.

## MƏNDƏ SIĞAR İKİ CAHAN

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.

Ərşlə fərşu kafü nun məndə bulundu cümlə çün,
Kəs sözunü və əbsəm ol, şərhu bəyanə sığmazam.

Kövnü məkandır ayətim, zati dürür bidayətim,
Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam.

Kimsə gümanə zənn ilə olmadı həqq ilə biliş,
Həqqi bilən bilir ki mən, zənnü gümanə sığmazam.

Surətə baxu mənini surət içində tanı kim,
Cism ilə can mənəm, vəli cism ilə canə sığmazam.

Həm sədəfəm, həm inciyəm, həşru sirat əsinciyəm,
Bunca qumaşu təxt ilə mən bu dükanə sığmazam.

Gənci-nihan mənəm mən uş, eyni-əyan mənəm, mən uş,
Gövhəri-kan mənəm mən uş, bəhrəvu kanə sığmazam.

Gərçi mühiti-əzəməm, adım adəmdir, adəməm,
Dar ilə künfəkan mənəm, mən bu məkanə sığmazam.

Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm,
Gör bu lətifeyi ki mən, dəhru zəmanə sığmazam.

Əncum ilə fələk mənəm, vəhy ilə həm mələk mənəm,
Çək dilini və əbsəm ol mən bu lisanə sığmazam.

Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.

Zat iləyəm sifat ilə, qədr iləyəm bərat ilə,
Gülşəkərəm nəbat ilə, bəstə dəhanə sığmazam.

Nar mənəm, şəcər mənəm, ərşə çıxan həcər mənəm,
Gör bu odun zəbanəsin, mən bu zəbanə sığmazam.

Şəms mənəm, qəmər mənəm, şəhd mənəm, şəkər mənəm,
Ruhi-rəvan bağışlaram, ruhi-rəvanə sığmazam.

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,
Bundan uludur ayətim, ayətü şanə sığmazam.

# MƏHƏMMƏD FÜZULİ

*(1494-1556)*



Klassik Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan, lirik və epik əsərləri ilə ədəbiyyatımızı zənginləşdirən M.Füzuli 1494-cü ildə İraqda – Kərbəla şəhərində anadan olmuşdur.

Türk, ərəb və fars dillərində əsərlər yazmış, Azərbaycan və fars dillərində divan yaratmışdır. «Bütün Yaxın Şərqdə dastan dedikdə Firdovsi, rübai dedikdə Xəyyam, əxlaqi-didaktik şeir dedikdə Sədi xatırlandığı kimi, qəzəl dedikdə də hər kəsdən əvvəl Füzuli yada düşür» (Mir Cəlal).

Füzuli Nizaminin «Leyli və Məcnun»unun təsiri ilə Azərbaycan dilində «Leyli və Məcnun» (1536) yaratmışdır. Şairin Azərbaycan, ərəb və fars dillərində yazdığı «Qəsidələr divanı» vardır.

Uzun illər boyu M.Füzulinin «Qəzəllər» divanı və «Leyli və Məcnun» əsəri orta məktəblərdə dərslik kimi istifadə edilmişdir.

M.Füzuli 1556-cı ildə taun xəstəliyindən vəfat etmiş, Kərbəla şəhərində (öz vəsiyyətinə görə) İmam Hüseyn məqbərəsinin astanasında dəfn edilmişdir.

# MƏNİ CANDAN USANDIRDI

Məni candan usandırdı, cəfadan yar usanmazmı
Fələklər yandı ahımdan, muradım şəmi yanmazmı?

Qamu bimarinə canan dəvayi-dərd edər ehsan.
Neçün qılmaz mənə dərman, məni bimar sanmazmı?

Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşan
Desəm, ol bivəfa bilməm, inanarmı inanmazmı?

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmi?

Güli-rüxsarinə qarşı gözümdən qanlı axar su,
Həbibim, fəsli güldür bu, axar sular bulanmazmı?

Deyildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil səni görəcək utanmazmı?

Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmi?

# AŞIQ ƏLƏSGƏR

*(1821-1926)*



Azərbaycan aşıq yaradıcılığının ustad sənətkarlarındandır.

1821-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Aşıqlıq fəaliyyəti ilə Türkiyədə, İranda və Dağıstanda məşhur olmuşdur. 1918-19-cu illərdə doğma vətən torpaqları erməni işğalına məruz qalmış və Ələsgər Kəlbəcərdə, Tərtərdə köçkünlük həyatı yaşamışdır. 1921-ci ildə yenidən Vətənə qayıtmış, 1926-cı ildə isə vəfat etmişdir.

Aşıq şeirinin bir çox janrlarında şeirlər yazmış, dodaqdəyməz təcnis, dildönməz gəraylı növlərini yaratmışdır.

## DAĞLAR

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar!
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar!

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, taləzar olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar!

Yazın bir ayında çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın…
Zənbur çiçəyindən bal alı, dağlar!

Yazın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən cəlalı, dağlar!

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinləməz haramı, halalı dağlar.

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib kefinə dəyməz.
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar!…

# MİRZƏ ƏLƏKBƏR SABİR
*(1864-1911)*



M.Ə.Sabir Azərbaycan ədəbiyyatında yeni tipli satiranın əsasını qoymuşdur. 1862-ci ildə Şamaxıda doğulmuşdur. Mollaxana təhsili almış, sonra Seyid Əzimin dərs dediyi yeni üsullu quberniya məktəbində oxumuş, məktəb illərindən şeirlər yazmış, Sədinin «Gülüstan» əsərinin bir parçasını farscadan Azərbaycan dilinə tərcümə etmişdir. Bakıda və Şamaxıda müəllimlik etmiş, satirik şeirləri ilə məşhurlaşmış, «Molla Nəsrəddin» jurnalı ilə əməkdaşlıq etmişdir.

1911-ci ildə Şamaxıda vəfat etmişdir. Şeirləri kitab şəklində «Hophopnamə» adı ilə dəfələrlə çap edilmişdir.

## ÜRƏFA MARŞI

İntelligentik, gəzərik naz ilə,
Ömr edərik nəşeyi-dəmsaz ilə,
Həftədə bir dilbəri-tənnaz ilə,
Həmdəm olub işləri sahmanlarıq,
Ay bərəkallah, nə gözəl canlarıq!

Xoşlamırıq bir para nadanları
Şiveyi-nisvani-müsəlmanları,

Neyləyirik Fatma-Tükəzbanları?!
Anyaları, Sonyaları yanlarıq,
Ay bərəkallah, nə gözəl canlarıq!

Bir para biəqlü fərasət bizə
Eyləyir isnadi-qəbahət bizə,
Eyləyir etsin də nəsihət bizə,
Bir bunu qanmır ki, biz irfanlarıq,
Ay bərəkallah, nə gözəl canlarıq!

Kimsəyə yox dəxli ki, biz işrəti
Xoşlayırıq, boşlayırıq külfəti.
Güşeyi-qəstinde olan ləzzəti
Xaneyi-viranda haçan anlarıq?!
Ay bərəkallah, nə gözəl canlarıq!

İntelligentik, bu ki, böhtan deyil,
Türki danışmaq bizə şayan deyil,
«Türk dili qabili-irfan deyil»
Biz buna qail olan insanlarıq!
Ay bərəkallah, nə gözəl canlarıq!

Türk qəzeti versə də əqlə ziya,
Mən onu almam əlimə mütləqa
Çünki müsəlmanca qonuşmaq bana
„Eybdir!“ Öz eybimizi anlarıq!
Ay bərəkallah, nə gözəl canlarıq!

Yox işimiz məcməi-islam ilə,
Püxte nasıl söhbət edər xam ilə?
Çünki klublarda sərəncam ilə
Hər gecə bir mətləbi ünvanlarıq

Ay bərəkallah, nə gözəl canlarıq!

# HÜSEYN CAVİD

*(1882-1941)*



Azərbaycanın görkəmli şairi Hüseyn Cavid romantizmin əsas nümayəndələrindən biri, milli romantik şeirin, mənzum faciənin banisi olmuşdur.

Hüseyn Cavid (Gülçin) 1882-ci ildə Naxçıvanda doğulmuş, mollaxana təhsili almış, ərəb, fars dillərini mənimsəmiş, sonra Təbrizdəki «Talıbiyyə» mədrəsəsində təhsilini davam etdirmişdir. Daha sonra İstanbul Universitetində oxumuş, Naxçıvanda müəllim kimi fəaliyyət göstərmişdir.

«Ana» (190); «Şeyx Sənan» (1914); «Uçurum» (1919); «Peyğəmbər» (1923); «Knyaz» (1929); «Səyavuş» (1933); «Xəyyam» (1935); «İblis» (1918) mənzum faciələrinin; «Maral», «Şeyda», «Afət», «Topal Teymur», «İblisin intiqamı» və s. (nəsrlə) faciələrin və bir çox şeirin, poemanın müəllifidir. Ən kamil poeması «Azər» (1926-28) poemasıdır.

Hüseyn Cavid 1937-ci ildə həbs edilib «burjua yazıçısı» kimi Sibirə sürgün edilmiş və 1941-ci ildə elə sürgündə vəfat etmişdir. 1956-cı ildə bəraət almış, Heydər Əliyevin təşəbbüsü ilə cənazəsi 1982-ci ildə Sibirdən gətirilərək Naxçıvanda dəfn edilmişdir.

## Qız məktəbində

- Quzum, yavrum! Adın nədir?
- Gülbahar.
- Pəki, sənin anan, baban varmı?
- Var.
- Nasıl, zənginmidir baban?
- Əvət, zəngin, bəyzadə...
- Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
- Var, əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
- Çox doğru söz... Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylərmisən?
- Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
- Sonra kimlər?
- Sonra onun göndərdiyi elçilər.
- Başqa sevdiklərin nasıl, yoxmu?
- Var.
- Kimdir onlar?
- Anam, babam, müəlliməm, bir də bütün insanlar

# İBLİS

*(İblisin monoloqu)*
*ixtisarla*

Dəryalara hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan,
Sellər kimi axmaqda qızıl qan,
Canlar yaxar, evlər yıxar insan...

***

İblis!.. O böyük ad nə qədər qalibi-heyrət !
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.
Hər kəs məni dinlər, fəqət eylər yenə nifrət,
Hər kəs mənə aciz qul ikən bəslər ədavət.

Mən tərk edərim sizləri əlan, nəmə lazım!
Heçdən gələrək heçliyə olmaqdayam azim.
İblis nədir? - Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir? - İblis...

# MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR

*(1905-1988)*



XX əsr Şərq ədəbiyyatının nadir simalarındandır. Onun adı Sədi Şirazinin, Hafiz Şirazinin adı ilə yanaşı çəkilmiş, «zəmanəsinin Hafizi» adlandırılmışdır.

Şəhriyar 1905-ci ildə Təbrizin Bağmeşə bölgəsində anadan olmuşdur. Əvvəllər «Behcət», sonralar «Şəhriyar» təxəllüsü ilə tanınmışdır. Təbrizin Talıbiyyə mədrəsəsində, Tehran mədrəsəsində, sonra isə Tehran Tibb Universitetində təhsil almış, lakin buranı bitirə bilməmişdir.

İlk şeirlərini mədrəsə illərində Azərbaycan dilində yazmışdır. Əsərləri Azərbaycan və fars dillərindədir. Şimali Azərbaycanda doğma ana dilində yazdığı «Heydərbabaya salam» poeması ilə məşhurlaşmışdır.

Şairin «Haqqın səsi», «Şeir və hikmət», «Gecənin əfsanəsi» və başqa poemaları vardır. «Azərbaycan» qəzəli, «Türkün dili» şeirləri dillər əzbəridir.

## AZƏRBAYCAN

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan!

Səndən uzaq düşşəm də mən,eşqin ilə yaşayıram,
Yaralanmış qəlbim kimi qəlbi viran Azərbaycan!

Övladların nə vaxtadək tərki-Vətən olacaqdır?
Əl-ələ ver! Üsyan eylə! Oyan! Oyan! Azərbaycan!

Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!

Şəhriyarın ürəyi də səninkitək yaralıdır,
Azadlıqdır sənə məlhəm, mənə dərman, Azərbaycan!

## TÜRKÜN DİLİ

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Özgə dilə qatsan, bu əsil dil əsil olmaz.

Öz şeirini farsa, ərəbə qatmasa şair,
Şeiri eşidənlər, oxuyanlar kəsil olmaz.

Pişmiş kimi, şeirin də gərək dad-duzu olsun,
Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz.

Sözlər də cəvahir kimidir, əsli bədəldən
Təşxis verən olsa, bu qədər zir-zibil olmaz.

Şair ola bilməzsən, anan doğmasa şair,
Missən, a balam, hər sarı köynək qızıl olmaz.

Ötməz, oxumaz bülbülü salsan qəfəs içrə,
Dağ-daşda doğulmuş dəli ceyran həmil olmaz.

İnsan odu tutsun bu zəlil xalqın əlindən,
Allahı sevərsən, belə insan zəlil olmaz.

Hərçənd Sərabın südü çox, yağ-balı çoxdur
Baş ərşə də çatdırsa, Sərab Ərdəbil olmaz.

Millət qəmi olsa, bu cocuqlar çöpə dönməz,
Ərbablarımızdan da qarınlar təbil olmaz.

Məndən də nə zalım çıxar, oğlum, nə qisasçı,
Bir dəfə bunu qan ki, ipəkdən qəzil olmaz.

Düz vaxtda dolar taxta-tabaq ədviyyə ilə,
Onda ki, nənəm sancılanar, zəncəfil olmaz.

Fars şairi çox sözlərini bizdən aparmış,
Sabir kimi bir süfrəli şair pəxil olmaz.

Türkün məsəli, folkloru da dünyada təkdir,
Xan yorğanı, kənd içrə məsəldir, mitil olmaz.

Azər qoşunu qeysəri-Rumi əsir etmiş,
Kəsra sözüdü, bir belə tarix nağıl olmaz.

Bu Şəhriyarın təbi kimi çimməli çeşmə,
Kövsər ola bilsə, demirəm, Səlsəbil olmaz.

# SƏMƏD VURĞUN

*(1906-1956)*



Azərbaycan ədəbiyyatında yeni – müasir şeirin banisidir.

S.Vurğun 1906-cı ildə Qazaxda anadan olmuş, ilk təhsilini Qazaxdakı rus-tatar məktəbində almış, sonra Qazax Müəllimlər Seminariyasında oxumuşdur. Qazaxda, Qubada, Gəncədə müəllimlik etmişdir. 1929-cu ildə Moskva Universitetinin dünya ədəbiyyatı fakültəsinə daxil olmuş və Moskva mühiti də onun dünyagörüşünə təsir etmişdir. Azərbaycanda «Xalq şairi» (1956) fəxri adı ilk dəfə Səməd Vurğuna verilmişdir.

1956-cı ildə vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir. Səməd Vurğun bir çox şeirlərin, «Komsomol poeması», «Ölüm kürsüsü», «Qız qayası», «Talıstan», «Üsyan», «Zəncinin arzuları», «Bakının dastanı» və s. poemaların; «Vaqif», «Xanlar», «Fərhad və Şirin», «İnsan» adlı dörd mənzum dramın müəllifidir.

# «VAQİF» DRAMI (1937)

*(Qacarla Vaqifin deyişməsi)*
*(ixtisarla)*

Qacar – Aha, baş əyməyir hüzurumda bu.
Vəzir – Yoxdur vicdanında qanun qorxusu.
Qacar – Şair, hökmdarın hüzurdasan.
Vaqif – Bunu sizsiz belə düşünürəm mən.
Qacar – Bəs, baş əymədiniz.
Vaqif – Əymədim, bəli.
Əyilməz vicdanın böyük heykəli.
Qacar – Qılınclar toqquşub qan tökən zaman.
Neylər dediyiniz quru bir vicdan.
Vaqif – Vicdan dedikləri bir həqiqətdir.
Beşiyi, məzarı əbədiyyətdir.
Qacar – Bəs, zindan necədir? Qaranlıq zindan
Vaqif – Soyuq məzara da zinətdir insan.
Qacar – Yenə göylərdədir şair xəyalın?
Vaqif – Əzəldən hüdudu yoxdur kamalın.
Qacar – Aha… sınayırdım idrakınızı,
Doğurdan bir şair görürəm sizi,
Xoşbəxt xəlq eyləmiş sizi yaradan!
Vaqif – Dünyada qalacaq yalnız yaradan…
– Çox gözəl, çox gözəl, inanın ki, mən
Sizin ruhunuzu sevdim ürəkdən.
Bu dövlət, bu cəlal, bu şanlı saray
Göylərin busatı o ulduz, o ay
Sizə tapşırılsın bu gündən gərək,
Ancaq bir şərtim var.
Vaqif – Buyurun görək!
Qacar – Gərək fars dilində yazsın sənətkar.
Vaqif – Farsın öz qüdrətli şairləri var,

Nə çoxdur onlarda böyük sənətkar.
Bizim bu dağların oğluyam mən də,
Az-az uydururam yeri gələndə.
Qacar – Yaxşı, gəl əl götür bu inadından,
Bu qədər naşükür olmasın insan!
Vaqif – Aldada bilməmiş dünyanın varı
Bir məslək eşqiylə yaradanları!
Mən ellər bağında azad bir quşam,
Mənsəbə, şöhrətə satılmamışam.

## AZƏRBAYCAN
*(ixtisarla)*

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Mən bir uşaq, sən bir ana,
Odur ki bağlıyam sana,
Hankı səmtə, hankı yana
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən!

Fəqət səndən gen düşəndə,
Ayrılıq məndən düşəndə,
Saçlarıma dən düşəndə
Boğar aylar, illər məni,
Qınamasın ellər məni.

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır;
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin.

Düşdün uğursuz dillərə,
Nəhs aylara, nəhs illərə,
Nəsillərdən-nəsillərə
Keçən bir şöhrətin vardır;
Oğlun, qızın bəxtiyardır...

Bir tərəfin bəhri-Xəzər,
Yaşılbaş sonalar gəzər;
Xəyalım dolaşar, gəzər
Gah Muğanı, gah Eldarı.
Mənzil uzaq, ömür yarı!

Ölməz könül, ölməz əsər,
Nizamilər, Füzulilər!
Əlin qələm, sinən dəftər,
De gəlsin hər nəyin vardır,
Deyilən söz yadigardır.

# MİR CƏLAL
*(1908-1978)*



Əsərləri bir çox dünya dillərinə tərcümə edilən, anadan olmasının 100 illiyi YUNESKO xətti ilə dünya miqyasında qeyd edilən Mir Cəlal 1908-ci ildə Cənubi Azərbaycanda anadan olmuşdur. Uşaqkən ailəsi ilə birgə Gəncəyə köçmüş, ilk təhsilini də burada almış, pedaqoji texnikumu bitirdikdən sonra Gəncədə və Gədəbəydə müəllimlik etmişdir. 1930-cu illərdə Kazanda ali təhsil almış ADU-da müəllim, kafedra müdiri vəzifələrində çalışmışdır.

Bədii yaradıcılığa şeirlə başlamış, lakin kiçik hekayələri və romanları ilə məşhurlaşmışdır. Mir Cəlal «Dirilən adam», «Bir gəncin manifesti», «Açıq kitab», «Yaşıdlarım», «Yolumuz hayanadır» və s. romanlarında xalqımızın həyat reallıqlarını təbii, canlı bir şəkildə əks etdirir.

Ədəbiyyatşünas alim kimi Mir Cəlal «Ədəbiyyatşünaslığın əsasları» adlı ali məktəb dərsliyinin, «Füzuli şeirinin poetik xüsusiyyətləri», «Azərbaycanda ədəbi məktəblər» monoqrafiyalarının da müəllifi olmuşdur. Böyük yazıçı, alim, pedaqoq Mir Cəlal 1978-ci ildə Bakıda vəfat etmişdir.

# İCLAS QURUSU
*(Hekayə)*

Əncir qurusu, ərik qurusu, zoğal qurusu-bunlar çox olur, iclas qurusu isə tək-tək olur.

Bir var ki, gün altında quruyan, bir də var ki, iclaslarda quruyan, suyunu çəkən, həyat hisslərini itirən.

İclas qurusunu siz tanıyırsınız. Adını bilməsəniz də, özünü yaxşı tanıyırsınız. Arıq bədənini qabağa əyib dizini bükərək sürətli addımlarla gedən adamı siz küçədə, idarə qapılarında, pilləkənlərdə çox görürsünüz.

O, haraya tələsir. İclasa!

Qoltuğundakı boz, sürtülmüş qovluq, səliqəsiz yığılmış kağız-kuğuzla doludur.

Bunlar nədir. Protokol! O bütün ömrü boyu başı aşağı, dünyadan bixəbər, qaşqabaqlı, sifəti bulud kimi tutulmuş, fikirli gəzir.

Nəyi düşünür. Qərarı!..

İclas qurusu üçün gecənin-gündüzün, yazın-payızın, istinin-soyuğun, yerin-göyün heç bir fərqi, əhəmiyyəti yoxdur. Suların səsindən, çiçəklərin ətrindən, quşların mahnısından, musiqidən, gülüşdən, şənlikdən uzaq olan bu qaradinməz adamı görəndə kimisi heyrət edir, çoxunun da acığı gəlir.

Güman etməyin ki, İclas qurusu ancaq ictimai yerlərdə belədir. Siz düşünürsünüz ki, evinə qayıdıb papağını çıxardanda, arvadı, uşağı ilə görüşəndə İclas qurusunun halı dəyişmiş olur, üzündə işıq, dodağında təbəssüm doğur.

Yox! Səhv edirsiniz! O iradəli, prinsipli, müstəqim adamdır. Onun şəxsi ailə həyatı özü də bir növ iclasdır.

O, bir dəfə qət etmişdir ki, iclas üçün yaranmışıq, başımız qərar hazırlamaq, barmaqlarımız protokol yazmaq, əllərimiz çəpik çalmaq, səsimiz çıxış etmək üçün bizə verilmişdir. Onun fikrincə, bütün kainat da mühüm bir iclasdan sonra yaranmış və imzalanmış bir qərar üstündə dayanır. İnanmırsan, başını qaldır göyə bax-gör neçə milyonlarla ulduzlar sədrlik edən ayın başına toplanmışdır. Min illərdən bəri göydə elə qızğın iclas gedir ki, bəzən gurultusu yerdə qulaqlara düşür.

İclas qurusu arvadı Meyransa ilə belə danışır:

- Yoldaş Meyransa, təklif var ki, mənim corablarımı yuyub qurudasınız!

Meyransa dinməyəndə o ayağa qalxır, qələmin küt uçunu stola döyüb danışır:

- Cavab üçün söz verilir yoldaş Meyransaya!

İclas qurusunun iclaslar, qərarlar, nitqlər içində keçən və asanlıqla keçməyən həyatı neçə dəfə ailədə də silkələnmişdir.

On səkkiz il əvvəl Quru, axşam, iclasdan qayıdanda arvadını evdə görmədi. «Bu hansı iclasdadır kecənin bu vaxtında, -deyə ürəyində fikirləşdi. Çox keçmədi qonşu qadın gəlib Qurunu təbrik etdi:

- Quru qardaş, gözünüz aydın, bir yaxşı qızınız oldu. Meyransa xanım xəstəxanada sizi gözləyir.

Quru, qadına nə muştuluq verdi, nə də cavab. Qəzəb və dəhşət yağan üzü bir az da qaraldı, gözündə ildırımlar oynadı: «Bu nəyə lazımdır. Görəsən bu barədə nə qərar olacaq. Eşidənlər nə deyəcəklər».

Uşağı bələyib evə gətirdilər. Quru, kağızlar aləmindən baş qaldırıb baxmadı da. Meyransa ərindən xahiş etdi ki, bir yaxşı ad tapsın. İclas qurusu məsələni klubda-

iclasda həll etdi. Orada çox ad təklif olundu, ata razı olmadı, öz təklifində təkid etdi.

- Məruzə!

İclasdakılar qəhqəhə çəkib gülüşdülər, çəpik çaldılar.

Qızın adı qaldı Məruzə.

Məruzə bəsləndi, Məruzə böyüdü. Məruzə oxumağa, nəhayət diqqətləri cəlb etməyə başladı.

Məruzəyə kitab, dəftər almaq lazım gələndə İclas qurusu bütün rəsmiyyəti gözləyirdi. Əvvəlcə qız, atasına ərizə yazırdı. Sonra ərizə məktəbə, müəllimin təsdiqinə göndərilirdi. Daha sonra Meyransa qol çəkirdi. Nəhayət İclas qurusu mağazindən kitab, dəftər alıb gətirir, qıza qol çəkdirəndən sonra-siyahı ilə verir və vaxt qoyurdu. «Gələn ayın ikinci həftəsinin sonuna qədər» həmin siyahının bir surətini idarəyə, «nəzarət üçün» müdirə göndərir, bir üzünü də-öz arxivində ehtiyat üçün saxlayırdı. Gələcəkdə yoxlasalar lazım olar.

Məktəb müdiri bir neçə dəfə Məruzəyə demişdi:

- Qızım, atanı çağır, vacib söz deyəcəyəm!

Quru cavab vermişdi:

- Mənim iclasım var, gələ bilmərəm.

Qız böyüyəndən sonra İclas qurusunun başağrısı daha da artdı. Qızı çox yerdən istədilər.

Elçilərin hamısına bir cavab verilirdi:

- Anket doldurun, yoxlayıb baxarıq.

Elçilər anket adını eşidib dağılışırdılar. Ancaq məhəbbətində sadiq olan Əsgər adlı bir şofer İclas qurusundan əl çəkmədi. Meyransa Əsgərlə qohum olmağa razı idi. Kişinin qılığına girmək istədi:

- Kişi, Məruzəni istəyirlər axı.

- Konkret danış, kim istəyir və hansı şərtlərlə.

- Şofer Əsgər!

- Ərizəsi hanı.

- Ərizəsi yoxdur

- Bəs niyə havayı danışırsan. Meydanda nə ərizə var, nə anket, nə zəmanət. Niyə bəs gəlib başımı ağrıdırsan.

Meyransa xahiş ədası ilə dedi:

- Bəlkə vaxt verəsən, iclasın olmayanda elçilər gəlsin danışasınız.

- Elçiləri neyləyirəm. Qız istəyən adam şəxsi işini, şəklini göndərsin, tanış olum, sonra müzakirə edib baxarıq.

İclas qurusu oğlanın adını bir-iki dəfə təkrar edib Meyransaya baxdı, başını buladı:

- Adı köhnədir, çox köhnədir. Məruzəni almaq istəyənin adı Məruzəyə layiq olsun gərək!

- Sən deyərsən dəyişər!

İclas qurusu öz qərarını təkrar etdi:

- Dedim şəxsi işini göndərsin, baxıb müzakirə edərik, artıq danışmaq lazım deyil!

Meyransa bir söz deməyib çıxdı.

İclas qurusunun sözlərini Əsgərə çatdırdılar, Əsgər dedi:

- Anketimi getsin idarədən öyrənsin, ancaq mən bu işin daha asan yolla həllini bilirəm. O özünü belə zəhmətlərə nahaq salıb.

Bu axşam İclas qurusu oturub protokolları sahmana salırdı. Meyransa da şkafı açıb təzə paltarlarını geyinirdi. Kişi başını qaldıranda arvadını ayrı bir həvəs, ayrı bir sevinclə, tələsə-tələsə geyinib-kecinən gördü.

- Hara belə ay arvad,-deyə təəccüblə soruşdu.

- Heç, balaca iclasımız var!

- Bəs Məruzə haradadır.

- O da öz iclasına gedib, sənə də kağız göndərib.

Meyransa stolun üstündəki kitabın altından əl boyda bir kağız çıxarıb ərinə verdi:

- Deyəsən, uşaqların qərarı var. Oxu gör necədir.

İclas qurusu kağızı oxuyanda gözü kəlləsinə çıxdı:- «Ata, biz çox müzakirə elədik, düşündük, daşındıq. Sizə zəhmət vermədən ZAQS-a getdik. Sabah toyumuzdur, oğlan evində olacaq, iclasdan sonra vaxtın olsa buyurub gələrsən. Qızın Məruzə.»

İclas qurusu daha da qurudu. Quru uzandı, dik ayağa qalxdı.

- Necə? Özbaşına qərar çıxarıblar...Bu qərarı kim təsdiq edib?

Meyransa təmkinini və mülayimliyini pozmadan cavab verdi:

- Gərək sən təsdiq edəsən də

İclas qurusu özündən çıxdı:

- Mən onun anketini oxumamış, işini yoxlamamış, müzakirə etməmiş, belə qərarı necə təsdiq edə bilərəm, bu nə intizamsızlıqdır...

Meyransa çəkməsini ayağına çəkib son sözünü dedi:

- Edərsən, etməzsən özün bilərsən. Mən Əsgərgildə toyda olacağam, evdən muğayat ol. Qapı-bacanı açıq qoyma!-Meyransa bunu dedi, qapını çırpıb çıxdı.

Ev, dəyirman daşı kimi İclas qurusunun başına dolandı.

***1954***

# BƏXTİYAR VAHABZADƏ

*(1925-2009)*



Azərbaycan poeziyasında xalqın milli oyanışına xidmət edən əsərlər müəllifi olan Bəxtiyar Vahabzadə 1925-ci ildə Şəkidə dünyaya gəlmiş, ilk təhsilini burada almış, Bakı Dövlət Universitetində oxumuşdur. 1974-cü ildə «Əməkdar incəsənət xadimi», 1984-cü ildə isə «Xalq şairi» fəxri adını almışdır.

Bəxtiyar Vahabzadə yüzlərlə şeirin, dram əsərlərinin və poemaların müəllifidir.

Azərbaycanın ikiyə bölünməsinə həsr olunmuş «Gülüstan» poeması, 20 Yanvar qırğınlarını əks etdirən «Şəhidlər» poeması el muğamlarını tərənnüm edən «Muğam» əsəri, milli dəyər kimi qiymətləndirdiyi «Ana dili» şeirləri dillərdən düşmür.

Bəxtiyar Vahabzadə 2009-cu ildə Bakıda vəfat etmiş, fəxri xiyabanda dəfn edilmişdir.

## «GÜLÜSTAN» POEMASI

*Azərbaycanın birliyi və istiqlaliyyəti*
*uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd*
*Xiyabani və Pişvərinin əziz xatirəsinə*

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.

Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.

O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə.

Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını yellədib təsbeh çevirir.
Qoyulan sərtlərə razıyıq deyə,
Tərəflər qol çəkdi müahidəyə...
Tərəflər kim idi? Hər ikisi yad!
Yadlarmı edəcək bu xalqa imdad?!

Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə.
Onlar bu şərtlərə sözünü desin,
Zənciri kim vurdu şir biləyinə?

Hanı bu ellərin mərd oğulları?
Açın bərələri, açın yolları.

Bəs hanı bu əsrin öz Koroğlusu-
Qılınc Koroğlusu, söz Koroğlusu?

Babaların şəni, şərəfi, əlbət,
Bizə əmanətdir, böyük əmanət...
Yoxmu qanımızda xalqın qeyrəti?
Belə saxlayarlar bəs əmanəti?
Qoy ildırım çaxsın, titrəsin cahan!
Ürəklər qəzəbdən
coşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran
İgid babaların goru çatlasın.

Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başlandı böyük bir elin.
Mərsiyə söyləsin axar bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin!..

Tərəflər sakitdir, qəzəbli deyil,
Məhv olan qoy olsun, onlara nə var.
İmzalar atılır bir-bir, elə bil,
Sevgi məktubuna qol çəkir onlar.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla, təsbehli ağa,
Qalxıb əl də verir biri-birinə.

Onların birləşən bu əllərilə
Ayrılır ikiyə bir el, bir Vətən.

Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?

Bir deyən olmadı, durun, ağalar!
Axı, bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız bayaqdan bəri,-
Bəs hanı bu yurdun öz sahibləri?

Bəs hanı həqiqət, bəs hanı qanun?
Qocadır bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun,
Bir vahid ölkənin iki qardaşı?

Görək bu hicrana, bu müsibətə,
Onların sözü nə, qərəzi nədir?
Bu xalq əzəl gündən düşüb zillətə,
Öz dogma yurdunda yoxsa kölədir?

Necə ayırdınız dırnağı ətdən-
Ürəyi bədəndən, canı cəsəddən?
Axı, kim bu haqqı vermişdir Sizə,
Sizi kim çağırmış Vətənimizə?

Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar.
Bir ölkə ikiyə
Ayrılsın deyə!..

Göy də guruldamış deyirlər o gün,
Çölləri, düzləri buludlar sarmış.

O göy gurultusu ulu Babəkin Ruhuymuş,
hönkürüb fəryad qoparmış.

Gülüstan kəndinin gül-çiçəkləri
Bir günün içində soldu-saraldı.
"Gülüstan" bağlandı, o gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı.

Bağrı köz-köz oldu "Yanıq Kərəmin"
Tellər inildədi, yandı, nə yandı.
Aşığın sazında daha bir həzin,
Daha bir yanıqlı pərdə yarandı.

Həmin gün ölkəni apardı sel, su,
Tutuldu çöhrəsi günün, ayın da.
Qoca Nəbatinin eşqi, arzusu,
O gün batmadımı Arpa çayında?

Ağlayıb dağlardan əsən küləklər,
Bu məşum xəbəri aləmə yaydı.
Sanki dilə gəldi güllər, çiçəklər:
"Bu isə qol qoyan qollar sınaydı".

Arazın suları qəzəbli, daşqın,
Sirin nəğmələri ahdır, haraydır.
Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır.

Quş iki qanadla uçar, yüksələr,
Mən necə yüksəlim tək qanadımla?
Ürəklər bu dərddən tüğyana gələr,
Axar gözümüzdən yaş damla-damla.

Cənablar, bir anlıq düşündünüzmü?
Verdiyiniz hökmün ağırlığını?
Bu hökmün dəhşəti əllimi, yüzmü?
Biz necə götürək bu göz dağını?..

Başı kəsiləndə bu məğrur elin
Qəlbin ağrısını hiss etdinizmi -
Qoca Füzulinin, igid Babəkin
Etiraz səsini eşitdinizmi?
Cənablar, bir damcı mürəkkəblə siz
Düsünün, nələrə qol çəkmişsiniz?

Bir damcı mürəkkəb, bir vətəndaşı
Qanına bulayıb ikiyə böldü.
Bir damcı mürəkkəb olub göz yaşı
İllərlə gözlərdən axdı, töküldü.
Min ləkə vurdular şərəfimizə
Verdik, sahibimiz yenə "ver" - dedi.
Lap yaxsı eləyib, doğrudan, bizə
Biri "baran" - dedi, biri "xər" - dedi.

Bizi həm yedilər, həm də mindilər,
Amma dalımızca gileyləndilər.
Hökmü gör nə qədər böyükmüş anın
Möhür də basdılar varağa təkrar.
Yox, varağın deyil, Azərbaycanın
Köksünə dağ boyda dağ basdı onlar.

İmzalı, möhürlü ey cansız varaq,
Nə qədər böyükmüs qüvvətin, gücün.
Əsrlər boyunca vuruşduq, ancaq
Sarsıda bilmədik hökmünü bir gün.

Ey kağız parçası, əvvəl heç ikən,
Yazılıb, qollanıb yoxdan var oldun.
Böyük bir millətin başını kəsən,
Qolunu bağlayan hökmdar oldun.

Bir eli ikiyə paraladın sən
Özün kağız İkən paralanmadın.
Köksünə yazılan qəlb atəşindən,
Niyə alışmadın, niyə yanmadın?

Araz sərhəd oldu, əsdi küləklər,
Sular yatağında qalxdı, köpürdü.
Üstü dama-dama taxta dirəklər,
Çayın kənarında səf çəkib durdu.

Sular, sizdən təmiz nə var dünyada?
Ləkədən xalidir axı qəlbiniz.
Bağrınız alışıb niyə yanmadı
Bu çirkin əmələ qol qoyanda siz?

Ey Araz, səpirsən göz yaşı sən də,
Keçdikcə üstündən çölün, çəmənin.
Səni arzulara sədd eyləyəndə,
Niyə qurumadı suların sənin?

Dayanıb Arazın bu tayında mən
"Can qardaş" deyirəm, o da "can" deyir.
Ey zaman, sorğuma cavab ver, nədən
Səsim yetən yerə, əlim yetməyir?..

Qarışıb gözümdə, qarışıb aləm
Dərd-dərdi doğrayır, qəm-qəmdən keçir.
Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub sinəmdən keçir.

Taxta dirəkləri torpağa deyil,
Qoydular Füzuli divanı üstə.
Yarıya bölündü yüz, yüz əlli il
Gəraylı, bayatı, muğam, şikəstə.

Dəmir çəpərləri eşqim, diləyim,
Tarixim, ənənəm üstə qoydular.
Yarıya bölündü canım, ürəyim,
Yarıya bölündü Arazda sular.

Taxta dirəkləri qoydular ax, ax!
Qəlbimin, ruhumun, dilimin üstə.
Biz güldük, ağladıq, yenə də ancaq
Bir sazın, bir telin, bir simin üstə.

Ürəkdən ürəyə körpü? Bir dayan!
Dərdimiz dinirsə, bir sazın üstə
Şəhriyar yaralı misralarından
Körpü salmadımı Arazın üstə?!

Bu taydan o taya axışdı sel tək
Gözə görünməyən könül telləri.
Bu selin önünü nə çay, nə dirək
Kəsə bilməmişdir yüz ildən bəri.

Ağalar bilmədi birdir bu torpaq
Təbriz də, Bakı da Azərbaycandır.

Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.

Böl, kağız üstündə, böl, gecə-gündüz,
Torpağın üstünə dirəklər də düz,
Gücünü, əzmini tök də meydana,
Qosundan, silahdan sədd çək hər yana.
Torpağı ikiyə bölərsən, ancaq
Çətindir bədəni candan ayırmaq!

Ayırmaq kimsəyə gəlməsin asan
Bir xalqın bir olan dərdi-sərini.
O taydan bu taya Mustafa Payan
Oxuyur Vahidin qəzəllərini.

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən:

"Heydər baba, göylər qara dumandı,
Günlərimiz bir-birindən yamandı.
Bir-birindən ayrılmayın, amandır,
Yaxşılığı əlimizdən aldılar,
Yaxşı bizi yaman günə saldılar.

Bir uçaydım bu çırpınan yelinən,
Qovuşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı".

## MUĞAM

Daş ürəklərdə yanıb daşları sındırdı muğam,
Haqqa düşmən olanı haqqa tanıtdırdı muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü ahıyla qurutdu", "Salı yandırdı" muğam.

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.

O, ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı
muğam.

Çox kitablar oxudum, zənn elədim,
Bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

## ANA DİLİ

Dil açanda ilk dəfə “ ana “ söyləyirik biz,
“Ana dili “ adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bu dil – bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil – bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, – tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə miras verdiyi
Ən qiymətli xəzinədir, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən,
Bu torpaqdan, bu yerdən,
Elin bağrından qopan yanıqlı nəğmələrdən,
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağsaçlı babaların əqlindən, kamalından,
Düşmən üstünə cuman o Qıratın nalından
Qopan səsdən yarandın.
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.
Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsan!

Millətlərə, xalqlara xalqımızın adından
Məhəbbət dastanları yaradıldı bu dildə.

Moskvada Puşkinə heykəl qoyulan zaman,
Ona abidə qoydu bu dildə Şirvani də

Bu dil, – tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil, – əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək!

Ey öz doğma dilində danışmağı ar bilən
fasonlu ədabazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq Vətən çörəyi,
Bir də ana ürəyi,
Sizlərə qənim olsun.

# ƏLİ KƏRİM
*(1931-1969)*



İstedadlı Azərbaycan şairi Əli Paşa oğlu Kərimov (Əli Kərim) 1931-ci il martın 22-də Göyçay şəhərində anadan olmuşdur.

Əli Kərim şeir yazmağa hələ orta məktəbdə oxuduğu illərdən başlamışdır. Onun 1948-ci ildə ilk nəşr olunan şeiri «Təzə müəllim» adlanır. Bundan sonra Ə.Kərimin şeirləri tez-tez çap olunmağa başlayır.

Əli Kərimin «İlk simfoniya» poeması 1957-ci ildə gənclərin və tələbələrin Moskvada keçirilən VI Ümumdünya festivalında mükafata layiq görülüb.

Əli Kərim az ömür yaşamasına baxmayaraq, çoxlu şeirlər və tələbələrin həyatından bəhs edən «Pillələr» adlı roman yazmışdır.

Əli Kərim 1969-cu il iyunun 30-da vəfat etmiş və doğulduğu Göyçay şəhərində dəfn olunmuşdur.

## QAYTAR ANA BORCUNU

Bir gözəl, bir sevimli oğul böyütdü ana.
O bəd, uğursuz günü-ərinin öldüyünü
Bildirmədi heç ona.

Kədəri dalğa-dalğa doldusa da ürəyə
Lakin nə saç yolaraq verdi əsən küləyə,
Nə şivən etdi ana.

Ürəyində ağlayıb, gülmək öyrətdi ona,
Dözərək davanın da dərdinə,bəlasına,
Öz boğazından kəsib yedirdi balasına....

Bir oğul böyütdü ki, gur, çatmaqaş, gensinə.
Bir oğul böyütdü ki, oğul deyirəm sənə:

Atlını atdan salıb, küləklərlə ötüşür.
Baxışından qızların ürəyinə od düşür.

Bir oğul böyütdü ki, oğul məktəb bitirdi,
Oğul instituta qızıl medalla girdi.

Ana fikirləşdi ki: "Gör neçə aya getdi?!"
Ana yuxularında tez -tez Bakıya getdi,

Ana məktub yazdı ki:"Yanıltma gümanımı,
Pul nədir, pul deyirsən, göndərərəm canımı".

Nə zaman ki, oğlunun getdiyi dörd il oldu,
Məktubları kəsildi, gəlmədi tətil oldu,

Ananı fikir aldı, ananın əsdi dizi
Ana müqəssir etdi tramvayı, dənizi.

O yenə dözdü,durdu... O yolmadı saçını,
Səslədi qonşuları Əsmər, Çiçək bacını.

Yenə də azalmadı ürəkdən bala dərdi
Onlar oğul vermədi, onlar təsəlli verdi.

Məktub məktub dalınca axdı, Bakıya axdı
Ana da məktubların dalınca baxdı, baxdı....

Məktublarsa Bakını dolandı, gəzdi, gəldi,
Məktublar əzik-üzük, məktublar bezdi gəldi,

Ana yenə də baxdı gah dolama yollara,
Gah da oğul boyuna həsrət qalan qollara.

Ana oğul böyütdü gur, çatmaqaş, gensinə,
Ana oğul böyütdü, özgəyə qismət oldu.

Ana fikirləşdi ki, mən neyləmişəm sənə?
Bu nə oğulluq oldu, bu nə məhəbbət oldu?

Oğul böyütdümü o, büzmədodaq bir qıza?
Oğul böyütdümü o min işvəyə, min naza?

Ana bilsəydi əgər böyütməzdi oğlunu,
Yox,bunu yandım dedim, yenə atmazdı onu.

Bir gözəl, bir sevimli oğul böyütdü ana,
Ürəyində ağlayıb, gülmək öyrətdi ona.

Oğul! Nədir etdiyin bəs bu haq-say üçün?
Qaytar onun ömrünə neçə gecə, neçə gün!

Qaytar onun saçının qaralığın geri.
Qaytar o dilindəki şirin -şirin sözləri!

O sözü, o söhbəti, gülüşü anan verib,
Ana dodaqlarından bala dodaqlarına.

İndi ondan gen gəzən oğul, ayaqlarına
Yerişi anan verib.

Qaytarsan o sözləri, sözsüz bir lal olarsan,
Qaytarsan o yerişi, yerindəcə qalarsan.

Qaytarsan o gülüşü hırıldamazsan daha.
Qaytar, qaytar onları, qaytar qoyma sabaha!

Sən ki dərd verdin, oğul, sənə gülüş verənə.
Oğul demərəm sənə!

Deyirəm ki, o boyu, buxunu qaytar geri!
Deyirəm ki,  varını, yoxunu qaytar geri!
Qaytar onun borcunu,
Gülüşünü, adını, sözünü qaytar geri!
Qaytar ana borcunu,
O borc sənin özünsən,özünü qaytar geri

# MƏMMƏD ARAZ

*(1933-2004)*



Məmməd Araz (Məmməd İbrahimov) 1933-cü ildə Naxçıvanın Nurs kəndində anadan olmuşdur. İlk və orta təhsilini burada aldıqdan sonra Bakıya gəlmiş ADPU-nun coğrafiya fakültəsinə daxil olmuşdur. Elə bədii yaradıcılığa da bu dövrdə başlamışdır. Məmməd Arazı bütün ömrü boyu düşündürən ən mühüm məsələ vətənin azadlığı, xalqının mübarizəsi, əsl vətəndaş olmaq və s. idi.

Məmməd Arazın «Sevgi nəğməsi», «Araz axır», «Ömür karvanı», «Qanadlı qayalar», «Dünya sənin, dünya mənim», «Dünya düzəlmir» və s. şeir kitablarının da əsas mövzusu vətəndir. Şair 2004-cü ildə vəfat etmişdir.

## AYAĞA DUR, AZƏRBAYCAN!

*(ixtisarla)*

Nə yatmısan qoca vulkan, səninləyəm!
Ayağa dur Azərbaycan, səninləyəm!
Səndən qeyri,
biz hər şeyi bölə billik.
Səndən qeyri,
biz hamımız ölə billik.

Bu Şəhriyar harayıdır,
Bu Bəxtiyar harayıdır.
Ayağa dur, Azərbaycan!
Bunu bizə zaman deyir,
Məzarından baş qaldıran baban deyir:
- Nər oğlu nər, səninləyəm!
Səninləyəm silah tutan,
kulung tutan, yaba tutan,
Kösöy tutan nişanlı ər səninləyəm!
Səninləyəm, qız atası,
Hanı nərən, hanı səsin?
Hanı andın?
Yoxsa sən də yatmışlara, batmışlara,
Qeyrətini satmışlara xırdalandın?
Gözünü sil, vətən oğlu,
Ayağa qalx!
Üfüqünə bir yaxşı bax,
Sərhədinə bir yaxşı bax,
Sərhədinin kəməndinə bir yaxşı bax!
Dur içindən qorxunu boğ,
Ölümünlə qalımını ayırd elə.

***

…Yıxın məni söz atından,
Atın məni tank altına,
Əzin məni xıncım-xıncım
Kəsmir əgər söz qılıncım.
Didin məni didim - didim,
Atın məni tank altına.
Qundaqdakı bir körpəni xilas edim,
…Oyat bizi, ey yaradan, səninləyəm!
Ya birmərrə yatırt bizi,
Ya birmərrə oyat bizi.

Ya yenidən yarat bizi!
Ey yaradan, səninləyəm!
Səninləyəm, yatmış vulkan.
Səninləyəm!
Ayağa dur, Azərbaycan,
Səninləyəm!

## DÜNYA SƏNİN, DÜNYA MƏNİM

Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da, qoşa düşmərik.
Bir zərrənin işığına milyonlar şərik,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

Çevrəsindən çıxsa əgər sevda fırfıran,
Bir ümidin ətəyindən tutub da fırlan,
Eşidərsən: pıçıldayır yıxılan, duran,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

Bu get-gəllər bazarına dəvədi dünya,
Bu ömür-gün naxışına həvədi dünya.
Əbədiyə qəh-qəh çəkər əbədi dünya,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

Ayaq saxla, dövrənə bax ötəri belə,

Min illərdir Araz belə, Həkəri belə.
Axşamların, səhərlərin təkəri belə,
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

Gülünclərə gülünc gələn bu ada güldüm,
Yüyəninə hər əl yetən bu ata güldüm,
Mən özümlə oynadığım şahmata güldüm...
Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

# FİKRƏT QOCA

(1935)



1935-ci ildə Ağdaş rayonunun Kotanar kəndində doğulmuşdur. Moskvada Ədəbiyyat İnstitutunu bitirib. 1998-ci ildən AYB-nin katibidir.

«Qağayı», «Hamıya borcluyam», «Ömürdən səhifələr», «Taleyin ağır taleyi», «Eldən-elə, dildən-dilə», «Sükutun səsi» və s. kitabların müəllifidir.

Fikrət Qoca Azərbaycanın xalq şairi (1999), Əməkdar incəsənət xadimi (1978) fəxri adlarına layiq görülmüş, 1995-ci ildə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

## ÇƏTİN YOL

Bu dünya bir bilməcədi,
Gah gündüzdü, gah gecədi.
Bilmədim nədi? Necədi?
Gələndən gedənə kimi.

Bir bədəndə sağ var, sol var,
Qul qəlbində şah var, qul var.
Öz canımda çətin yol var
Ağıldan gödənə kimi.

Pis işi xəlvət görürük,
Yaxşını çölə səpirik.

Hamımız ömür sürürük
Dinsizlikdən dinə kimi.

Yaxşı adamların baxtı,
Yumurtadı, o da laxdı.
Şairlər hamsı bədbaxtdı,
Füzulidən mənə kimi.

# ANAR

(1938)



1938-ci ildə Bakıda anadan olmuşdur. Ədəbiyyata 50-ci illərin sonunda gəlmişdir. Dövlət müstəqilliyi illərindən, 1991-ci ilin martından Azərbaycan Yazıçılar Birliynə rəhbərlik edir. «Ağ liman», «Macal», «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsərləri müasir nəsrin dəyərli nümunələrindəndir.

Yazıçının «Ağ qoç, qara qoç» povesti son illərin qiymətli əsərlərindəndir. Bu əsər janrına, üslubuna, problematikasına görə Azərbaycan ədəbiyyatında tamamilə yeni, orijinal əsərdir. Anar dramaturgiya sahəsində də böyük uğurlar qazanmış, onun «Şəhərin yay günləri», «Adamın adamı», «Təhminə və Zaur», «Keçən ilin son gecəsi» və s. əsərləri dəfələrlə tamaşaya qoymuşdur.

Anar on bir senarinin müəllifidir: «Torpaq, dəniz, od, səma», «Gün keçdi», «Dədə Qorqud», «Dantenin yubileyi», «Üzeyir ömrü», «Ötən ilin son gecəsi», «Otel otağı» və s.

Anarın yaradıcılığında şeirin xüsusi yeri var. Bu şeirlər öz orijinallığı və mövzu rəngarəngliyi ilə fərqlənir.

## NİKBİN ŞEİR

Keçib getdi,
min il, yüz il;
Keçib getdi,
on il, son il.
Keçib gedir
son ay, son gün,
son dəqiqə, son saniyə.
Əsim-əsim əsir səsim,
Axı əsir səsim niyə?
Mən əsrimin əsiriyəm,
Mən əsrimin əsəriyəm.
Yaxşım, pisim -
Fikirlərim, duyğum, hissim,
Ömrüm-günüm, əsərlərim,
əsəblərim,
Ağrılı-acılı sirlərim, -
Nəyim yoxdur, nəyim vardır -
Bu yüz ildən yadigardır.
Tərk edirəm diri-diri
İyirmini -
İki mini.
Tərk edirəm vətən kimi
Ümidimi, diləyimi
yeni əsrə daşıyıram, -
Düşmənlərin acığına
yaşamışam, yaşayıram.
İyirmi bir – yeni vətən,
Min illərin sərhəddini mən aşacam.
Yaşamışam, yaşayıram,
yaşayacam.

# RÜSTƏM BEHRUDİ
(1957)



Şair, filosof Rüstəm Behrudi 1957-ci ildə Ordubad rayonunun Behrud kəndində müəllim ailəsində anadan olmuşdur. 1988-ci ildən Yazıçılar Birliyinin üzvüdür. 2008-ci ildə Makedoniyada keçirilən Türk Dünyası Uluslararası şeir festivalında ”Altun medala” layiq görülmüşdür. Dünya Azərbaycanlıları Konqresinin Mədəniyyət Akademiyasının fəxri üzvüdür. “Şaman duası”, “Salam dar ağacı”, “Göz yaşlarından baxan Allah”, ”Din sevdim din üstünə”, ”Ruhu sözlərimdə çırpınan ölkə”, “Boz qurd ” və s. şeir kitablarının müəllifidir.

## SALAM, DAR AĞACI

Yolumu gözlədin hər səhər-axşam,
Salam, Dar ağacı!
Əleyküm-salam.
Əcəllə ölməyə doğulmamışam,
Salam, Dar ağacı!
Əleyküm salam.

O hansı millətdir, taleyi sirdir?
Yüz adla bölündü, yenə də birdir!
Məni hüzuruna bu dərd gətirdi,

Salam, Dar ağacı!
Əleyküm salam.

Xəzəri, Baykalı, Aralı gördüm,
Gördüm can üstədir, yaralı gördüm.
Tanrını bəndədən aralı gördüm,
Salam, Dar ağacı!
Əleyküm salam.

Çarxı tərs fırlanır fələk qarının,
Turan kölgəsində budaqlarının.
Rəngi bayrağımda yarpaqlarının,
Salam, Dar ağacı!
Əleyküm salam.

Əvvəlin axırı, sonun əvvəli
Buymuş, bilməmişəm bunu mən dəli.
Qorxum yox! Nə olsun boyun göy dəlir?!
Salam, Dar ağacı!
Əleyküm salam.

Danış, Əmir Teymur, bu son nəydi bə?
Boynumda ağ kəfən, dilimdə tövbə...
Dərsini tərs bilən, mənimdi tövbə!
Salam, Dar ağacı!
Əleyküm salam!

Səni mən əkmişəm...Mənə sən qənim,
Səni suvarmağa halaldı qanım;
Yarpağın rəng alsın qanımdan mənim,
Salam, Dar ağacı!
Əleyküm salam!

Ey darın ağacı! Kimdən kəməm, kəm?!
Ya səni yendirrəm, ya sənə yennəm.
Ya da budağında yarpağa dönnəm,
Salam, Dar ağacı!
Əleyküm salam.

Qırğızam, özbəyəm, qazax, türkmənəm,
Başqırdam, kərkükəm, elə görk mənəm.
Sənin gözlədiyin qərib türk mənəm!
Salam, Dar ağacı!
Əleyküm salam.

Qəbul et, növbəti qurbanın mənəm,
Mənim canım səndə, bil, canın mənəm.
Elə qürrələnmə, hər yanın mənəm,
Salam, Dar ağacı!
Əleyküm salam.

## Mənim borcum

*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı*
**(M.Araz)**

Bu torpağın bir kiçicik daşıyamsa,
Vətənin sadə bir vətəndaşıyamsa,
Bu torpağa, bu millətə borcum vardır.
Bu borc nədir?!
Üz tutub Şimala, Şərqə,
Üz tutub Cənuba, Qərbə
Var gücümlə bağıraraq
Öz sözümü söyləməkdir.
Torpağıma, millətimə,
Vətənim Azərbaycana
Şəxsən sənə, Heydər babam,
Sənə düşmən kəsilənə:
-«Qana qandır! Budur meydan»-
söyləməkdir.

***

Kürüm coşub çağlayırsa,
Arazım qan ağlayırsa,
Qurban gedən oğlum varsa,
Dörd bir yana hayqıraraq:
-Düşmən, dayan! –söyləməkdir.
Adım türkdür, dinim islam.

Ozanıma, şamanıma,
İmanıma, inamıma
Şəkk-şübhə edənlərə
-Yoxdur aman! – söyləməkdir.

***

Uca dağlar duman olur
Türk qəzəbi yaman olur.
Bunu tarix də göstərdi.
Tanrı özü türkü qorur.

***

Bu torpağın bircə ovuc torpağıyam,
Bu ağacın bircə solmuş yarpağıyam.
Mənim borcum, borcum nədir?
-Mənim borcum od yandırıb,
dağ başından
Ellərimi səsləməkdir.
Şərqdən Qərbə səpələnmiş,
Neçə illər tapdalanmış,
Parçalanmış, didələnmiş
Ellərimə, günlərimə:
Türkmənimə, qazağıma,
Qırğızıma, oğuzuma,
Qüdrətli  türk millətimə,
Yeddi azad dövlətimə
Oyan, oyan! – söyləməkdir.

***

Mən Günəşəm çıxacağam.
Şimşək kimi çaxacağam.
Tomris kimi düşmənlərin kəlləsini
Qan gölündə boğacağam.

***

Mən dözərəm hər əzaba
Təki mənim torpağıma,
O müqəddəs bayrağıma
Yad bir nəfəs toxunmasın.
Qoy Məkkəmdə, Mədinəmdə,
Cənnətimdə – Vətənimdə
Yad bir nəğmə oxunmasın,
Kimsə bizə toxunmasın.

***

Hər birimiz bir damlayıq.
Damlalardanümman olur.
Ümman coşub çağlayanda
Qayaları qoparması
Yaman olur, yaman olur.

***

Elə onda muradımı alacağam,
Elə onda Fərhad olub
qayaları yaracağam.
Xan Arazın sularından

Bir doyunca içəcəyəm.

Xudafərin körpüsündən gah bu taya,
gah o taya keçəcəyəm.
Son sözümü deyəcəyəm:
-Toxunmazdır sərhədimiz!
-Bölünməzdir sərvətimiz!
-Azadlıqdır məsləkimiz!
-Duysun cahan! – deyəcəyəm.
-Bilsin cahan!- deyəcəyəm.

# MÜASİR TƏMSİLLƏR

## MƏNSUR

### Tısbağa

İmicini dəyişməyə
Qərar verdi tısbağa
Çıxıb qınından tamam
Oldu çılpaq qurbağa.

### Xoruzun fonoqramması

Xoruz gedib bazardan
Zəngli bir saat aldı
Sübh zamanı çatanda
Saatı banlayardı.



Çəpərdə otururdu
Qanad çalıb dururdu
Saatı banlayanda
Ağzın açıb yumurdu.



# AZƏRBAYCANI TANIYAQ

# XƏZƏR DƏNİZİ



Yer kürəsində ən böyük göldür. Dünya okeanı ilə heç bir əlaqəsi yoxdur. Qədim mənbələrdə Xəzər dənizi Gilan dənizi adlandırılmışdır. Suyun səviyyəsi dəyişkəndir, okean səviyyəsindən 28 m aşağıdır, sahəsi 380 min $km^2$-dir. Ən dərin yeri 1025 m-dir. Dənizin uzunluğu 1205 km, eni 554 km-dir. Dəniz neft-qaz yataqları ilə zəngindir.

Dənizin mənbələrdə yüzdən çox adı qeyd olunmuş, daha çox tarixən ətrafında məskunlaşmış tayfaların adları ilə adlandırılmışdır: Xəzər dənizi, Gürgan dənizi, Cürcan dənizi, Həştərxan dənizi, Salyan dənizi, Kaspi dənizi və s.

# QOBUSTAN QAYAÜSTÜ RƏSMLƏRİ



Azərbaycan ərazisində arxeoloji abidələr kompleksinin mühafizə edildiyi qoruqdur. Qoruq Qarabağ rayonunun Qobustan qəsəbəsində, paytaxt Bakıdan 56 km aralıda yerləşir. Burada eləcə də muzey fəaliyyət göstərir. Qoruqda, əsasən, Mezolit (orta daş dövrü) abidələri sərgilənir. Burada mağaralar, bulaqlar və s var. Qobustan adının mənşəyi və anlamı barədə onlardan ən çox işlədilən fikir toponimin coğrafi şəraitlə bağlı yaranmasıdır. Həmin fikrə görə, Qobustan qobular diyarı, ucsuz-bucaqsız düzənlik, saysız-hesabsız təpələr arasında torpaq uçuntulardan əmələ gəlmiş yarğanlar və dərələrdir.

# BAKI BUXTASI



Bakı bulvarı 1909-cu ildə Bakı şəhər Dumasının qərarı ilə salınıb. Mühəndisi Məmməd Həsən Hacınski olub. Hazırda parkın uzunluğu 4 km-ə yaxındır. Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən, yaxın 7 ildə Milli parkın sahəsi genişləndirilərək 25 km-ə çatdırılmalıdır.

Bakı toponiminin etimologiyası ilə bağlı bir neçə fikir vardır:

1. Badikubə – küləkli şəhərküləklər şəhəri.
2. Baqu – qədim türk dillərində «təpə, yamac» mənasında işlənmişdir.
3. Baqubaku – hündür yer, cərgə təpələr mənasını bildirmişdir.
4. Bakan – tayfa adını əks etdirmişdir.
5. Bakı – baxalı yer, müşahidə məntəqəsi mənasında işlənmişdir.

# QIZ QALASI



Qız qalası Bakının, eləcə də Abşeronun möhtəşəm, sirli memarlıq abidəsidir. Hündürlüyü 28 m, divarların qalınlığı 5 m-dir. Qala 1964-cü ildən muzey kimi fəaliyyət göstərir. 2000-ci ildə YUNESKO-nun Ümumdünya irsi siyahısına salınmışdır. XII əsrə aid edilsə də, qalanın IV-IV əsrlərdə tikilməsi ehtimal olunur.

# ŞİRVANŞAHLAR SARAYI



XV əsrdə Şirvan şahı Xəlilullahın dövründə tikilmişdir. Bakının mərkəzində, İçərişəhərdə yerləşən saray kompleksi Yaxın Şərqin ən görkəmli memarlıq abidələrindən biridir. Kompleksə Şirvanşahlar sarayı, Divanxana, Keyqubad məscidi, Şirvan məscidi (1441), Seyid Yəhya Bakuvi türbəsi, Murad darvazası (1585), saray hamamı və s daxildir. 1964-cü ildən muzey-qoruq kimi fəaliyyət göstərir. 2000-ci ildə YUNESKO tərəfindən İçərişəhər və Qız qalası ilə birgə Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir.

# YANAR DAĞ



Bakının unikal təbiət abidələrindən biridir. Abşeronun Məmmədli kəndi ərazisində, dağın ətəyində təbii qazın çıxması nəticəsində alovlanan, tarixi bilinməyən bu təbiət hadisəsi «Yanar dağ» adlanır. E.ə. yaşamış Heredot Azərbaycana səhayət edərkən məşhur «Yanar dağ»da olmuş, onun yaxınlığındakı yaşayış məskənlərini «Qurd yuvası» və «Kirməkinin» kimi göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 02.5.2007-ci il tarixli sərəncamı ilə «Yanar dağ»ın ərazisi dövlət tarix-mədəniyyət və təbiət qoruğu elan edilmişdir.

# HÖKÜMƏT EVİ



Bakıda yerləşən möhtəşəm tarixi binalardan biridir. Azərbaycanda sovet hakimiyyəti illərində hökümət işçilərinin çalışması üçün nəzərdə tutulmuşdur. Memarlar Lev Rudnev və Vladimir Munts tərəfindən 1924-1952-ci illərdə tikilmişdir, 13 mərtəbəlidir. Memarların qarşısında böyük sosialist dövlətinin qüdrətini əks etdirən bir bina inşa etmək vəzifəsi qoyulmuşdu. Bina «Qotik» memarlıq üslubundadır.

# İSMAİLİYYƏ BİNASI



İsmailiyyə binası İstiqlaliyyət – 10 ünvanında yerləşir. İsmailiyyə binası Bakı milyonçusu Ağamusa Nağıyev tərəfindən vərəm xəstəliyindən erkən vəfat etmiş oğlu İsmayılın şərəfinə 1908-1913-cü illərdə tikdirilib. Venesiya-qotikası üslubunda tikilmiş İsmailiyyə binasının memarı İ.K.Ploşko olub. Binanın üzərində qızılla, iri hərflərlə müdrik kəlamlar yazılıbmış. 1) İnsan yalnız zəhmətlə ucalıb istədiyinə nail ola bilər. 2) İnsanı insan edən zəhmət olub. 3) Müsəlmanlar, əsriniz sizinlə olur, övladlarınızı öz əsrləri üçün hazırlayın. 4) İnsan beşik evindən qəbr evinədək oxumalıdır. Elm Çin ölkəsində olsa belə, dalınca gedin.

1918-ci ilin mart ayında Bakını ələ keçirən ermənilər binanı yandırmış, zirzəmidə yerləşən dövlət arxivini isə yox etmişlər.

# NEFT DAŞLARI



Neft daşları dünyada ilk neft platformasıdır. Bünövrəsi 1947-ci ildə qoyulmuşdur. Neft daşları şəhər tipli qəsəbədir və Bakının Xəzər rayonu ərazisinə daxildir. Neft daşlarının quru ilə heç bir əlaqəsi yoxdur. Azərbaycanda neft sənayesinin inkişafına Neft daşları təkan vermişdir.

# HEYDƏR ƏLİYEV FONDU



Heydər Əliyev fondu Bakı şəhərində Niyazi küçəsində yerləşir. Fond 2004-cü ildə yaranmışdır.

Fondun prezidenti Azərbaycanın Birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevadır.

Heydər Əliyev fondu yarandığı gündən təhsil, mədəni-sosial, səhiyyə, idman və b. sahələrdə uğurlu layihələr həyata keçirir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək Bakıda yüksək səviyyəli festivallar və konfranslar keçirir. Milli-əxlaqi dəyərləri qorumaqla, dünya ictimaiyyətinin diqqətini Azərbaycan həqiqətlərinə cəlb edir.

# HEYDƏR ƏLİYEV MƏRKƏZİ



Bakıda tikilən müasir mədəniyyət mərkəzidir. Memarı dünya şöhrətli memar Zaha Hadiddir. Tikintisinə 2007-ci ildə başlanıb. Mərkəzin ümumi sahəsi 15,25 hektardır. Mərkəz muzeydən, mədəni irs mərkəzindən, konfrans zalı, çoxfunksiyalı zal, kitabxana və media mərkəzindən ibarətdir. Mərkəz 2012-ci il mayın 10-da açılmışdır. Heydər Əliyev mərkəzinin direktoru Anar Ələkbərov təyin edilmişdir.

# BAYRAQ MEYDANI



Dövlət Bayraq meydanı Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkıdır. Meydanın ərazisi 20.000 $km^2$, dayağın hündürlüyü 162 m, bayrağın eni 35 metr, uzunluğu 70 m-dir. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan Dövlət Bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

# ALOV QÜLLƏLƏRİ



Bakıdakı «Alov qüllələri» son illərin möhtəşəm binaları sırasına daxildir. 2008-ci ildə tikintisinə başlanmışdır. «Alov qüllələri» artıq Bakının vizit kartına çevrilmişdir. Binalardan biri mehmanxana, digəri biznes mərkəzi, o biri isə yaşayış binası kimi fəaliyyət göstərəcək.

# KRİSTAL HOLL



Bakı «Kristal zal»ı Dövlət Bayrağı meydanında yerləşir. 2011-2012-ci illərdə tikilmişdir. 2500 tamaşaçı üçün nəzərdə tutulmuşdur. Burada keçirilən ilk tədbir 2012-ci il Avroviziya mahnı yarışması oldu.

«Kristal zal» idman-əyləncə kompleksi beynəlxalq kütləvi-mədəni tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuşdur. Zalın həm daxildən, həm də xaricdən müxtəlif effektlər verən işıqlandırma sisteminin dünyada analoqu yoxdur.

# ŞƏKİ XAN SARAYI



Şəki xanlarının yay sarayı XVIII əsrdə 1761-1762-ci illərdə Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə tikilmişdir. Binanın baş fasadı dünyada analoqu olmayan ən xırda, həndəsi fiqurlara bölünmüş, ağac parçalarının aralarına rəngli şüşələr geyindirilmiş şəbəkə qapı və pəncərələrdən ibarətdir. Şəbəkələrin hər bir kvadrat metri orta hesabla 5000, mürəkkəb hissələri isə 14.000 ağac və şüşə şəbəkədən ibarətdir. Binada mismar və yapışqandan istifadə edilməmişdir.

# AZIX MAĞARASI




Azıx mağarası Azərbaycanın cənub-qərbində, Kiçik Qafqaz sıra dağlarının cənub-şərq yamacında, Quruçay çayının sol sahilində, Qarabağ bölgəsinin Xocavənd rayonu ərazisində, dəniz səviyyəsindən 1400 m. yüksəkdə yerləşir. Daş dövrü insanlarının yaşayış yeri olmuşdur. Sahəsi 800 $km^2$-dir. Burada uzunluğu 600-ə çatan 8 dəhliz vardır. Dəhlizlərin bəzilərinin hündürlüyü 20-25 m-ə qədərdir.

# NİZAMİ TÜRBƏSİ




Nizami Gəncəvi türbəsi dahi Azərbaycan şairi Nizaminin qəbri üzərində XIII-XIV əsrlərdə tikilmişdir. 1947-ci ildə şairin məzarı üzərində məqbərə ucaldılıb. Arxeoloji qazıntılar zamanı Nizami Gəncəvinin qəbri üzərində Arran memarlığı üçün səciyyəvi olmuş çoxrəngli bayır üzlüyü olan sərdabədə qülləvari türbənin olduğu müəyyən edilmişdir. Məqbərə Gəncənin girəcəyində yerləşir. Məqbərə kompleksinə qoruq statusu verilmişdir.

# GƏNCƏ QAPILARI



Gəncə qapıları IX əsrin ortalarında Şəddadi hökmdarı Əbül Əsvar Şavurun (1049-1067) göstərişi ilə 1063-cü ildə usta İbrahim Osmanoğlu tərəfindən hazırlanmışdır. Bu nadir sənət incisi 1139-cu ildə, Gəncə zəlzələsi zamanı şəhərə qarət məqsədilə hücum etmiş gürcülər tərəfindən Gürcüstanın Kutaisi rayonunun Helati monastrında saxlanılmışdır. Darvazanın tayı üzərində Kufi xətlə, ərəbcə darvazaların yaradılmasının tarixi yazılmışdır. Darvazanın 2-ci tayı haqqında (ASE. IV c) deyilir ki, XVIII əsrdə monastr təmir olunarkən darvazanın həmin tayından dam örtüyü kimi istifadə olunmuşdur.

# GÖY GÖL



1139-cu ildə baş vermiş Gəncə zəlzələsi zamanı Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsmiş, nəticədə suyunun şəffaflığı ilə seçilən Göy göl yaranmışdır. Dəniz səviyyəsindən 1556 m yüksəkdə yerləşir. Göy göl Dövlət Qoruğu 1925-ci ildə Azərbaycanda yaradılmış ilk qoruqdur.

Göy gölün faunası olduqca zəngindir. Göldə farel balıqları yaşayır. Gölün ətrafının meşə landşaftı zənginliyi və füsunkarlığı ilə dünyada məşhurdur. Ərazisində 423 növ ağac və kol, dərman bitkiləri var. Ərazidə Qafqaz maralı, cüyür, ayı, çöl qabanı, dağ keçisi, canavar, tülkü, çaqqal, oxatan kirpi, vaşaq, çölpişiyi yaşayır.

# NAFTALAN NEFTİ



Naftalan nefti dünyada analoqu olmayan unikal müalicə vasitəsidir. O, güclü iltihabəleyhli, ağrıkəsici, allergiya əleyhi və hormonabənzər təsirlərə malikdir. Trofik və mübadilə proseslərini stimulə edir, ovogenezi və spermatogenezi sürətləndirir. Bu müalicəvi xüsusiyyətlərinə görə Naftalan nefti ilə 70-dən artıq xəstəliyin müalicəsi mümkündür.

Naftalan mürəkkəb fiziki-kimyəvi tərkibə malik olub, qətranlı, azkükürdlü, parafinsiz, neft məhsuludur. Tərkibində sənaye neftlərindən fərqli olaraq benzin, kerosin, liqroin kimi yüngül fraksiyalar yoxdur.

# PALÇIQ VULKANLARI



Dünyanın palçıq vulkanlarının $\frac{1}{3}$-i Azərbaycanda, 16000 km$^2$ ərazidə cəmlənmişdir. Təbiətin sirri açılmamış təzahürü olan palçıq vulkanları forma və çeşid müxtəlifliyi ilə sanki qəsdən burada cəmlənmişdir. Elə bu səbəbdən də Azərbaycanda palçıq vulkanları Abşeron yarımadasında, Şamaxı, Qobustan, Aşağı Küryan çökəkliyi, Bakı arxipelaqı və Gürcüstan sərhədlərində yerləşir.

# QAN YADDAŞIMIZ

20 Yanvar – Ümumxalq hüzn günü.

26 Fevral – Xocalı faciəsi.

31 Mart – Azərbaycanlıların soyqırımı günü.

## Erməni təcavüzkarları tərəfindən işğal edilən Azərbaycan əraziləri

| | |
|---|---|
| Xocalı | 26.02.1992 |
| Şuşa | 08.05.1992 |
| Laçın | 18.05.1992 |
| Xocavənd | 02.10.1992 |
| Kəlbəcər | 02.04.1993 |
| Ağdərə | 17.06.1993 |
| Ağdam | 23.07.1993 |
| Füzuli | 23.08.1993 |
| Qubadlı | 31.08.1993 |
| Zəngilan | 29.10.1993 |

# MİLLİ BAYRAMLARIMIZ

| | |
|---|---|
| Yeni il | 31, 1, 2 yanvar |
| Qadınlar günü | 8 mart |
| Respublika günü | 28 may |
| Milli qurtuluş günü | 15 iyun |
| Ordu günü | 26 iyun |
| Dövlət Müstiəqilliyi günü | 18 oktyabr |
| Bayraq günü | 9 noyabr |
| Konstitusiya günü | 12 noyabr |
| Milli Dirçəliş günü | 17 noyabr |
| Dünya Azərbaycanlılarının həmrəyliyi günü | 31 dekabr |
| Novruz bayramı | 21 mart |
| Qurban bayramı | |
| Ramazan bayramı | |

# İLİN AYLARI

| № | Azərbaycanca | Türkcə |
|---|---|---|
| 1. | Yanvar | Ocak |
| 2. | Fevral | Şubat |
| 3. | Mart | Mart |
| 4. | Aprel | Nisan |
| 5. | May | Mayıs |
| 6. | İyun | Haziran |
| 7. | İyul | Temmuz |
| 8. | Avqust | Ağustos |
| 9. | Sentyabr | Eylül |
| 10. | Oktyabr | Ekim |
| 11. | Noyabr | Kasım |
| 12. | Dekabr | Aralık |

| № | İngiliscə | Rusca |
|---|---|---|
| 1. | January | Январь |
| 2. | February | Февраль |
| 3. | March | Март |
| 4. | April | Апрель |
| 5. | May | Май |
| 6. | June | Июнь |
| 7. | July | Июль |
| 8. | August | Август |
| 9. | September | Сентябрь |
| 10. | October | Октябрь |
| 11. | November | Ноябрь |
| 12. | December | Декабрь |

# HƏFTƏNİN GÜNLƏRİ

| № | Azərbaycanca | Türkcə |
|---|---|---|
| I | Bazar ertəsi | Pazartesi |
| II | Çərşənbə axşamı | Salı |
| III | Çərşənbə | Çarşamba |
| IV | Cümə axşamı | Perşenbe |
| V | Cümə | Cuma |
| VI | Şənbə | Cumartesi |
| VII | Bazar | Pazar |

| № | İngiliscə | Rusca |
|---|---|---|
| I | Manday | Понедельник |
| II | Tuesday | Вторник |
| III | Wednesday | Среда |
| IV | Thursday | Четверг |
| V | Friday | Пятница |
| VI | Saturday | Суббота |
| VII | Sunday | Воскресенье |

# Testlərin cavabları

| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| I | d | б | d | a | a | a | d | a | e | a |
| II | a | a | b | a | b | a | c | d | a | d |
| III | b | b | c | a | b | a | a | c | b | e |
| IV | a | a | e | a | б | ъ | a | a | ъ | д |
| V | б | a | e | a | a | д | a | e | д | б |




Qədim və müasir türk dilləri


ALTAY İLLƏRİ AİLƏSİ
1. Türk dilləri qrupu
2. Monqol dilləri qrupu
3. Tunqus dilləri qrupu
4. Mancur dilləri qrupu
5. Koreya dili
6. Yapon dili
1. Monqol dili
2. Buryat dili
3. Kalmıq dili
1. Tunqus dili
2. Even dili
3. Negidal dili
1. Mancur dili
2. Nanay dili
3. Udey dili
4. Ulç dili
5. Oroç dili
MÜASİR TÜRK DİLLƏRİNİN YARIMQRUPLARI
Oğuz dilləri yarımqrupu
Qıpçaq dilləri yarımqrupu
Bulqar dilləri yarımqrupu
Karluq dilləri yarımqrupu
Tukuy dilləri yarımqrupu
1. Azərbaycan dili
2. Qaqauz dili
3. Türk dili
4. Türkmən dili
1. Altay dili
2. Qaraqalpaq dili
3. Qazax dili
4. Qırğız dili
5. Noqay dili
1. Başqırd dili
2. Çuvaş dili
3. Qaraçay-balkar dili
4. Qumuq dili
5. Karaim dili
6. Tatar dili
1. Özbək dili
2. Salar dili
3. Uyğur dili
1. Xakas dili
2. Şor dili
3. Tofalar dili
4. Tuva dili
5. Yakut dili

# ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayev A., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1972.

2. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı. 1968.

3. Abdullayev N., Məmmədov Z. Nitq mədəniyyətinin əsasları.

4. Ağayeva İ. Bədii və elmi üslub. Bakı, 1988.

5. Bünyadov Z., Yusifov Y. Azərbaycan tarixi. I c. Bakı. 1994.

6. Cavad H. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı. 1990.

7. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı.

8. Əliyev K. Azərbaycan natiqlik sənəti. Bakı. 1983.

9. Əliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı. 2003.

10. Əliyev K. Nitq mədəniyyəti məsələləri. Bakı.1985.

11. Əfəndiyeva Ə. Düzgün yazı təliminin elmi əsasları. Bakı. 2010.

12. Əsgərov M. Natiqlik sənətinin əsasları. Bakı. 1975.

13. Hacıyev A. Böyük siyasətin uğurlu davamı. Bakı. 2006.

14. Hacıyeva Ə. Uşaq nitqinin linqvistik təhlili. Bakı. 1994.

15. Həsənov N. Nitq mədəniyyəti və üslubunun əsasları. Bakı. 1999.

16. Hüseynzadə M. Müasir Azərbaycan dili (morfologiya) Bakı. 1973.

17. Hüseynova H. Müasir Azərbaycan onomologiyası məsələləri. Bakı. 2005.

18. Hüseynova H. Toponimikanın bəzi nəzəri problemləri. Bakı, 2006.

19. Xəlilov B. Müasir Azərbaycan dilinin fonetikası. Bakı. 2007.

20. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikası. Bakı. 2008.

21. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I, II. Bakı. 2007.

22. Xəlilov B. Azərbaycan dili antologiyası. Bakı, “Bakı çap evi”, 2013.

23. B.Xəlilov. Dil, ədəbiyyat, mədəniyyət. Bakı, “Bakı çap evi”. 2013.

24. Xudiyev N. XX əsr Azərbaycan ədəbi dili. Bakı. 1995.

25. Xudiyev N. Azərbaycan ədəbi dili tarixi. Bakı. 1997.

26. İsmayılova M. Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi (Metodik vəsait). Bakı, 2008.

27. İsmayılova M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Bakı, 2001.

28. İsmayılov R., Qasımova X, Ellazov F. Azərbaycan dili (dərslik) Bakı. 2008.

29. İsmayılov R. Ellazov F. Azərbaycan dili (dərslik). Bakı. 2007.

30. İsrafilov V. Şəxsiyyətin möcüzəsi. Bakı, 2006.

31. Qurbanov A. Ümumi dilçilik, I, II. Bakı, 2004.

32. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I, II. Bakı, 2007, 2010.

33. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I, II, Bakı. 2004.

34. Mir Cəlal., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı. 1974.

35. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. B. 2010.

36. Tanrıverdiyev Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı. 2010.

37. Tanrıverdiyev Ə. Dilimiz, mənəviyyatımız. Bakı. 2008.

38. TQDK. Azərbaycan dili. Bakı. 2010.

39. TQDK. Ədəbiyyat. Bakı. 2010.

## Mənbələr

1. Anar. Seçilmiş əsərləri. Bakı. 2004.
2. Rüstəm Behrudi. Salam, dar ağacı. Bakı. 2007.
3. Rüstəm Behrudi. Göz yaşlarından baxan Allah, Bakı. 2007.
4. Məmməd A. Dünya düzəlmir. Bakı. 1992.
5. Məmmədquluzadə C. Hekayələr. Bakı. 2001.
6. Mənsur. Bir qonağıq bu dünyada. Bakı. 2012.
7. Ümmani H. Nağıl dünya. Bakı. 2010.
8. Vahid A. Daşlar çiçəkləyəndə. Bakı. 2011.
9. Vahid A. Bənövşə ömrü. Bakı. 2011.

## İnternet saytları

1. www.ru.prezident.az
2. www.haydar-aliyev-aondation.org
3. www.azyb.net

4. www.azpress.az
5. www.anar.az
6. www.cingizabdullayev.az
7. www.antolojicom/rustombehrudi
8. www.jou.az/interesting
9. www.ensonxeber.com
10. www.gencekitab.net

# MÜNDƏRİCAT

**Азярбайъанын дювлят атрибутлары** ........ 3

**Нитгин инкишафынын бязи нязяри мясяляляри** ........ 16
Дил вя нитгин мцнасибяти ........ 17
Nitq prosesi ........ 18
Nitqin tipləri ........ 19
Nitqin növləri ........ 20
Nitqin tərzi ........ 22
Nitqin formaları ........ 23

**Ədəbi dilin normaları** ........ 24
Фонетика вя фонетик нормалар ........ 24
Лексика вя лексик нормалар ........ 39
Ономастика вя ономастик нормалар ........ 47
Грамматика вя грамматик нормалар ........ 49
Цслубиййат вя цслуби нормалар ........ 73

**Практик мяшьяляляр цчцн материаллар** ........ 84
İnşa necə yazılmalıdır ........ 86
Сярбяст инша мювзулары ........ 91
Шякил цзря иншалар ........ 92
Диалог тяртиби цчцн мювзулар ........ 101
Имла йазы мятнляри ........ 103
Верилмиш мятнлярин давам етдирилмяси 112
Ъцмлялярин эенишляндирилмяси ........ 114

**Ямяли йазы нцмуняляри** ........ 116
Ərizə ........ 117
Tərcümeyi-hal ........ 118
Xasiyyətnamə ........ 119
Hesabat ........ 120

www.elmler.net - Virtual Internet Resurs Mərkəzi
Rəy....121
Protokol....122
Məktub....123

**Ифадяли оху вя язбяр ючцн мятнляр**....125
Azərbaycan folkloru. Bayatılar....126
Azərbaycan atalar sözləri....131
Əfsanələr....133
Dil....143
Nizami Gəncəvi....144
Yunus Əmrə....152
İmadəddin Nəsimi....154
Məhəmməd Füzuli....157
Aşıq Ələsgər....159
Mirzə Ələkbər Sabir....161
Hüseyn Cavid....163
Məhəmməd Hüseyn Şəhriyar....166
Səməd Vurğun....169
Mir Cəlal....173
Bəxtiyar Vahabzadə....179
Əli Kərim....191
Məmməd Araz....195
Fikrət Qoca....199
Anar....201
Rüstəm Behrudi....203
Həcər Eminqızı....206
Müasir təmsillər. Mənsur....210

**Азярбайъаны таныйаг**....211

Qan yaddaşımız....233
Milli bayramlarımız....234
Ədəbiyyat siyahısı....238

Щяъяр Щцсейнова

**Нитгин инкишафына даир практик мяшьяляляр**

*яъняби тялябяляр цчцн дярс вясаити)*

Бакы, «Елм вя тящсил», 2014, 246 с